MUSA NƏBİOĞLU

SÖZÜN ZƏLİMXAN ZİRVƏSİ

Bakı – 2015

Redaktor və ön sözün müəllifi:
Qəzənfər Paşayev,
filologiyaüzrə elmlər doktoru,
professor

Musa Nəbioğlu (Musa Nəbi oğlu Çobanov). Sözün Zəlimxan zirvəsi.
Bakı, "Vətən" nəşriyyatı, 2015. 174 səh.

Tədqiqatçı Musa Nəbioğlunun "Sözün Zəlimxan zirvəsi" monoqrafiyası çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və dəst-xətti ilə seçilən Xalq şairi Zəlimxan Yaqubun çoxşaxəli yaradıcılığına həsr olunub.

$\frac{030}{05012015}$ *Qrifli nəşr*

© M.Nəbioğlu

İSBN 5-89968-051-2

ZƏLİMXANIN POEZİYA ALƏMİNƏ SƏYAHƏT

Zəlimxan Yaqub poeziya aləminə gəldiyi ilk gündən ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, və bu diqqət, bu məhəbbət bir an belə səngiməmiş, çəkilmələrə məruz qalmamışdır. Ona görə də şairin poeziyasında həyat həqiqətdə olduğundan daha həyatidir. Ən önəmlisi isə odur ki, onun poeziyası milli oyanışa, milli ruhun təbliğinə, milli özünüdərkə xidmət edir. Şairə dərin məhəbbətlə yazılan məqalələri toplasaq, cild-cild kitablara sığmaz. Təsadüfi deyildir ki, görkəmli alimimiz Nizami Cəfərov "Zəlimxan Yaqubdan yazılanlar" kitabına yazdığı ön sözdə xüsusi vurğulamışdır: "Zəlimxan Yaqub haqda yazılmış elə bir yazı yoxdur ki, şairə bəslənən dərin, hüdudsuz məhəbbət özünü bütün parlaqlığı ilə göstərməsin. Mən cəsarətlə deyə bilərəm ki, bu miqyasda (və bu keyfiyyətdə!) məhəbbət Azərbaycan ədəbiyyatının tarixində sonuncu dəfə Səməd Vurğuna qismət olmuşdur".

Zəlimxan Yaqubu bu xoşbəxtlik mərtəbəsinə yüksəltmiş şəxsiyyətlər arasında ömrünü milli elmimizə, ədəbiyyatımıza, ədəbiyyatşünaslıq elmimizə həsr edən Kamal Talıbzadə, Bəxtiyar Vahabzadə, Yaşar Qarayev, Süleyman Rəhimov, İsa Hüseynov, Mirvarid Dilbazi, Hüseyn Arif, Məmməd Araz, Xəlil Rza Ulutürk, Tofiq Bayram, Pənah Xəlilov, Budaq Budaqov, Tofiq Hacıyev, Nizami Cəfərov, Camal Mustafayev, Səlahəddin Xəlilov və onlarla başqa elm, ədəbiyyat fədailərini görəndə istər-istəməz qürur duyursan.

İstər "Zəlimxan Yaqubdan yazılanlar" (Bakı, 2005), istərsə də sonra işıq üzü görən üçcildlik "Zəlimxan Yaqub

ədəbi düşüncədə" (tərtib edəni və redaktoru Musa Nəbioğlu) kitabları özlüyündə çox şey deyir.

Zəlimxan Yaqubun ədəbi fəaliyyətinin ciddi elmi-tədqiqat müstəvisinə çıxarılması, onun bir şair kimi elm aləmində də yüksək dəyərləndirilməsindən xəbər verir. Əminə Hüseynova "Zəlimxan Yaqubun yaradıcılığı" və Qədim Rufullayev "Zəlimxan Yaqub və xalq yaradıcılığı" mövzusunda filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissetasiya müdafiə etmişlər.

Çəkinmədən deyə bilərəm ki, bütün bunlar şairin sahilsiz ümmana bənzər çoxşaxəli yaradıcılığını tam əhatə etməkdən çox uzaqdır. Zəlimxan Yaqubun bağbanı olduğu şeir bağçasına daxil olmaq üçün gərəkdir ki, çağdaş poeziyamızla yanaşı, folklorumuzu, xüsusən də, aşıq yaradıcılığını, Zəlimxanı yetişdirən mühiti yaxşı biləsən. Bunları bilən tədqiatçı şairin yaradıcılığına hərtərəfli vaqif ola bilər.

"Sözün Zəlimxan zirvəsi" kitabının əlyazmasını ön söz yazmaq üçün mənə təqdim edən Musa Nəbioğlu deyilənlərə cavab verə biləcək tədqiqatçıdır. Zəlimxanın yetişdiyi mühitdə boy atdığından, mayası sazla-sözlə yoğrulduğundan, neçə illərdən bəri Aşıqlar Birliyinin katibi və "Ozan dünyası" jurnalının baş redaktoru kimi aşıq yaradıcılığı ilə məşğul olduğundan, eləcə də uzun illərdən bəri Zəlimxan Yaqubun kitablarının tərtibçisi və redaktoru (şairin 13 cildlik əsərləri külliyyatı da daxil olmaqla) olduğundan və nəhayət şairin yaradıcılığını mükəmməl bildiyindən "Sözün Zəlimxan zirvəsi" vaxtında yazılmış uğurlu bir əsərdir. Əsərin uğurlu alınmasında yuxarıda sadaladıqlarımızla bərabər, tədqiqatçının istedadı və əməksevərliyi də rol oynamışdır.

Musa Nəbioğlunun ürəyi, qələmi, bütün vücudu Zəlimxan Yaqub yaradıcılığı üstündə köklənib. Tədqiatçı Zəlim-

xanın üslubunu tamamilə saxlayaraq sinonimlərdən, antonimlərdən, xalq deyimlərindən Zəlimxan necə istifadə edibsə, öz əsərində eləcə istifadə edib. Bəzən adama elə gəlir ki, tədqiqatçının monoqrafiyasını deyil, Zəlimxan Yaqubun poeziyasını oxuyursan, şairin özünü dinləyirsən. Giriş və on üç bölümdən ibarət əsərin hər bölümünə şairin şeirlərindən bir misranı başlıq verməsi bu yaxınlığı daha da doğmalaşdırır.

"Sözün Zəlimxan zirvəsi" adlı girişdə Nəbioğlu söz barədə fikirlərini irəli sürür. Qeyd edir ki, o yaradıcılar sözdən möhtəşəm abidələr yarada bilir ki, zamana öz sözünü deyə bilir, sözü urvatdan salmır, onun qədir-qiymətini bilir, zirvələrə yüksəldir. "Sözün Zəlimxan zirvəsi" ona görə yarandı ki, şair sözü göz bəbəyi kimi qorudu, onun üzərində ana övladı üzərində əsdiyi kimi əsdi.

Zəlimxan Yaqubun şeirlərini oxuyanda, söz haqqında fikirlərinin fərqinə varanda Hüseyn Kürdoğlunun misraları qəlbimə hakim kəsildi:

Mən sözün üstündə can qoymuşam ki,
Şerim kal görünər, Sözə söz gələr.

Zəlimxan Yaqub söz üstündə can qoyan, ona görə də sözləri, misraları ürəklərə məlhəm olan şairdir. Zəlimxanın misralarıdır:

Əbədi dirilər cərgəsindədi,
Söz üstə şəhid tək ölən şairlər.

“Zaman səni dana bilməz”

Bu bölümdə tədqiqatçı Zəlimxan Yaquba ümumxalq məhəbbəti qazandıran möhtəşəm poeziyası ilə yanaşı, həm də şairin nitq qabiliyyətindən, fenomenal yaddaşından və s. bəhs edir.

Yeri gəlmişkən, poeziyamızı Zəlimxan Yaqub qədər təbliğ edən ikinci bir şair tapmaq çətindir. Bu, bir yandan onun qeyri-adi hafizəsi, digər tərəfdən, ürəkgenişliyi və poeziyamıza vurğunluğu ilə bağlıdır. Zəlimxan fenomenal yaddaşı və xeyirxahlığı hesabına başqa şairlərimizi təbliğ etməkdən usanmır. Böyük yaradan ona hər şey bəxş edib, qısqanclıqdan savayı. Yaxşı yadımdadır, 1994-cü ildə Füzulinin 500 illik yubiley tədbirinə bir avtobusda, qoşa gedib-gəldik. Şair Bakıdan Bağdada qədər klassik şairləri-mizdən tutmuş gənc şairlərimizə qədər hər birinin şeirlərindən, eləcə də “Koroğlu” və “Aşıq Qərib” dastanlarından əzbərdən dedi.

Musa Nəbioğlu “Zaman səni dana bilməz” bölümündə şairin yaradıcılığına verilən qiymətdən, Zəlimxanın bir şair kimi missiyasından da söz açır. Şairin dünyaya niyə gəldiyini, hansı missiyanı yerinə yetirməli olduğunu onun öz sözləri ilə açıqlayır:

Şair olan öz ömrünü yaşamır,
Dərdin-qəmin bol ömrünü yaşayır.
Yolçuların yoldaşına çevrilir,
Cığır açır, yol ömrünü yaşayır.

Zəlimxan Yaqub xalq ruhu ilə qaynayıb-qarışan, xalqın içində olan, xalq tərəfindən sevilən, poeziyası ilə xalqın

qəlbini riqqətə gətirən bənzərsiz şairdir. Şairin rahat gününün olmadığını bəyan edir:

Sevgisiz, ilhamsız, sözsüz, nəğməsiz,
Şairin bircə gün həyatı yoxdur – deyir.

"Haqdan gəlib Haqqa gedən yorulmaz"

Bu bölüm də maraqla oxunur. Araşdırıcı əsərində yerinə görə sitatlar gətirir, onlara arxalanaraq fikirlərini sübuta çalışır və buna nail olur: "Hər kəs həqiqətə, gerçəkliyin idrakına öz xüsusi yolu ilə gedir. Mən də yazı ilə" (Lev Tolstoy). Zəlimxan Yaqub yaradıcılığı ilə tanış olan hər kəs deyər ki, elə Zəlimxan da belədir. Dahi yazıçının dedikləri sanki görkəmli şairin boyuna biçilib.

"Yalan qənimidi, dini həqiqətdi şairin", – deyən Zəlimxan heç vaxt əqidəsini dəyişmədi. Əlində qələm, dilində həqiqət həyat kredosuna çevrildi.

Şairin "Kimdi səni bu qapıdan buraxan" şeiri zəmanəmizdə baş verən, ürək bulandıran, könül dağlayan, cəmiyyətdə kök salan hadisələrdən söz açır. Aylarla bir nazirliyə ayaq döyən qocanı, şikayətinin yerinə yetirilib-yetirlməyəcəyi bir yana, heç qapıdan içəri buraxmırlar. Şair göstərir ki, bu qapının düyməsi var, tilsimi var, zəngi var. Bir deyil, beş deyil, yetmiş yeddi rəngi var. Zəlimxan bu eybəcərliyin xalqa, millətə vurduğu zərbədən söz açır:

Silahı var, polisi var, postu var,
Rüşvət adlı bir canciyər dostu var.
Bu qapının bu millətə qəsdi var,
Kimdi səni bu qapıdan buraxan?

Bu məqamda da Musa Nəbioğlunun "Sözün Zəlimxan zirvəsi" adlı çox maraqlı kitabında bir az başqa çalarda rast gəlmək olur. M.Nəbioğlu yazır ki, məmur özbaşınalığına, haqlının haqqının tapdanmasına dözə bilməyən şair "siyasət içində siyasət"lə yanaşı, "ticarət içində də siyasət"in getdiyi, "hər şeyin sahibi, ağası bəlli" olan cəmiyyətdə naqisliklərə, eybəcərliklərə, ağsaqqal sözünün eşidilməməsinə dözə bilmir, şair-vətəndaş kimi etiraz səsini ucaldır:

Kimdi şəhərlini, kəndlini sayan,
Sözünü kim tutur bir ağsaqqalın? – deyir.

Şair bir çox şeirlərində millətin dərdindən söz açır. Millətin halından xəbərsiz olanlardan, millətin adından danışmağa mənəvi haqqı olmayanlardan bəhs edir:

Millətin adından danışan kəsin,
Dili uzun gərək, üzü ağ gərək – deyir.

Şair cəmiyyəti qanunsuzluq girdabından qurtarmaq üçün işlək qanunların hazırlanmalı olduğunu qeyd edir. Olub-keçənləri göz önünə gətirir: "bəzən gözümüzün önündə haqlının haqqı tapdananda susmuşuq, gözümüzün qabağında öyülən nakəsə də əl çalmışıq, döyülən mərdə də". Bununla belə, şair bədbinləşmir, cəmiyyətə toy tutanlara da bir gün toy tutulacaq deyir.

"Sözün Zəlimxan zirvəsi"ndə Musa Nəbioğlu bunlardan səmimiyyətlə söz açır.

"Mən elə Türkün ruhuyam"

Bu bölümdə Zəlimxan yaradıcılığında türkçülük, türk dünyası əhəmiyyətli yer tutur. Tədqiqatçı Zəlimxan Yaqub yaradıcılığında Türkçülük ideyasına əsərlər həsr edən araşdırıcıların məqalələrinə müraciət edir. Burada akademik Tofiq Hacıyevin, filologiya üzrə fəlsəfə doktoru Azər Turanın və tənqidçi Əsəd Cahangirin əsərlərinə üstünlük verir. Xüsusən də, Azər Turanın "Əzəl-axır dünya Türkün dünyası" monoqrafiyası dəyərləndirilir: "Zəlimxan Yaqubun şeirlərində Türkün genetik yaddaşı dipdiridir" cümləsi çox mətləblərdən xəbər verir, - deyən müəllif Türk dünyası ilə bağlı şeirlərini tədqiqat süzgəcindən keçirir. Zəlimxanın, Dərbəndə, Kərkükə, Təbrizə, Borçalıya həsr etdiyi şeirlərə xüsusi önəm verir:

Kərkükü, Dərbəndi xatırlamazdım,
Əgər Borçalıda doğulmasaydım – deyir.

Bununla Borçalının da, Kərkükün də, Dərbəndin də yad əlində olduğunu bir daha oxucuların, xüsusən də keçmişimizdən az xəbəri olan gənclərin nəzərinə çatdırır. Doğrudan da, tarixin yaddaşı gödək olur. İndi çoxmu adam bilir ki, Dərbənddən əlavə, Dərbənd ətrafında düz 30 kənddə azərbaycanlılar yaşayır. Şair ingilis yazıçısı Ceyms Oldricin "ikiyə bölünmüş bir ürək" adlandırdığı Güney və Quzey Azərbaycandan ürəkağrısı ilə söz açır.

Tədqiqatçı bu bölümdə Zəlimxan Yaqubun bütün Türk dünyasının şairi olduğunu xüsusi vurğulayır.

“Qarabağ ən çətin sualdı, qardaş”

Bu bölümdə müstəqillik qazanmağımızla bərabər, Qarabağ problemi ilə də üzləşməyimizlə bağlı şairin narahat anlarından, çözülməsi müşkülə çevrilən Qarabağ dərdindən söz açılır. Şair şeirlərində, M.Nəbioğlu isə tədqiqatında göstərir ki, Qarabağ problemini ortaya atanlar öz çürük niyyətlərini həyata keçirənədək bizdən əl çəkmək niyyətində deyillər. Bizim prezidentimizin, dövlətimizin çalışdığı odur ki, bu bəladan az ziyanla çıxaq. Z.Yaqub bu gün şairlərin də öz şeirləri ilə sıravi əsgərə dönmələrini təkidlə irəli sürür:

Haqqın var baş olub, başda durmağa,
Qaldır məmləkəti ayağa, şerim –

- deyə haray çəkir. Bu gün şair olan şeirini evdə yox, səngərdə yazmalıdır, – deyir.

Bununla belə, “Qarabağ ən çətin sualdı, qardaş” – deyən şair “Millətin xilas yolu bu gün savaşdan keçir”, – deyərək doğma torpaqlarımızın tezliklə azad olunacağına ümidini itirmir.

“Mən dünyanı durultmağa can atdım”

Bu bölümdə tədqiqatçı şairin mənəvi saflığa, paklığa, daxili gözəlliyə səsləyən poeziyasını araşdırır. Z.Yaqubun “dünyanın çirkabını şair sözü təmizlər” misrasına söykənərək onun çoxsaylı poeziya nümunələrini süzgəcdən keçirir. Tədqiqatçı şairin bu yoldakı amalını ortaya qoyur:

Nemətdi duruluq, saflıq, təmizlik,
Bəsimdir sənintək bir bulaq olum.

Z.Yaqub saflığın, paklığın insana başucalığı gətirdiyini, insan qocalanda da vüqarlı olacağını şair fəhmi ilə dəqiq görmüş və şeirlərində qabarıq şəkildə vəsf etmişdir.

"Sarıldğım sazdı mənim"

Bu bölüm M.Nəbioğlunun ilhamla qələmə aldığı, tədqiqaqata cəlb etdiyi aşıq yaradıcılığı ilə, sazla-sözlə bağlıdır. Bu, təsadüfi deyildir. Akademik K.Talıbzadə deyirdi: "Zəlimxan sazla şeirin ruhunu, mayasını birləşdirən şairdir". Xalq şairləri Osman Sarıvəlli də, Hüseyn Arif də, AMEA-nın müxbir üzvü S.Xəlilov da bu fikirdədir. Həqiqətən də Zəlimxanın mayası sazla sözün vəhdətindən yoğrulub. Bu bölümdə şairin onlarla şeiri, aşıq yaradıcılığına, aşıq sənətinə, saz havalarına, bu havaları yaradan, yaşadan, aşıq sənətini zirvələrə qaldıran sənətkarlara həsr etdiyi poema və dastanlar tədqiqata cəlb olunub. Tədqiqatda "Saz", "Yunus Əmrə", "Ələsgər", "Aşıq Hüseyn Saraçlı", kimi lirik-epik poema və dastanlara geniş yer verilib. Şairin bircə cümləsi deyilənlərə işıq tutur: "Məni başqa yerdə axtarmağa gərək yoxdur, ünvanımı sazdan soruşun". Bu sözlər çox mətləblərə aydınlıq gətirir.

Tədqiqatçı monoqrafiyasında Zəlimxan Yaqubun saza-sözə, aşıq sənətinə münasibətini şairdən sitatla tamamlayır və hər şey aydın olur: "Saz mənim üçün Türk ruhunun

şəksiz və şəriksiz, tək və müqəddəs alətidir. Saz mənim üçün ana laylası, beşikdən məzara qədər ömür yolunda yol yoldaşım, könül sirdaşım, həyatım, varlığımdır". Şair öz məramını poeziya dili ilə belə çatdırır:

Sən varsan, həyatda mən varam demək,
Səsimi hər yana yetir, ay sazım.

Və ya:

Qalxıb şəhər könlüm, meyli kəndədi,
Xəyalım yaylaqda, göy çəməndədi.
Özüm Göyçədə yox, Göyçə məndədi,
Hər yeri gəzməyə ömür də çatmaz,
Yaxşı ki, sən varsan, ay sədəfli saz.

Ədəbiyyatşünas alim Azər Turan şairin poemalarından danışarkən həqiqətdən söz açan fikir söyləyir: "Etiraf etməliyik ki, Azərbaycanda muğamın dərki müstəvisində Bəxtiyar Vahabzadənin "Muğam" poeması hansı işi görübsə, Zəlimxan Yaqubun "Saz" poeması da saz havalarının dərki müstəvisində eyni işi görüb".

Dahi Ü.Hacıbəyli yazırdı ki, aşıq sənəti elə bir aləmdir ki, burada bəstəkarın da, şairin də, xanəndənin də, rəqqasın da istənilən qədər götürə biləcəyi pay vardır. Mənə belə gəlir ki, şairlərimiz arasında aşıq sənətindən, aşıq yaradıcılığından Xalq şairi Zəlimxan Yaqub qədər pay götürən, bu sənət aləmi ilə üzvi surətdə bağlı olan ikinci bir adlı-sanlı şairimiz yoxdur. Burada bir məsələdən də söz açmaq yerinə düşərdi. Akademik Mirzə İbrahimov yazır: "Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçiddir, möh-

kəm bir körpüdür. O, bir tərəfdən xalq yaradıcılığına bağlıdır, o biri tərəfdən yazılı ədəbiyyata. Həm bununla, həm də onunla qarşılıqlı əlaqə və təsirdə inkişaf etmişdir. Onun kökləri, rişələri folklordan su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır".

Tam əminliklə deyə bilərik ki, aşıq poeziyasına məxsus keçidin daimi olmasında, xalq yazıçısının söhbət açdığı körpünün daha möhtəşəm olmasında, ədəbiyyata qovuşmasında Zəlimxan Yaqub qədər xidmətləri olan başqa bir çağdaş şairimiz də yoxdur. Məhz buna görə də şairin çağdaş ədəbiyyatımızın, aşıq yaradıcılığının və folklorun qovşağında bərqərar olması təəccüb doğurmur.

Onu da demək vacibdir ki, Zəlimxan Yaqub görkəmli aşıq Hüseyn Saraçlının itkisindən təsirlənərək "Aşıq Hüseyn Saraçlı" dastanını yazmış və Xalq yazıçısı Elçinin doğru olaraq qeyd etdiyi kimi, yazılı ədəbiyyatımıza dastan janrını gətirmişdir.

"Böyüklərin qədrini ancaq böyüklər bilər"

Bu bölüm də çox maraqla oxunur. Həqiqət budur ki, Zəlimxan Yaqubun dediyi kimi, hər bir qələm sahibinin xatirə yazmaq dövrü və xatirəyə çevrilmək məqamları var. Zəlimxan Yaqubun görkəmli şəxsiyyətlər, tanınmış ədəbiyyat, mədəniyyət və incəsənət adamları haqqında təkrarsız məqalələri, xatirələri vardır. Lakin Zəlimxan Yaqub Zəlimxan olmazdı, əgər bu şəxsiyyətlərə şeirlər, poemalar həsr etməsəydi.

Şair Məhəmməd Əmin Rəsulzadəyə, Səməd Vurğuna, Mikayıl Müşfiqə, İlyas Əfəndiyevə, İsa Muğannaya, Hüseyn Arifə, Məmməd Araza, Tofiq Bayrama, Musa Yaquba, Cavad Heyətə, Mikayıl Mirzəyə və bir çox başqalarına şeirlər həsr edib. İsa Muğannaya "Ün", Turan Cavidə "Cavidin qız balası", Xudu Məmmədova "İnsan" poemalarını ithaf edib. Bir çox yazıçı və şairlərimiz, ictimai xadimlər haqqında xatirə məqalələri yazıb. Bütün deyilənlər barədə monoqrafiyada müfəssəl danışılıb.

Monoqrafiyada Xalq şairinin Ulu öndərimizə həsr etdiyi irihəcmli "Əbədiyyət dastanı" poemasından da bəhs edilir. Bu, təbiidir. Zəlimxan Yaqubun göz yaşları ilə yazdığı bu möhtəşəm "Əbədiyyət dastanı" Azərbaycan tarixində bir epoxa olan, misilsiz xidmətlərinə görə xalqın xatirəsində əbədilik qazanan, onun qürur və güvənc yerinə çevrilən dahi şəxsiyyət Heydər Əliyevə kədər dağının zirvəsindən oxunan elegiyadır.

"Əbədiyyət dastanı" ali kədər və ali sevgidən yaranıb.

Mən belə ağlamışam,
qanlı fələk ilk dəfə
Ürəyimi qıranda.
Yetim qalıb, atamı
torpağa tapşıranda.

Ali kədər zirvəsində dayanan şair onun ümümxalq kədəri olduğunu dərindən dərk etmiş, bu kədərin və bu sevginin sonsuzluğunu inanılmaz ürək çırpıntıları ilə vəsf etmişdir. Şairin "Əbədiyyət dastanı" poemasına yazdığı giriş məqaləsi də ümummilli liderimizə həsr olunan məntiqi fikirlərlə zəngindir: "Ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim bir

şəxsiyyətlə bağlı üstümüzü alan, qapımızı qəfil döyən qara xəbər hamı kimi məni də dərindən-dərinə sarsıtdı. Bu sarsıntılar içində əlimə nə vaxt qələm aldığımdan heç özümün də xəbərim olmadı. O vaxt özümə gəldim ki, artıq sonuncu misranı yazıb, son hissəni tamamlamışam".

Bu deyilənləri ölməz "Əbədiyyət dastanı" poemasının son misraları da təsdiqləyir:

Həsrətini çəkəcəyəm illər boyu,
Kövrək qəlbim oyum-oyum oyulacaq.
Eşqin ilə yaratdığm bu dastanın
Son nöqtəsi mən öləndə qoyulacaq.

"Şair bu dünyanı boşuna gəzməz"

Musa Nəbioğlu bu bölümü də ilhamla işləmişdir. O, yazır: "İnsan ömrünün böyük bir hissəsini yollarda, səfərlərdə keçirir. Əslində, bütün həyatımız bir səfərə bənzəyir. İnsan doğulduğu gündən onu axirətə aparan bir yolun yolçusuna çevrilir. Və bu böyük yolun hər dayanacağı, hər tini, hər döngəsi, enişi, yoxuşu insana çox şey öyrədir, dünyagörüşünü zənginləşdirir, həyat təcrübəsini artırır".

Həqiqətən də, yollar, səfərlər çox vaxt əzablı olsalar da, barlı-bəhrəli olurlar. Bunu biz Zəlimxan Yaqubun dəfələrlə səfərlərdən necə barlı-bəhrəli döndüyünün şahidi olaraq da görmüşük. Mənim qənaətimə görə, çağdaş poeziyamızda Zəlimxan Yaqub qədər rəsmi və qeyri-rəsmi səfərlərdə olan ikinci bir şair tapmaq çətindir. O, bütün Türk ellərini, Avropa, Asiya, Afrika qitələrini gəzib, Vətənə bol-bol ədəbi

materiallarla, şeirlərlə, poemalarla dönüb. Onun hər səfəri bir kitaba çevrilib. Tədqiqatçı M.Nəbioğlu "Şair bu dünyanı boşuna gəzməz" bölümündə söz açdıqlarımızdan hərtərəfli danışıb, həqiqəti şairin misralarında tapıb:

Şair bu dünyanı boşuna gəzməz,
Hər səfər bir tarix, bir kitab olar.

Şair səfərləri zamanı Vətən-qürbət məsələsini də ortaya qoyub:

Elə gəzməyə də Vətən torpağı,
Elə ölməyə də Vətən yaxşıdı - qənaətinə gəlib.

"Təbiət Allahın şah əsəridi"

Bu bölümdə tədqiqatçı Zəlimxan Yaqubu təbiətlə təmasda, təbiətlə vəhdətdə araşdırır. Hüseyn Arifdən sonra təbiət vurğunu olan, təbiətin qoynunda dinclik tapan şairimiz Zəlimxandır. Təbiətdən böyük ziyarət olmaz – deyən şair təbiəti ilham mənbəyi, şeir qaynağı, poeziya bulağı, müqəddəslik beşiyi adlandırır.

Musa Nəbioğlu şairin təbiəti vəsf edən, ilhamla yazılmış şeirlərini eyni ilhamla tədqiq edir. Ən uğurlu şeirlərə məhəbbətini, vurğunluğunu gizlətmir. Zəlimxanın təbiəti dərindən duyduğunu xüsusi vurğulayır:

Ən böyük hikməti təbiətdə gəz,
Olsa da yolları dolaşıq, çətin.

Yüz il yaşasan da, sirrini verməz,
Dilini bilməsən sən təbiətin!

Təbiətin dilini bilmək üçün gərək Zəlimxan kimi onun vurğunu olasan, təbiəti bütün vücudunla sevəsən, onun qoynunda boy atasan. Şair 13 cildlik külliyyatının birinci cildinə yazdığı ön sözdə təbiətlə bağlı göstərir ki, gözündən su içdiyi bulaqlar ona aşıqlıq, şairlik bəxş edib. Həmin bulaqlar onu hallı-havalı çaylara, çaylar da sahilsiz ümmana – söz, ruh, təfəkkür ümmanına qovuşdurub:

Qəlbimi riqqətə gətirməsəydi,
Ana təbiətin yaratdıqları,
Mən hardan bilərdim şairlik nədir

– deyərək hər şeyin başlanğıcını Yaradanla Ana təbiətin vəhdətində görür.

"Allahın sözünü sevənlər yazır"

Nəbioğlunun əsərinin bu bölümü də böyük ilham, şairin yaradıcılığına dərin məhəbbətlə yazılıb. **Sevgiyə nökərəm, sevgidi şahım** – deyən Zəlimxan bütün yaradıcılığı boyu bir gün də sevgisiz yaşamayıb. Tədqiqatçının doğru olaraq göstərdiyi kimi, altında imzası olmasa belə, Zəlimxanın şeirini oxuyan poeziya pərəstişkarı şeirin kimə məxsus olduğunu müəyyənləşdirə bilər. Şairin şeirlərində diqqəti çəkən mühüm cəhət vardır. Şair sevənləri ismətli olmağa, sevgiyə müqəddəs, ülvi məhəbbət kimi baxmağa çağırır. Şair üçün sevgi inamdı, ümiddi, həyatdı, dindi, imandı. Allah sevgi dağını heç kimə göstərməsin – deyə dua edir. Sevən ürək

saf, təmiz, pak, kindən-küdurətdən uzaq olar. Sevənlərin mərd olduğu qənaətinə gəlir. Sevən adamın gözündə cəhənnəmə bənzər bir yer də dönüb laləzar olur. Şair etiraf edir: "Mənim bircə dinim var, dinimin adı sevgi". Şair gözəllik qarşısında heyrətdən lal olur. Musa Nəbioğlunun qənaəti də maraqlıdır. "Zəlimxan Yaqub üçün gözəllik başdan-başa ilhamdı, düşüncədi". Şairin sevgiyə həsr etdiyi şeirlərin sayı-hesabı yoxdur. Onları əzbər bilər insanların, xüsusən də gənclərin də sayı hesaba gəlməz. Neçə ki, sevənlər var, sevilənlər var, şairin şeirləri unudulmayacaq, nəsildən nəslə keçəcək, könüllərdə yaşayacaq – deyən tədqiqatçı haqlıdır.

"Öləndə də qəbrim qədər Azərbaycan torpağıyam"

Tədqiqatçı bu bölümdə Vətən və vətənpərvərlik mövzusunda qələmə aldığı poeziya nümunələrini araşdırır. Akademik Budaq Budaqovdan misal gətirir və göstərir ki, Zəlimxan Yaqub bir vətənpərvər şair kimi qanı canına hopdurulmuş ana torpağın yetişdirdiyi vətənə layiq oğullarımızdandır. Şair doğru deyir: "Sənin eşqin, sənin odun olmasa, şair qəlbi alovlanmaz, ey Vətən". Bu isə tədqiqatçının qənaətidir: Zəlimxanın hər şeirindən Vətən ətri gəlir, el-obanın, yurd-yuvanın istisi, sazımızın nəfəsi, dilimizin şirinliyi duyulur.

Şair ölkəmizin cənnət guşələrinin əsrarəngiz gözəlliyini tərənnüm etməkdən doymur:

Nə həddi var əfsanəvi cənnətin,
Azərbaycan torpağına bənzəyə.

Vətəni, eli-obanı, müqəddəs torpaqlarımızı bundan gözəl tərənnüm etməkmi olar? Bu, Nəbioğunun göstərdiyi kimi, bütün sevgilərdən baş olan Vətən sevgisi, torpaq sevgisi, tarix və yaddaş sevgisidir.

Bu dünya əbədi dirilərindi

Musa Nəbioğlunun "Sözün Zəlimxan zirvəsi" əsərinin bu bölümündə fani dünya, insan, zaman haqqında şairin şeirləri, fikirləri tədqiqat süzgəcindən keçirilir. Nə yaxşı ki, araşdırıcı şairin son vaxtlar yazdığı şeirləri bu son bölümdə nəzərdən keçirir. Artıq müəyyən yaşa dolmuş şairin düşüncəsində, fikrində, təfəkküründə baş verən dəyişiklik, mübtəla olduğu xəstəlik ilə bağlı bəzən ümidsizliyə qapılması, həyat həqiqətlərini dərindən dərk etməsi bu şeirlərində əksini tapır. Lakin şair ümidini üzmür:

Bircə təsəllim var, eşqim ürəkdən,
Adım yaddaşlardan silinməyəcək.

Musa Nəbioğlu söhbət açdıqlarımızı dərindən duymuş və yazmışdır ki, insan-dünya, həyat-ölüm bütün dövlərdə ədəbiyyatın əsas mövzularından olmuşdur. Elə şair tapmaq çətindir ki, bu dünyanın gərdişinə şeir həsr etməmiş olsun. Bu baxımdan Zəlimxan Yaqubun yaradıcılığı da istisna deyil. Dünyanın gərdişinə, həyat fəlsəfəsinə, insanın bu dünyadakı və axirətdəki aqibətinə həsr etdiyi şeirlərində şairin özünəməxsus müdrik yanaşması diqqəti cəlb edir.

Tədqiqatçı fikirlərində haqlıdır. Lakin unutmaq olmaz ki, Zəlimxanın sağlamlıq durumu ona dünyaya başqa gözlə baxmaq, dünyanı daha yaxşı dərk etmək imkanı verib:

Ürək səsdə, tələşda,
Baş fikirlər içində.
İnsan çox düşünsə də,
Qalır sirlər içində.
***
Bilmək olmur zamanı,
Bilmək olmur həyatı – deyir.

Və ya:

Hamı bu dünyanındır,
Dünya heç kəsin deyil.

Bu iki misalda şair həqiqəti bəyan edir.

Qəbiristana gedən yolda düşüncələrə dalan, adamları fağır, addımları ağır görən şair deyir ki, cığırları nəmli olan bu yolda giriş var, çıxış yoxdur. Bu, Musa Nəbioğlunun doğru qənaətidir. Bu isə şairin həqiqətdən bəhs edən sətirləridir:

Ah qalxır, aha qovuşur,
Ağı segaha qovuşur.
İnsan Allaha qovuşur,
Qəbiristana gedən yolda.

Burada bədbinliklə həqiqət tam açıqlığı ilə çulğaşır. Bununla belə, şairin arzuları tükənmir. Şair zamana sığmayan, yazıb-yaratmaq eşqilə döyünən ürəyindəkiləri boşaltmaq, bütün arzularını həyata keçirmək üçün Yaradandan möhlət istəyir:

Qapısını öz əlimlə döyərəm,
Əzrailə xoş gəlmisən deyərəm.
Kəfənimi gülə-gülə geyərəm,
Aman ölüm, mən dediyim vaxtda gəl – deyir.

Allah Zəlimxan Yaquba poeziyamızın naminə uzun ömür versin. Dünyanın keşməkeşlərini dərindən duyan şair, oxuyanda göz yaşlarımı saxlaya bilmədiyim, məni haldan-hala salan şeirini də yazıb:

Bildiyim bircə şey var:
Bir ustanın əliylə,
Naxış-naxış qazılmış,
Məzarımın üstündə,
Baş daşıma yazılmış,
Belə bir bənd olacaq:
Yer üzündə bəndənin,
Göy üzündə Allahın,
Qədrini bildi, getdi.
İşıq ömrü yaşadı,
Sevdi-sevildi, getdi.

Bu misralar yadıma sevimli şairimiz Səməd Vurğunun misralarını saldı:

Şirin bir xatirədək qalacaqdır dünyada,
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Zəlimxan xoşbəxt şairdir. O, bu dünyada o dünyalığını da qazanıb. Sevərək yaşayan, ümumxalq məhəbbəti qazanan, sevilən şair əbədilik qazanıb. Və nəhayət onu da deyim

ki, Musa Nəbioğlu bütün əsər boyu şairin poeziyasından dərin məhəbbətlə söz açmış, ortaya şairə layiq bir əsər qoymuşdur. Bizə qalırsa, tədqiqatçının "Sözün Zəlimxan zirvəsi" əsəri şairin sahilsiz ümmana bənzər yaradıcılıq yoluna işıq tutan tədqiqat işi olmaqla bərabər, Zəlimxan Yaqubun poeziya aləminə uğurlu səyahətdir.

Qəzənfər PAŞAYEV,
filologiya üzrə elmlər doktoru, professor

SÖZÜN ZƏLİMXAN ZİRVƏSİ[1]

(Giriş əvəzi)

Sözün Allahdan sonra yarandığını deyənlər yanılmırlar. İlahi bir qüdrətlə yaranan söz Allah boyda hikmətdir, möcüzədir. Bu möcüzə zaman-zaman insanların dadına çatıb, hoyuna yetib. Dar gündə də, gen gündə də insan sözə tapınıb, sözə sığınıb. Bəlkə elə buna görədir ki, şairlər Allaha başqalarından bir köynək daha yaxındır, – deyirlər. Dünyanın bütün maddi nemətləri ilə təmin olunmuş ən zəngin adam da bəzən bircə kəlmə sözə möhtac olur. İstər xoş anlar olsun, istər qəmli – hərdən adam elə ovqatda olur ki, bircə kəlmə söz ona son nəfəsdə can verən xəstəyə bir damcı su kimi əziz olur. Təbii ki, həmin sözün kimin dilindən səslənməsinin böyük əhəmiyyəti var.

Sözün qüdrəti, sehri böyükdür. Əslində söz adamları da memarlar kimidir. Naşı memar ən yaxşı inşaat materiallarından da yöndəmsiz bina tikdiyi kimi, Tanrıdan ilham payı olmayan "söz adamları" da nə qədər əlləşsələr də, ortaya söz yığınından başqa bir şey qoya bilmirlər. O yaradıcılar sözdən möhtəşəm abidələr yarada bilir ki, dünyaya gələndə alnına "sözün qisməti" yazılır, zamana öz sözünü deyə bilir. Sözü urvatdan salmır, onun qədir-qiymətini bilir, onu ətəklərdə sürünməyə qoymur, zirvələrə yüksəldir. Zaman-zaman sözümüzün Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir, Ələsgər, Cavid, Səməd Vurğun, Şəhriyar, Bəxtiyar və digər nəhəng zirvələri olub və bu gün də sözümüz zirvədədir: Zəlimxan Yaqub zirvəsində. Və sözün Zəlimxan zirvəsi, Zəlimxan

[1] Monoqrafiyaya giriş əvəzi kimi verdiyimiz bu yazı monoqrafiyadan bir neçə il əvvəl – 2007-ci ildə yazılıb.

möcüzəsi ona görə yarandı, söz bu zirvəyə ona görə ucaldı ki, O, sözünü zamana cəsarətlə, kişi kimi deməyi bacardı. Başqa cür mümkün də deyildi, çünki onun taleyinə sözün qisməti yazılmışdı:

Dünya mənim idi mən olmamışdan,
Bilirəm dünyaya mən nəyə gəldim.
Yazıldı alnıma sözün qisməti,
Sözümü zamana deməyə gəldim.

Elə buradaca şair, publisist, bacarıqlı maarif təşkilatçısı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Səməndər Məmmədovun Zəlimxan Yaquba sevgisindən doğan şeirdən bir bəndi xatırlatmaq istərdim:

Söz mülkündə alnıaçıq, üzüağ,
Həm ürəkdi, həm qələmdi, həm varaq.
İlhamıyla uca dağdı, uca dağ,
Ucalıqdan heç enmədi Zəlimxan,
Aləm bilir, möcüzədi Zəlimxan.

Bəxtimizə onun müasiri olmaq qisməti yazılmış Zəlimxan Yaqub şeirinin sirri ondadır ki, o, sözünü Tanrının yerdə, insanların isə Tanrı yanında elçisi kimi deyir. Onun sözləri ilahidən güc aldığından oxucu qəlbinə nur çiləyir. Şair Tanrı ilə bəşər övladı arasındakı körpü missiyasınının məsuliyətini bildiyindən hətta Tanrının özünə də yardım etmək istəyir:

Yamac buz olanda, yal buz olanda,
Yer üzü başabaş sal buz olanda,

Allah tək olanda, yalqız olanda,
Tanrıya yardıma, köməyə gəldim.

Dövrümüzün görkəmli ictimai-siyasi və dövlət xadimi Həsən Həsənov yazır: "Zəlimxan Azərbaycan poeziyasının bir-birindən aralı, hərəsi də müstəqil, fərqli və əlçatmaz zirvə təşkil edən qütblərini – Füzulini və Sabiri, Cavidi və Səməd Vurğunu, Yunus Əmrəni və Bəxtiyar Vahabzadəni öz daxilində vəhdətləşdirərək poeziyamıza yeni-yeni dəst-xətt gətirmişdir".

Bu dünyaya haqqın, ədalətin elçisi kimi gələn Zəlimxan Yaqub "Haqqa hesabat"tında bu qənaətə gəlir ki, "ruhu təmiz, eşqi böyük, yolu uzun, ömrü qısa", yerdə dura bilməyib, göylərə sığmayan şair qəlbi bütöv ola bilməz, onun yüz yerindən çatları var. Çünki "daşıdığı yüklərin dərin-dərin qatları var". Eyni zamanda şairin "İlhama, Tanrıya bağlı anları, saatları" və bir kitaba nöqtə qoyanda "haqqa hesabatları var". Çünki:

Tanrının sözüdür bütün şairlər,
Söz yoxdur Allahın sözündən özgə.

Z.Yaqub "uca şeiri yaradıb, yeri göyə bağlayan", "göylər ucalıqdan enməsin deyə, göylərin altına" çiynini verən şairdir. Elə ona görə də Yaradana yaxın olan imzası var, adı var. Tanrıyla görüşmək istəyənlərə isə məsləhəti var:

Yerə baxma, göyə baxma,
Nə kitabda, nə dində gəz.
Uzaqlarda tapammazsan,
Tanrını öz içində gəz.

Zəlimxan Yaqubun şeirlərini, hər kəlamını "dan yerindən düşən işıq" saflaşdırır, çünki onun dan yerinə "verdiyi salamı" Günəş alır.

Duyğuların zirvəsinə baş vurub,
Uca sözün ucasından gəlirəm –

deyən şairin hər şeiri, hər bəndi, hər misrası oxucu tərəfindən sevilir. Ona görə ki, o, "tarixlərin ruhundan süzülüb, yananların ahından od alıb, insanların Adəmindən, Nuhundan, cavanından, qocasından" gəlir. Elə ona görə də "qorxusu yox nə amanın, nə ahın, Günəşi var hər açılan sabahın".

"Palçıqları, lilləri fil yıxan, böhtançının dilləri ev yıxan, selləri daş oyub, dağlar sökən dünya"nın şimşəkləri döyüb, fırtınası fırım-fırım fırlatsa da, onun içərisində parlayan haqq işığı, göy çəmənlərin əyninə biçdiyi paltar, ürəyinə, beyninə axan ulduzlar, səhər-səhər çiyninə qonan mələklər, qan yerinə damarından axan saflıq sayəsində dünya onu bulandıra bilməyib:

Dənsizlərin dənciyinə dən atdım,
Nə qan saldım, nə bir könül qanatdım.
Mən dünyanı durultmağa can atdım,
Dünya məni bulandıra bilmədi.

Dünya Zəlimxanı ona görə bulandıra bilmədi ki, onun yaradıcılıq yoluna, həyat qayəsinə bir amal işıq saldı həmişə:

Bütün ömrüm boyu, həyatım boyu,
Hər gün saz ruhunda, söz kökündəyəm.

"Saz özü tabutum olsun" deyərək sazla sözün vəhdətinə köklənən könülü, ruhu heç nə bulandıra bilməz. Zaman dövrümüzün bu nəhəng şairini bir də ona görə bulandıra bilməyib ki, "ürəklərdən ürəklərə haqqın səsi" kimi axıb:

Buluddan sıyrılar ildırım kimi,
Dağdan qaya kimi qopar Zəlimxan.

Zəlimxan Yaqub poezyasının böyüklüyü bir də ondadır ki, zəmanənin gərdişinə biganə qalmır, "tökülən yaşların, bəlalı başların, qanlı savaşların tarixini" yazır. Bunları yazmaq üçün isə təbii ki, onun öz təbirincə desək, "ürəyin böyüyü, qələmin kəskini, şairin nəhəngi" olmaq lazımdır. Son onilliklərdə xalqımızın üzləşdiyi müsibətləri dünya ictimaiyyətinə daha düzgün çatdırmaq, Azərbaycanı daha yaxşı tanıtmaq üçün bu gün bizə məhz Zəlimxan nəhəngliyi, Zəlimxan ürəyigenişliyi, Zəlimxan qələminin kəsəri lazımdır. Söhbət Azərbaycandan, xalqımızın haqq işindən gedəndə şair qəlbi susa bilmir, dünyanın supergücü olan Amerikaya üzünü tutaraq deyir:

Duy, nədir qəlbimdə coşan nəğmələr,
Tanı, Amerika, haqqımı tanı!
Allah ölkələrə salanda nəzər,
Sazından, sözündən, muğamatından,
Səsindən tanıyıb Azərbaycanı!

Zəlimxan yaradıcılığını diqqətlə izlədikdə adamın gözləri önündə respublikamızın bu günkü siyasi-coğrafi sərhədlərindən kənarda qalmış tarixi torpaqlarımızla birlikdə bütöv Azərbaycan canlanır. "Sınıq körpü" könlümüzün

sınıq yeri”– deyən şair qədim türk ellərinin bir parçası olan Borçalının danışan dili, döyünən ürəyi, vuran əlidir. Daim Borçalı ilə nəfəs alır, Borçalının dərdləri qəlbini göynətdiyindən haray qoparır:

Duyğularım enər bəmə, qalxar zilə,
Bu yollarda dərdim düşüb dildən-dilə.
Bir ömürdü, əridirəm gilə-gilə,
Borçalıyla Azərbaycan arasında.

Zəlimxan Yaqub poeziyasının şirinliyi bir ondadır ki, o, şəhər şairi, kabinet şairi deyil, daim xalqın içindədir, sözün əsl mənasında xalq adamıdır, xalq şairidir. Xalqın dərdsərini, problemlərini yaxşı bilir, daha doğrusu, bu problemlərin içində yaşadır, kədərə ortaq olub, sevinci paylaşmağı bacarır. İki çağırış Azərbaycan Respublikası Milli Məclisinin depuatatı olarkən də belə idi, indi də belədir. Bu gün rəsmən Millət vəkili olmasa da, istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarlarda yaşayan soydaşlarımızın problemlərini cəsarətlə çözməyə çalışır. Başqa cür ola da bilməz. İlhamı ilahidən gələn şair kimi insanların Tanrı yanında elçisi olmaq bütün rəsmi titullardan üstündür. Çünki Tanrı bu mandatı hamıya vermir, verdiyindən də geri almır.

ZAMAN SƏNİ DANA BİLMƏZ

Zaman bu kəsiri bitirməliydi,
Vaqifi bu günə gətirməliydi,
Sazla şerimizi öpüşdürməyə
Bir şair Zəlimxan yetirməliydi.

Xəlil Rza Ulutürk
Xalq şairi

Zəlimxan Yaqub! Bu imza bu gün təkcə Azərbaycanda deyil, türkün ruhu dolaşan hər yerdə sevilir. Ona bu sevgini qazandıran möhtəşəm poeziyası ilə yanaşı, həm də bənzərsiz və təkrarsız nitq qabiliyyəti, fenomenal yaddaşıdır. "Zəlimxan yeganə şairdir ki, Azərbaycanda heç bir təbliğata ehtiyacı yoxdur", – deyən istiqlal şairimiz X.R.Ulutürk onu sadəcə şair yox, poeziya hökmdarı, xalqımızın başucalığı adlandırır: "Mən Zəlimxanı şeirimizin, poeziyamızın, Azərbaycan xalqının başucalığı hesab edirəm".

Z.Yaqub yaradıcılığını "şeirlə yazılmış poeziya tarixi" adlandıran Azərbaycan MEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor S.Xəlilov yazır: "Bu gün çox az adam tapıla bilər ki, milli tarixi mənin çağdaş müstəviyə gətirilməsi sahəsində Zəlimxanla müqayisə oluna bilsin".

Bəs onu, unudulmaz şairimizin dediyi kimi, poeziya hökmdarına, xalqımızın başucalığına çevirən nədir, onu zirvələrə aparan yol hardan başlanır? Bu şöhrətin mayasında, kökündə nə durur? Bu suallara cavab kimi, akademik İ.Həbibbəylidən sitat gətirmək istəyirəm: "Zəlimxan Yaqub Azərbaycan mühiti və şeiri üçün gərəkli olduğu bəlli olan Borçalı mühiti ənənələrini Kürün o tayından, bir regiondan –

bölgədən ümumvətən mühiti səviyyəsinə çıxarmağı və yaşatmağı bacarmışdır”.

Bəli, ötən əsrin 60-cı illərinin sonunda Borçalıdan başlanan yol onu böyük türk dünyasına çıxardı. Millət vəkili, Azərbaycan MEA-nın müxbir üzvü, professor N.Cəfərovun fikirləri bu baxımdan səciyyəvidir: “Azərbaycan poeziyasının geniş səmasında bir ildırım çaxdı, bir Günəş parladı... Gur səsi, ətrafı bir anda nura qərq edən poetik enerjisi ilə şeiri geniş meydanlara, böyük auditoriyalara çıxardı... Və öz içinə qapılmış, fərdi hisslərin məhbusuna çevrilməkdə olan ədəbiyyatı dar sinələrin məhbəsindən qurtararaq minlərin, milyonların mənəvi istifadəsinə verdi”.

“Ədəbi tənqid Zəlimxan Yaqub fenomeni qarşısında mat qaldı”, – deyən N.Cəfərov eyni zamanda yazır: “Zəlimxan Yaqub Azərbaycanın, ümumən türk dünyasının dünyaya bəxş etdiyi o böyük şairlərdəndir ki, onun yaradıcılığının cövhərində, mayasında ilahi istedadın enerjisi, Tanrıdan gələn güc, qüdrət var, əgər belə olmasaydı o, Zəlimxan Yaqub olmazdı!..”

***

“Sən öz məqsədinə nail olmaq üçün üç şeyə malik olmalısan: İstedada, inadkarlığa, özünəinama! İstedad hələ hər şey demək deyil, əgər o, son dərəcə inadkar olmayan bir adama verilibsə, məhv olub gedə bilər. İstedad bircə çimdik də olsa kifayətdir, inadkarlıq isə dərya qədər olmalıdır” (A.Zqorj). Bu fikirlər sanki Zəlimxan Yaqub üçün deyilib: onda Tanrının bəxş etdiyi istedad da var, bu istedada güvənən özünəinam və inadkarlıq da. Bunu biz onun yaradıcılığa başladığı ilk illərdə yazdığı şeirlərdə də görürük. Hələ 18-20 yaşında ikən yazdığı şeirlər ədəbiyyatımıza istedadlı bir

şairin gəlişinin anonsunu verir, sözün yaxşı mənasında "Mən gəlirəm!" – deyir.

Təsadüfi deyildir ki, Xalq yazıçısı Süleyman Rəhimov onun haqqında deyirdi: "Gənc şair coşqundur, öz şeir yaradıcılığında gələcəklidir. Mən ürəkdən inanıram ki, Zəlimxan gənc şairlər içərisində öz ləyaqətli yerini tutmaqdadır və tutmuşdur".

Böyük ədəbiyyata aparan yolda ilk addımlarını atan Zəlimxan Yaquba 1968-ci ildə Borçalının el ağsaqqalı, Əməkdar müəllim Rəşid Acalov xeyir-dua verəndə:

Çəkinmə, hünərlə gir ümmanlara,
Qorxuda bilməsin ləpələr səni

– cavab verir ki, ünvanı bəlli olan bir səfərə çıxmışam, yellər qanadımdır, şimşəklər sürətim, dərələr, təpələr yora bilməz məni. Qətiyyətlə "bu yoldan geriyə dönən deyiləm", – deyir və bu yolun məsuliyyətini, çətinliyini göz altına alaraq, ağsaqqal qarşısında söz verir:

Əgər dediyimin üstə durmasam,
Zəhmətin canıma qoy qənim olsun.
Bu yolu hünərlə başa vurmasam,
Bütün bəşəriyyət düşmənim olsun!
("Sönən deyiləm")

O, çətin, məsuliyyətli, lakin şərəfli bir yola çıxdığını yaxşı bilir, öz gücünə və işinə güvənir, "yalnız özümə güvənəndə bərəkət oluram, dözüm oluram" deyir və atasına söz verir ki, bu yolda inamla addımlayacaq, onun üzünü ağardacaq:

Necə saçlarını ağartmışamsa,
Elə də üzünü ağardacağam!
(“Atama, müəllimimə”)

Və elə həmin qətiyyətlə də deyir:

Yaşamaq istəyirəm, yüz il mənə bəs deyil,
Çünki mənim həvəsim ötərgi həvəs deyil.

Sonradan zaman göstərdi ki, doğrudan da Zəlimxan Yaqubun ədəbiyyata gəlişi sadəcə ötəri gənclik həvəsi olmayıb. O deyir ki, “ucalmaq eşqinə hamı düşsə də, ucalmaq hamıya qismət olmayır”. Əməli xalqına yaraşıq olanlar, insanın, torpağın, havanın, suyun dərin qatlarına enəməyi bacaranlar ucalır, hər kəsi özünün imzası yaşadır. Elə buna görə də “Zəlimxan, sən hara, yorulmaq hara”, – deyir. Çünki yaxşı bilir ki:

Şöhrət qapısını döyən kəslərin,
Gecikməz, qisməti vaxtına düşər.
Hər əsrin əlçatmaz bir zirvəsi var,
O da bir şairin bəxtinə düşər.
(“Şöhrət”)

Şair bu şeiri 1973-cü ildə – 23 yaşında yazıb. Nəğmə kimi oxunan, xalı kimi toxunan, həm nəğmədə, həm xalıda keçən günlərinin çoxu nur olan şair əlli yaşında isə yazır:

Mənim ömrüm birlə yüzün arası,
Bütövündən qalıb ancaq parası.

Əlli keçib, altmış hələ qabaqda,
Gətirmədim heç kəsə üz qarası!
(“Mənim ömrüm”)

“Qaş-qabağı qara bulud”, qapısı kilid görməyən, qəlbi zülmətdən uzaq olan, bəndəlikdən haqqa doğru yol gedən, “kimə bəxt, kimə qismət, yazı” olan, həyatını Vətəninə, xalqına, millətə xidmətə həsr edən və bundan mənəvi zövq alan şair təkcə özü üçün yaşamadığına görə şükür edir:

Ömür yolu öz məsləkim, öz andım,
El dərdini sözə tutan ozandım.
Rahat ölmək xoşbəxtliyi qazandım,
Özüm üçün yaşamadım, çox şükür.
(“Çox şükür”)

Zəlimxan Yaqubun, sözü ən müqəddəs halallıq bilən qələmi nə sükut bilib, nə lallıq, şirəsini dağdan, qayadan çəkib, kimsənin haqqını danan olmayıb. Borçalıdan qanadlanan şeir-sənət yolu səsli-küylü gündüzlərdən, sakit gecələrdən, zildən, bəmdən, sevincdən, qəmdən, alnının tərindən keçib, güvəndiyi zəhmət yolu onu yarıyolda qoymayıb:

Özbaşına ələnmir ki, başıma,
Göydən enir, yerdən çıxır sözlərim.
Gecə-gündüz əlimdəki qabardan,
Alnımdakı tərdən çıxır sözlərim.

Burada yazıçı-publisist Arif Əmrahoğlunun dediklərini xatırlatmaq istəyirəm: “Böyük Yaradan Zəlimxan Yaquba nə veribsə, nə verirsə, istedadından, zəhmətsevərliyindən

başqa, bir də məhz ürəyinə görə verib və verir – heç kəsə həsəd aparmır, qələm dostlarının uğurlarına milli sözümüzün uğuru kimi sevinməyi, ölüyə hörmət, diriyə qayğı, ağsaqqala, ağbirçəyə ehtiram göstərməyi, cavanların qocalmadan, elə gənckən istedadlarını və potensiallarını gerçəkləşdirməyə maddi-mənəvi şərait yaradılmasını istəməyi və bunun üçün əlindən gələni etməyi bacarır".

"Dünyanın dəmindən çox qəmini", talenin neçə bəxtikəmini görən, qat-qat olan ağrı-acılardan gah yanan, gah donan, gah da bu dünyanın işlərinə mat qalan, "mənə neylədisə, həyat eylədi", – deyən şair kövrək bir ürək sahibidir:

Əllərimin içindədir gözümün yaşı,
Tanrı məni yaradanda kövrək yaratdı.
Dərdə yuva, qəmə beşik, həsrətə məskən,
Sinəm altda bir narahat ürək yaratdı.
("Yaratdı")

"Dünyaya birgünlük gəlməmişəm mən", – deyən şair yaxşı insanların qayğısını görüb, bir dərdi olanda həmdərd tapıb, onu "qala kimi qoruyan" yaxşı dostların əhatəsində olub, heç zaman yalqız qalmayıb, daim elin sevgisindən güc alıb:

Elin qəlbi bir dünyadır, bir cahan,
Şair üçün cahan sirdi, sirr cahan.
El sevgisi qoymadı ki, bircə an,
Yalqız qalım, yasa batım, yaslanım.
("Dost üçündü şeirim, sözüm, dastanım")

"Yeddidən yetmişə bütün yolları" keçən, sayılmaz sayların, lal axan çayların, yazda sevənlərin, payızda toyların,

ucalan boyların, günlərin-ayların, buludda layların, eləcə də, itən ümidlərin, axan qanların, zatıqırıqların, toxumu zayların da dilini öyrənən şairin dosta məhəbbəti "dərindən dərin", düşmənə nifrəti "sərindən sərin" olub, "dili dərd dili" olan insanların "daxmasına gedən pay"a dönüb, dərd ilə həmişə söhbəti tutub:

Ağlayan kamandı, uddu söhbətim,
Alovdu, atəşdi, oddu söhbətim.
Dərd ilə həmişə tutdu söhbətim,
Ahların, vayların dilini bildim.
("Dilini öyrəndim bütün dillərin")

Bunun nəticəsidir ki, "köhləni karvan yollarına çıxan" şair "dərin dərələrdə itib-batmır", onu ucalar öz qoynuna səsləyir, əlli yaşlı Zəlimxanı yüz yaşlı qocalar da tanıyır:

Ömrə axşam düşür, ömrə dan gəlir,
Qəlbə xal düşəndə, gözə qan gəlir.
Gördü əlli yaşlı Zəlimxan gəlir,
Tanıdı yüz yaşlı qocalar məni.
("Tanıdı yüz yaşlı qocalar məni")

Z.Yaqub deyir ki, bir yaxşılıq görəndə yumşaldım, mehə döndüm, bir gözəllik görəndə duruldum, şehə döndüm, bir xəyanət görəndə polad zirehə döndüm, yerin-göyün ləngəri, zirvələrin ucası, palıdların qocası, sözün hökmü, kəsəri, ömrün neçə səfəri, haqq axtaran kəslərin Haqdan gələn xəbəri, elin dərdi, kədəri könüllərin qəhəri, bəd nəzərlərdən qoruyan Tanrının xoş nəzəri məni şair elədi! ("Şairlik")

Zəlimxan Yaqub ömür adlı bir yükü çiyinlərinə alıb qışdan yaza çıxıb, yazdan yaya gəlib, yağış kimi torpağın ciyərinə hopub, şimşəklərlə döyüşüb, ilk yuvası qarlı zirvələr olub, gülləri-çiçəkləri saya-saya gəlib, dən-dən olub dünyanın ələyindən keçib, Haqqın verdiyi haqqı-saya gəlib ("Gəlmişəm").

Kimdir Zəlimxan? Hardan gəlir Zəlimxan? Onun bunca oxucu rəğbəti, ümumxalq sevgisi qazanmasının səbəbi nədir? Bu suallara cavabı onun şeirlərində axtarmazdan öncə, ictimai-siyasi xadimlərin, tanınmış elm adamlarının fikirlərinə müraciət edək:

"Zəlimxan Yaqub minillik poeziyamızı fenomenal hafizəsində, yaddaşında gəzdirən qeyri-adi bir söz xəzinəsidir. Onun şairliyi də məhz bu xalq çeşməsindən, klassik irsimizdən mayalanır" (Şamil Qurbanov).

"Zəlimxan, bəlkə də, yeganə şairdir ki, klassik ədəbiyyatımızın, el sənətkarlarımızın ən yüksək yaradıcılıq incilərini, müasiri olan şairlərin ən gözəl şeirlərini əzbər bilir. Bəlkə də, yeganə şairdir ki, öz qələmindən çıxan bütün şeirləri yaddaşına həkk etmişdir" (Qəzənfər Kazımov).

Professor Qəzənfər Paşayev isə yazır: "Zəlimxan Yaqub poeziyamıza qaynar təbi, ənənəyə, ədəbi meyarlara yüksək bağlılığı və öz taleyi, bənzərsiz dəst-xətti ilə gələn şairdir.

O, xalq ruhu ilə qaynayıb-qarışan, xalqın içində olan, xalq tərəfindən sevilən, poeziyası ilə xalqın qəlbini dilləndirən sənətkardır. Yaranışdan şair ömrü yaşayıb, yaza-yaza dünyanı, ən çox da türk dünyasını, el-obanı gəzib, gəzə-gəzə yazıb-yaradıb".

Zəlimxan Yaqub bir ovuc torpağın, bir qurtum suyun, bir əsim küləyin, bir əlçim buludun, bir udum mehin, bir çaxım şimşəyin, sünbülün, bir şirin diləyin yetirməsidir,

nazını bərəkətli tarlalar, zəmilər, al-əlvan çiçəkli çəmənlər çəkib, bulaqlar könlünə süzülüb, ocaqlar közündən od verib ona (“Yetirməsiyəm”).

Ruhu halal mayadan, mayası nurdan, ziyadan yoğrulan, Haqqın yaraşığı olan sözə tapınan Zəlimxan Yaqub İlahi səsdən, ələmdən, yasdan, Haqq adlı dostdan gəlib. Gül kimi açılaraq gülüstan olub, “mənəm Haqqın aşığı” deyərək sinəsində türkün sazı, dilində dastan Füzulidən süzülüb, Yunusdan gəlib. (“Gəldim”)

Qəlbin xəstəliyi adlandırdığı qərəzi heç zaman yaxına buraxmayıb, bir çiçəyi vaxtsız solan görəndə xəzana dönüb. Tale onu söz üstə kökləyib, qələmdən pay verərək yazı yazanlara qarışdırıb, bir kök üstə şaxələnib min budaq olub. (“Ozan olub ozanlara qarışdım”)

Qeybətdən, dedi-qodudan uzaq durub:

Otuz il əlimdə qələm işlədi,
Varağa bir kəlmə qeybət düşmədi.
Əsdi mən tərəfdən sevda yolları,
Heç kəsin payına nifrət düşmədi.

“Yerdə mənəm, göydə mən, sonsuz kainatdayam”, – deyən şair onu duya bilməyənlərə, “Zəlimxan Yaqub hardadır?” – deyənlərə çox aydın cavab verir ki, “ey əsli olmayan kəs, duya bilməzsən məni”, mən soyda, kökdə, əsildə, zatdayam, Adəmdən, Nuhdan gələn yolların yolçusuyam, Haqqa çataçatdayam, “məndə məni görməyə səndə bir mənlik gərək” (“Həmişə həyatdayam”). Belələrinə həm də deyir ki:

Sən şeytan yoluyla qazandığını,
Mən Allah yoluyla çoxdan almışam.
Boynumda heç kəsin minnəti yoxdur,
Mənə nə verilib, Haqdan almışam.
("İtirdiyim dosta ərməğan")

Şairlik Allah vergisi, fitri istedad olmaqla yanaşı, həm də böyük zəhmət, yuxusuz gecələr deməkdir, təbiəti və insanları duymaq və sevməkdir, daim xalqın içində olmaq, onun dərdinə-sərinə qalmaq, sevincinə şərik olmaqdır.

Professor N.Şəmsizadə yazır: "Şairlik Tanrıya qovuşmağa ən böyük cəhd, poeziya həmin cəhdi reallaşdıran vasitə, bu vəhdətə aparan yoldur. Zəlimxan bu yolun inadkar yolçusudur. Həmin yolu o, güclü istedadının işığında gedir".

Professsor M.Məmmədli isə "Tanrı Zəlimxanı şair yaratmaqla onu mükafatlandırıb. Tanrı payı Zəlimxan Yaqubun ən böyük mükafatıdır", – deyir.

Z.Yaqub da "Mən hardan bilərdim şairlik nədir?" şeirində deyir ki, torpaqdan, toxumdan, dəndən, Qurandan, dindən, dərdlinin göylərə səs salan ünündən, qopuzdan, Qorquddan gəlməsəydim, ana təbiətin yaratdıqları qəlbimi riqqətə gətirməsəydi, göylərdən süzülən pıçıltıları könül duymasaydı, mən hardan bilərdim şairlik nədir.

"Şair qələmiylə işin olmasın" şeirində şeir-sənət qədri bilməyənlərə, poeziyanı duymayanlara üz tutaraq deyir ki, "qələmin dünyası ocaqdı, pirdi", mənim qələmim ustadların yoludur, ocağın, pirin yolunda can verib, şərin qarşısını kəsən hasara çevrilib. Bu qələm göydə mələkdi, yerdə pəridi, Koroğlu dəlisidi, dərvişdi, ozandı, zülmətlərə işıq saçandı. Dərviş Yunusdan dərs alıb ərənlər sözüylə vüsala çatan bu qələm "hər ulu kişiyə bir əsər yazıb". Şair sözünə

biganə olanları, ona şübhə edənləri Haqqın qəzəbindən qorxmağa çağırır. Şair "bostanına daş atanlara" təəssüf hissilə deyir ki, əl sənin olsa da, atdığın daş səninki deyil, "ağıl özgənindi, baş sənin deyil".
"Dünyaya gərəyəm" şeirində:

Dünya məndən keçsin, özünə baxsın,
Göz kimi gərəyəm mən bu dünyaya

– deyən şair bu dünyaya gərək olduğunun fərqindədir və deyir ki, "gərəksiz, Allahın xoşuna gəlməz", mən də bu dünyaya söz kimi, "sönən ocaqları qalamaq üçün köz kimi" gərəyəm:

Yerin ləngəriyəm, göyün qatıyam,
Bir layla, bir qoşma, bir bayatıyam.
Duyan könüllərin havacatıyam,
Söz kimi gərəyəm mən bu dünyaya.

Sonralar "Mən bu dünyaya niyə gəldim, faydalı bir iş görə bildimmi, savabımmı çox oldu, günahımmı?" – deyə özü-özünə sual edən Z.Yaqub hələ 1977-ci ildə yazdığı şeirlərindən birində deyir ki, "elə arxalansa şair ilhamı, onu şimşəklər də yenəsi deyil". Söz adamının qismətinə yazılan tale ilə barışır:

Şair olan öz ömrünü yaşamır,
Dərdin-qəmin bol ömrünü yaşayır.
Yolçuların yoldaşına çevrilir,
Cığır açır, yol ömrünü yaşayır.

Söz üçün ən ulu dərgaha varıb, sözün eşqinə sinəsini yarıb, söz dalınca səfərə çıxıb, dolu gedib, dolu gəlib, sonunda özünə çatan yolu gəlib Zəlimxan Yaqub. Heç nə qarşısını kəsə bilməyib, çünki sözü ötkəm, inamı qəti olub. Elə buna görə də inamla deyirI:

Məni qorxutmadı heç vaxt, heç zaman
Birinci olmağın məsuliyyəti.

Bəli, birinci olmağın məsuliyyəti onu heç zaman qorxutmayıb, öz gücünə, zəhmətinə və istedadına arxalanaraq şöhrətin zirvəsinə aparan yolda inamla addımlayıb. "Üzü qaralmasa ağ varaqların, şairin həyatda üzü ağ olmaz", – deyib, qələm adamı kimi, bir həqiqəti unutmayıb: "Yazanlar qaldı yaddaşda, yatanlar şair olmadı". Haqq əmək isə heç zaman yerdə qalmır:

Kitab çəmənindən gül dərə-dərə,
Kitablara döndü alnımın təri.
Bu gün də qaldırır məni göylərə,
Müəllim atamın öyrətdikləri.

Şairin yolunu bərəkət yolu hesab edib "dən-dən könüllərə səpələnən", bir dağa söykənib "neçə min il yaşamağa heyi var mənim ömrümün" deyən, sərvəti "söz adlı zəmi" olan şair "haçansa bir insan gələr, əldə çıraq gəzər məni" deyir və haqlı olaraq artıq indidən əbədiyaşarılıq qazandığına inanır:

Daha gecdi, könüllərdə kitabım var,
Qat-qat olan qayaların qaşı qədər.
Daha gecdi, zaman məni dana bilməz,
Yaşamışam bu dünyanın yaşı qədər.

"SÖZDÜ BU DÜNYADA HƏR ŞEYDƏN ŞİRİN"

Uca söz Peyğəmbər dərgahındadı,
Bu gün Zəlimxana bu qismət olub.
Z.Yaqub

"Şairsiz ölkədə, şeirsiz eldə, nə söz gözəlləşib, nə hikmət olub", – deyən Xalq şairi Zəlimxan Yaqub yaradıcılığa başladığı ilk gündən sözün gücünə, qüdrətinə söykənib, onun qədir-qiymətini, məsuliyyətini bilib, sözü urvatdan salmayıb. O, 13 cildlik əsərləri külliyyatının birinci cildində yazır: "Görəsən dünyanın ilk insanı Adəmin dilindən çıxan hansı söz olub, o sözün adı nə olub, hansı mənanı daşıyıb, nə haqda deyilib, hansı mənəvi ehtiyacdan doğulub? Söz necə səsə, nəğməyə, şeirə dönüb, sözə ilk nizamı, ahəngi, ilk ölçünü-biçini kim verib? Dünyanın ilk şairi kim olub, ilk şeir nə haqda yazılıb. Bilmirəm. Bildiyim bircə odur ki, Adəmi, Nuhu, İbrahimi, Yusifi, İsmayılı, Məhəmmədi peyğəmbərlik dərəcəsinə söz qaldırıb. Bildiyim bircə odur ki, Homeri, Firdovsini, Nizamini, Danteni, Şekspiri, Mövlananı, Höteni, Hüqonu, Hafizi, Taqoru, Dostoyevskini, Tolstoyu zamanın özü qədər əbədiləşdirən, göylərin özü qədər ucaldan söz olub, söz! Gözə görünməyən, ancaq bütün gözə görünənləri idarə edən söz!"

Özünün dediyi kimi, nə yazıb-yaradıbsa, həmişə içini yazıb, içdən gələni yazıb. "Mənim silahım da sözdür" deyən şairi yazdıqlarının çap olunmasından çox, oxucunun qəlbinə yol tapması düşündürüb. "Qalın kitablar" yox, "qalan kitablar" yazıb.

Mənim də silahım sözdü, şeirdi,
Gərək söz daşıyam, silah daşıyam.
Neçə sənətkarın, neçə ustadın,
Neçə sərkərdənin silahdaşıyam.

"Allahım! Nə yaxşı sözü mənə etibar elədin. Nə yaxşı yazmaq istedadı, sözə yeni naxışlar vurmaq imkanı verdin. Sənə şükürlər olsun, Allahım!" – deyən şair hələ 1968-ci ildə özü-özünə sual edir ki, görəsən yazdıqlarım ürəkləri ala bilirmi, mənası varmı, sənət yollarında addım atdımı, ruha yatdımı, özünə yuva saldımı, oxucu qəlbində qaldımı:

Dillərdə gəzdimi, xalqa çatdımı,
Yoxsa, öz yanımda qaldımı şeirim?
("Şeirim")

Zəlimxan Yaquba görə, şair bir el məclisinə gələndə gözündə günəşi, bir kəlmə sözündə bir dünya mənanı, bir dərya eşqi gətirməlidir. Xalqının şərəfi, adı dilində, Vətən torpağının odu, közü sinəsində olmalıdır:

İlhamı dağ seli, gözü-könlü tox,
Hər sətri namərdə ox olmalı, ox.
Şeirini qoynunda, qoltuğunda yox,
Özündə, özündə gətirməlidir.
("Gətirməlidir")

Dünyada gur bulaqlar çox olsa da, körpəlikdən meylini öz bulağına – ilham bulağına, söz bulağına salan şair üçün ilham bir ağacdı, halal mayalı bir bulaqdı, haram əl toxunarsa bu bulağın gözü tutula bilər. İlham – təmiz, saf, riyadan,

yalandan uzaq bir uşaqdır ki, "nə versən ağlını kəsdirmək, soyuq bir baxışla küsdürmək" olar. Görkəmli alim Xudu Məmmədov yazır: "İlham aləmi, gerçək şair olanların həmişə, şair təbiətli adamların arabir, qalanlarının isə bu haqda elə-belə təsəvvürü olan yerdir. Zəlimxan həmişə bu aləmdədir: hər yerdə, bütün vəziyyətlərdə. Onun elə bir sözü yoxdur ki, özü demiş "mayalı, özüllü" ilhamdan gəlməsin".

İlham barlı-bəhrəli, qızılı, zərli yarpaqlı bir budaqdır ki, çox əymək istəsən sınar:

İlham bir torpaqdı, öz ətri, iyi,
Dediyin neməti yetirə bilər.
Min ildə zamanın bitirmədiyi
Min illik bir şöhrət bitirə bilər.
("İlham")

Və deyir ki, şair ilhamı elə arxalanarsa, eldən güc alarsa, işığı azalmaz, şamı qaralmaz, onu şimşəklər də yenə bilməz ("Deyil").

Zəlimxan Yaqub üçün qələm silahdır, masa səngər, özü isə əsgər, əsgər isə məsləkinə and içər. O, qələminə inanır, "ömrüm boyu o mənimdir, mən onun", – deyir. Onun üçün qələm ağ kağızda qara yazı yazan taleyidir, güvəndiyi qüvvətdir, aqilindən, pirindən xəbər verəndir. Bu qələm "Xətaini qaldıracaq yerindən", xalqın taleyini yazacaq dərindən:

O, halaldı, haramlığı götürməz,
Şah budaqdı, cır meyvələr gətirməz.
Ölənədək zəhmətimi itirməz,
İnanmışam, inanıram qələmə.
("İnanıram qələmə")

Bəs Zəlimxan Yaqubun şeirlərinin bunca çox sevilməsinin, oxucu rəğbəti qazanmasının səbəbi nədir? Nədən onun şeirlərini, özünün də dediyi kimi, çiçəklər, arılar, böcəklər də oxuyur, qarışqalar, xallı kəpənəklər də, mələklər, tanrılar, fələklər də, keçmişlər də, gələcəklər də?! Kəklik də oxuyur, qartal da, sıldırım qayalar, geniş düzlər, sünbüllü zəmilər də oxuyur, "yaşıl ağac"dan söz açan oğlanlar, qızlar da... Şairi dünyanın ən xoşbəxt söz adamı edən nədir? "Gəzirdim çölləri bir yaz axşamı" şeirində bu suallara cavab verən şair deyir ki, "şair Allah dilində danışanda" onu "dağ da başa düşür, daş da" anlayır. Mənim şeirlərim də heç zaman boş dayanmayıb, dərdli ürəklərdən dərdi çəkib çıxarıb, dar komasında yoxsula həmdərd olub, çöllərlə səyyah, xəstəylə cərrah, yoxsulla həmdərd, sarayla padşah dilində danışıb.

Görkəmli alim Xudu Məmmədov yazır: "Yad tikinti materialları çox asanlıqla yad memarlıq forması gətirdiyi kimi, yad sözlər də yad şeir forması gətirir. Bu mənada bir şair olaraq "yad tikinti materiallarına" – yad sözlərə və özgə düşüncələrə yönəlməməsi, sazın və klassik irfanın bəxş elədiyi doğma obrazlarla baş-başa qalması, məhrəm keçmişlərə ehya verməsi Zəlimxan Yaquba çağdaş Azərbaycan şeirində ayrıca bir mövqe qazandırdı".

XX əsrin sonlarından başlayaraq dilimizə bir çox yabançı sözlərin daxil olduğu bir vaxtda Zəlimxan Yaqub poeziyamızın dilinin saflığını, təmizliyini qoruya bildi. Tam məsuliyyətlə demək olar ki, çağdaş dövrümüzdə poeziyada klassik ənənənin, poetik dilin şirinliyinin və özünəməxsusluğunun qorunub saxlanılmasında Zəlimxan Yaqubun müstəsna xidmətləri var. Onun şeirlərinin dili həmişə saf olub, təmiz olub. Çünki doğmaca anasının dilində yazıb-yaradıb:

Anam necə dinir, necə danışır,
Şeirimi anamın dilində yazdım.
Məni dilləndirən, məni dindirən,
Sevgimin, sonamın dilində yazdım.
Sağlam əqidənin, saf təbiətin,
Allaha inamın dilində yazdım.
Halal kişilərdən halal söz aldım,
Halal bir ilhamın dilində yazdım.

Sinəmin sipəri, ruhumun, canımın təpəri sözdü, söz mənim ruhumdu, canımdı, – deyən, özünü söz səngərində döyüşən əsgər sayan şair üçün bu dünyada sözdən yuxarıda heç nə yoxdur, bəzən şairi nə qədər endirsələr də, söz yenə öz ucalığında qalır. Ona görə, bütün zamanlarda şairin sözü şaha özünün fərmanından ağır gələcək. Çünki:

Min şah bir ölkədə şahlıq elədi,
Bir şair şöhrəti qazanammadı.
(“Şairin sözü”)

Ömrü “yağ-böyrək içində” tutmayan, içində od vurub yağ əridən, “ağa baxa-baxa ağ əritməkdən” gözünün ağı gedib, qarası qalan Zəlimxan Yaqub deyir ki, Haqqın eşqi, əsəri, sözün hökmü, kəsəri, müqəddəslərin Haqdan gələn xəbəri, elin dərdi, kədəri, könüllərin qəhəri, Tanrının xoş nəzəri məni şair elədi. Və bir də deyir ki:

Üzü qaralmasa ağ varaqların,
Şairin həyatda üzü ağ olmaz.
Dayanma, ey qələm, susma, ey ilham,
Nəğməsiz, şeirsiz yaşamaq olmaz.
(“Olmaz”)

Bütün zamanlarda hökmdarlar şairin sözündən qorxub, çəkinib, bu sözün qüdrəti, gücü qarşısında aciz olublar, ehtiyat ediblər. Şair sözünün qüdrətindən qorxanlar şairə müxtəlif yollarla maneələr törətməyə çalışıblar. Bu, öz müstəqilliyinə qovuşanadək Azərbaycanda da belə olub. Şairlər şərin-böhtanın qurbanı olub, sürgün həyatı yaşayıb, günahsız güllələniblər. "Şairi qoysalar şair olmağa" şeirində Z.Yaqub yazır ki, vüqarını sındırmasalar, "paxıllıq buzunda dondurmasalar", ögeylik odunda yandırmasalar, ara qarışdırıb "yaxşını yaman tək qandırmasalar", sürgünə göndərib, gülləyə verməsələr, şair Allahın eşqindən güc alıb arzularını toxum kimi səpərək "Tanrı qüdrətindən əsər yaradar". Əgər şair hər gün içəridən yeyilməsə, "köntöy baxışlarla döyülməsə", qeyrətiylə Araza körpülər salar, ilhamıyla təzə bir Kür yaradar.

İnadıyla "daşları yumşaldıb mum" eyləyən Zəlimxan Yaqub fikrini, düşüncəsini sağlam toxum eyləyib, "ağappaq varaqları qapqara şuma" döndərib, nə əqidəsi sarsılıb, nə də inamı laxlayıb. Heç zaman ayaqlarda sürünməyib, həmişə baş ömrü yaşayıb. Bu həyatda qismətinə dəftərlə qələm düşdüyünə görə, Tanrıya şükür edir. Şair olmağın məsuliyyətini bilir:

Havalanıb nə həvəsə düşmüsən,
Şair olmaq deyil asan, ürəyim.
Əriməsən, əritməsən ömrünü,
Kimdi sənə qulaq asan, ürəyim.

("Ürəyim")

"Dön millət yolunda çırağa, şeirim!" – deyir, şeirinin güclüdən güclü, mətindən mətin olmasını, döyüşçü qəlbində əqidəyə dönməsini istəyir. İstəyir ki, onun şeiri dəftərə, varağa sığışmasın, torpağı silkələyib, göyləri oyatsın, müqəddəs Vətən torpağına baş əysin:

Durma ortalıqda, ya ucal, ya en,
Boş-boş tüstüləmə, ya alış, ya sön.
Döyüşçü qəlbində əqidəyə dön,
Sınmasın, düşəndə sınağa, şeirim!
("Şeirim")

Söz üçün ən ulu dərgaha varan, sözün eşqinə sinəsini yaran, söz dünyanın harasında olsaydı axtara-axtara gedib tapardım ("Söz") deyən xalq şairi deyir ki, mənim şeirim təmkində, dözümdə, səbirdə alınmaz qaladı, yıxılmaz dağdı, yerdə də, göydə də qol-qanadı var, ətri var, rəngi var, sehri, dadı var.

Zəlimxan Yaqub üçün şeir haqqın duasıdır, için aynasıdır, qəlbin ziyasıdır – şeir ziyadan doğulur, daşdan, qayadan, kökdən, mayadan doğulur. Şeir ürəklərin ahıdır, könüllərin şahıdır, şairin Allahıdır ("Şeir").

Mənası ölümsüz, mətləbi dərin,
Sözdü bu dünyada hər şeydən şirin.
Yaxşı bir əsəri varsa şairin,
Onu şair yazmır, Allah yazdırır.

Z.Yaqub deyir ki, şair öz ömrünü yaşamır, "dərdin, qəmin bol ömrünü yaşayır", yolçuların yoldaşına çevrilib cığır açır, yol ömrünü yaşayır. Şairlər bağçalarda gül ömrü,

pətəklərdə bal ömrü, sazda zil ömrü yaşayır. Şairlər "mərd doğulur, mərd böyüyür, mərd ölür", igid olub millətinə şan da verir, şəhid kimi yarasından qan da. Qeyzə gələndə Koroğluya dönür, sınaqlarda polad kimi sərt olur:

Bir dünyadı, min dünyaya bağlanır,
Xalq ömrünü, el ömrünü yaşayır.
("Şair ömrü")

Könüllərə yol tapan, yaddaşlara hopan şeir hər vaxt yazılmır, o, şimşək kimi çaxıb bircə anda yaranır. Yaxşı şeir nurlu gözdə, odlu-alovlu canda, bəzən qanlı davalarda, zindanlarda yazılır. Z.Yaqub da yazır ki, "dünyanın yaxşı şeiri hər gün yazılan deyil", – çünki "dünən dərin bildiyin, bu gün dayaz görünür", zəiflərin bolluğunda yaxşılar da az görünür:

Kökü qədimdən qədim, Adəmdən, Nuhdan gəlir,
Qarışıb qandan keçir, süzülüb ruhdan gəlir.
Ruh da, qan da, nəfəs də qadir Allahdan gəlir,
Dünyanın yaxşı şeiri hər gün yazılan deyil!
("Dünyanın yaxşı şeiri")

"Ölüm" ifadəsinin, "Allah" kəlməsinin "söz bazarında" şordan ucuz olduğu vaxtda həyatın sərt sınağını, çətinliklərini görməyənlərin, zülüm nədi, ölüm nədi bilməyənlərin zülümdən, ölümdən, "bir dəfə əlini köz yandırmayan"ların Əslinin, Kərəmin külündən yazmasıyla barışmayan şair, "hamıya zülmətdi dünya" deyənlərlə də razılaşmır:

Ölüm şeirləri baş alıb gedir,
Ölümü əkirlər, səpirlər indi.

Tüpürüb üzünə nurun, həyatın,
Ölümün üzündən öpürlər indi.
(“Həyatdan yazanlar geri qalıbdır”)

Sözün gücü, qüdrəti böyükdür. Söz İlahidən gələn nurdu, Tanrının dilindəki duadı. Sözdə el gücü var, hökmüylə çaylar dayanar. Sözün elə gücü var ki, könülləri ovsunlayar, “gülləkeçməz qayalara” yol açar. Tanrının sözünə “dirsəklənən”, sözü ömrünün sərvəti, zəri hesab edən Zəlimxan Yaqub deyir ki, “söz yıxanı Tanrı çətin qaldırar”. Çünki “Allah qüdrəti var sözün canında”.

Onsuz ömrün nə balı var, nə şanı,
O qaynadır qaynayanı, daşanı.
Söz Allahın yer üzündə nişanı,
Allah özü məncə sözdü, məncə söz.
(“Söz”)

“Qələm Allahın danışan dilidir”, “Şairsən, Allahın dilində danış”, – deyən Zəlimxan Yaquba görə sözün də öz Tanrısı, öz Allahı var, yaxşı şeiri yazdıran Allahdır:

Şeiri mən yazmıram ki, eşqin şahı yazdırır,
Sözün öz tanrısı var, öz Allahı yazdırır.
Yazılan hər kitabı eşqin ahı yazdırır,
Hər günümü bir varaq, hər ilimi kitab say.

Şairin “qibləsi fikir, Tanrısı söz”, yönü Allaha doğru olmasa, kövrək arzuları ürəkdən su içməsə, sünbülü dənə çevrilə bilməz. Yalan qənimidi, dini həqiqətdi şairin. Şairin

həyatı budur, Günəşi ilhamdan doğarsa, göydəki Günəşə ehtiyacı yoxdur:

Sevgisiz, ilhamsız, sözsüz, nəğməsiz,
Şairin bircə gün həyatı yoxdu.
(“Şairin”)

Yaradıcılıq ilhama bağlıdır. Şairlik digər peşə sahələri kimi deyil ki, səhərdən-axşamadək oturb şeir yazasan. Burada Polşa şairi V.Borskanın fikirlərini xatırlatmaq yerinə düşər: “Fəlsəfə elmləri doktoru – çox təmtəraqlı səslənir. Amma poeziya elmləri doktoru yoxdur axı. Əgər belə olsaydı şairlik peşəsi xüsusi təhsil tələb edərdi”. Zəlimxan Yaqub da deyir ki, şair hər gün şair olmur, gündə bir kitab yarada. Şairin ilhama, Tanrıya bağlı anları, saatları var. “Allah! Allah” deyib yazmağa başlayan şairin əsərin son nöqtəsini qoyanda Haqqa hesabat verməyi də var. Hər yazdığından sonra Haqqa hesabat verənlər isə Yaradana yaxın olur:

Uca şeiri yaradanlar
yeri göyə bağladılar.
Yaradana yaxın olan
imzaları, adları var.
(“Haqqa hesabat”)

Və:

Bəxtəvərdi ömrü boyu haqq deyib,
Haqq çağırıb, haqq eşqinə yazanlar.

Şeiri varaqdan oxuyanlara deyir ki, o sözlər Tanrının dilindən, Allahın əlindən, Kərbəla çölündən keçib, onu varaq-

dan oxuma, "ürəyinə köçür, yaddaşına yaz". Özünün şeir deməsi isə ayrıca bir söhbətin mövzusudur. Ona saatlarla qulaq assan da, doymaq bilmirsən. Çünki onun "yaşıl misralardan yaşıl don biçən" şeirləri insanın ruhuna qida verir, insanı gözəlləşdirir. Şairin özü də "mənim gözəlliyim şeirimə bağlı", – deyir: İlham məni yar kimi danışdırır və mən ən şirin havalar kimi dinirəm:

Bürünür ipəyə, zərə bir cürə,
Dağ bir cür gözəldi, dərə bir cürə.
Bir cür gözəlləşir, hərə bir cürə,
Mən şeir deyəndə gözəlləşirəm.
("Gözəlləşirəm")

Z.Yaqub deyir ki, şairin özü böyüməsə, sözü böyüməz. Şair gərək əvvəlcə izini böyüdüb dar cığırları yollara döndərsin, dağını, düzünü böyütsün, genişliyə çıxıb zirvəyə qalxmağı bacarsın. O, ürəyini tarlaya, düşüncəsini zəmiyə çevirib, sözdən bu dünyaya boylanan baxışı böyüdüb, ağrısına, əziyyətinə dözüb ayazdan-şaxtadan, qurddan-quşdan, "arxadan atılan daşdan" qoruyaraq yazdıqlarını içində böyüdüb:

Bir qələm, bir dəftər, bir şam, bir də mən,
Bir ümid, bir sevgi, ilham, bir də mən,
Nə səpdim, nə əkdim, bir Allah bilir,
Gündüzlər qovruldum axşama qədər,
Gecələr nə çəkdim bir Allah bilir.
Səpdim duyğuları sətirlərimə,
Böyütdüm içimdə misralarımı.
("Böyütdüm içimdə misralarımı")

"Duyğuların zirvəsinə baş vurub, uca sözün ucasından gəlirəm", – deyən Zəlimxan Yaqub hesab edir ki, şairə hardan gəlirsən deyə sual vermək ("Şairə demə ki, hardan gəlirsən") düzgün deyil. Çünki ilhamı halal mayadan güc alan şairlər hardan gəlib hara getdiklərini yaxşı bilirlər:

Hara getdiyini çox gözəl bilir,
Hardan gəldiyini bilən şairlər.

O, deyir ki, əsl şair elin ürəyindən, canından, çiçəkdən, çəməndən, zəmidən, bulağın saflığından gələr, ilhamı tarixin mükafatı olar, hünəri torpağın təkindən gələr, elin alqışı qoluna qüvvət verərsə, dünyanın yükünü çəkər, yorulmaz:

Əbədi dirilər cərgəsindədi,
Söz üstə şəhid tək ölən şairlər.

Oxucu nə zaman şairdən narazı qalar, gileylənər? Zəlimxan Yaqub deyir ki, ("Haqlısan şairdən gileylənməyə") şair cəsarəti, şair qeyrəti xalqın namusuna göz dikənlərin boğazına qurğuşun olmursa, anaların fəryadı, gözyaşı qəlbinin sızlayan neyinə dönmürsə, sözün qılıncı kəsərdən düşürsə, oxucunun haqqı var şairdən gileylənməyə:

Söz gərək düşmənin qəddini əyə,
Əyə bilmədisə namərd qəddini,
Haqlısan şairdən gileylənməyə.

“HAQDAN GƏLİB HAQQA GEDƏN YORULMAZ”

Yoxsa ədalət, divan, yaxşı, yaman çaş düşər,
Duyanların gözündən qan süzülər, yaş düşər.
Ömrünün sarayından kərpic enər, daş düşər,
Amansız hədələrdən qoruyun insanları!

Z.Yaqub

Zəlimxan Yaqub istər şair, istərsə də bir insan kimi həmişə xalqın yanında, xalqın içində olub, xalqla bir yerdə olub. Təbiətdən, onun füsunkar gözəlliklərindən yazmaqdan doymayan şair heç zaman insanlarla canlı ünsiyyətdən qaçmayıb. Sevinənin sevincinə şərik olub, dərdlinin dərdini bölüb, yurdun ozanına çevrilib. Qapısı hər kəsin üzünə açıq olub. Tanınmış jurnalist Akif Aşırlının dediyi kimi: “Zəlimxan millət sözçülərinin bir çoxundan fərqli, cəsarətli mövqe tutub, çünki xalqın sırasından ayrılıb, xalqın içərisinə qayıdıb, xeyrinə-şərinə yarıyıb. Bu gün də üzərinə düşən missiyanı ağır-ağır, ləngər vurub çiyinlərində daşımaqdadır”.

Bu səbəbdəndir ki, bəşər yaman günə salınanda, nə gerçəyi, nə şəri seçmək mümkün olmayanda sazın teli də, dərələrdən axan sel də, çay nisgili ilə qovrulan göl də, üstünə xar qonan gül də, “qarışqanın qarşısında diz çökən” fil də, gur ocaqlardan qalan kül də .... hər tini, döngəsi, dalanı dərd olan el də dərdini ona danışır. Ocağı sönən, közü qaralan, yurd-yuva həsrəti ilə qovrulan, torpaq həsrətindən göyümgöyüm göynəyən, bala dərdindən ahı göylərə ucalan, günlərlə, aylarla harın məmur qapısında get-gəllərə salınıb haqqı tapdanan son ümid yeri kimi ona üz tutur.

Min pərdəyə, min bir simə danışsın,
Kimi var ki, getsin kimə danışsın?
Dilə gəlib yolsuzların əlindən,
Yol, dərdini gəlib mənə danışır.
Az dərdini özgələrlə bölüşən,
Bol dərdini gəlib mənə danışır.
(“Dərdin dastanı”)

Bəli, hamı dərdini ona danışıb, amma kimsə bilməyib ki, şairin içində qəm qovrulur, kədər yanır. Dərdlə dolu dünyada dərdliyə həyan ola bilməyəndə isə şair, “insan necə götürür bu qədər günahları?” – deyə sual edir və bu dünyadan hara qaçım deyir:

Hara qaçım bu dünyadan,
Bu dünya dərdnən dolu.
Dərdnən dolu dünyanın,
İçi namərdnən dolu.
(“Hara qaçım”)

L.Tolstoy yazır: “Hər kəs həqiqətə, gerçəkliyin idrakına öz xüsusi yolu ilə gedir. Mən də yazı ilə”. Latın Amerikası yazıçısı Varqas Lyosa yazır: “Ədəbiyyat gerçək həyatdan daxilən narazı olmağın məhsuludur”. Bu narazılığı ifadə etmək üçün isə yazar cəsarətli, ürəkli olmalı, sözünü deməyi bacarmalıdır. N.F.Qısakürək isə yazır:

Cəmiyyət öz daxili dünyasında yatır,
Amma yuxusunu şairlər görür, yozur.

"Sinəsi dağ-dağ olmaq şairlərin qisməti" deyən Z.Yaqub isə şeirlərinin birində yazır ki, şairin ürəyi yoxdursa, deməli, ölüdür, "heç zaman diriylə ölü danışmaz".

Tökülən yaşların, bəlalı başların, qanlı savaşların tarixini yazmaq üçün ürəyin böyüyü, qələmin kəskini, şairin nəhəngi olmalıdır.

Ağrı çəkib, dərd daşımaq canındadı,
Sözlə yatıb, sözlə durmaq qanındadı.
Yıxılanın, əzilənin yanındadı,
Tərəfsizə tərəf olur şair ömrü.

Və deyir ki, "şair Don Kixot deyil, dəyirmanla vuruşa", şairlər dünyanın tərs gələn gərdişinə qarşı vuruşur. Şairləri cəsarətli olmağa çağırır:

Yazıqlaşıb qorxa-qorxa dinirsə,
Bircə əsim sərt küləkdən sönürsə,
Zirvəsindən bircə barmaq enirsə,
Kül başına, kül başına şairin.

"Ölümdən sonra da min cür qorxu", qəbir yerinin də öz "haqqı, nırxı" varsa, insan ömrü "dəyirmanda dən kimi" üyünürsə, "fışqırıq çalmağın dalı ağlamaq"sa, şeytan dura-dura dəvələr şərlənib "qatır quyruğunda" hərlənirsə, bu dünyanı zarafat saymaq olmaz:

Zarafat eləmə, qurbanın olum,
Bu dünya zarafat meydanı deyil.

Çünki filin qarışqa qədər hörməti olmayan, yoxsulluq "yoxsulun bağrına ox" olan dünyada "mədəsi toxların" məzəsi də toxdu. Nə qədər ki, bu meydan köhlən at meydanı deyil, bacarıb özünü qorumaq lazımdır:

Qeybətin quyusu, hiylənin toru,
Sənə diri-diri göstərər goru.
Başın var, başsızdan başını qoru,
Zarafat gəlməsin sənə bu dünya.
("Zarafat eləmə")

Bəzən "sən biləni səndən yaxşı bilirəm, yazmaq olmur, yazmaq olmur, əzizim", kimi səmimi etirafda bulunsa da, cəmiyyətdəki naqisliklərə biganə qala bilmir. "Kimdi səni bu qapıdan buraxan" şeirində şair "bir nazirliyin qapısında gözünün yaşını yağış kimi yağdıran", şikayəti "Allahın yanına çıxsa da", yuxarıda məmurlara çatmayan bir qocanın halına yanır, dərdinə acıyır:

Bu qapıdan yollar gedir, ay qoca,
Süd arxından qollar gedir, ay qoca,
Zər daşınır, pullar gedir, ay qoca,
Kimdi səni bu qapıdan buraxan?

Bu qapının "düyməsi var, tilsimi var, zəngi var", bir deyil, beş deyil, "yetmiş yeddi rəngi" var. Bu qapıda "cangüdənin özünü də güdən var" və burda gündə neçə karvan əylənər, bu qapının "gədələri bəylənər", kişiləri "harınlaşar, səylənər", amma qəlbini qəm oyan, bəxti qayıq kimi batan dərdli qoca o qapıdan keçə bilməz, onu buraxmazlar, çünki "bütlərin" qulluğunda dura bilmir:

Silahı var, polisi var, postu var,
Rüşvət adlı bir canciyər dostu var.
Bu qapının bu millətə qəsdi var,
Kimdi səni bu qapıdan buraxan?
(“Kimdi səni bu qapıdan buraxan”)

Düşdüyü sosial mühit, ərafı insanın həyatında, onun əxlaqi-mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Ona görə də şair insanları “görməmiş gədələrdən”, “qəfil zədələrdən”, “zəhərli badələrdən”, “amansız hədələrdən” qorumağa çağırır:

Yoxsa ədalət, divan, yaxşı, yaman çaş düşər,
Duyanların gözündən qan süzülər, yaş düşər.
Ömrünün sarayından kərpic enər, daş düşər,
Amansız hədələrdən qoruyun insanları!
(“Qoruyun insanları”)

Məmur özbaşınalığına, haqlının haqqının tapdanmasına dözə bilməyən şair “siyasət içində siyasət”lə yanaşı “ticarət içində” də siyasətin getdiyi, kiminin Allahı, kiminin bəndəni söydüyü, “hər şeyin, sahibi, ağası bəlli” olan bir cəmiyyətdəki naqisliklərə, eybəcərliklərə, ağsaqqal sözünün eşidilməməsinə, böyük-kiçik yerinin bilinməməsinə dözə bilmir, şair-vətəndaş kimi etiraz səsini ucaldır:

Kimdi şəhərlini, kəndlini sayan,
Sözünü kim tutur bir ağsaqqalın?

"Min yerdən sarsılan bu cəmiyyətin" ürəkdəki sağalmaz yaralarını göstərir, ona məlhəm olmağa can atır:

Əlilin dükanı əlilin deyil,
Canı sağ-salamat "əlillər"indi.
Zəlilin yardımı zəlilin deyil,
Diplomlu, savadlı "zəlillər"indi.

"Dərd" adlı şeirində millətin halından xəbərsiz, millət deyib, millətdən uzaq olan, "gözlərini şöhrət havası" tutan bəzi "millət vəkilləri"nə üz tutaraq deyir ki, "mən səni seçəndə elə bilirdim işində halalsan, sözündə haqsan", amma sən bilmədin ki, "xalqın taleyi sənin o tutduğun kürsüdən keçir".

Haqlı olaraq deyir ki, "ali mətləbimiz adiləşəndə" milləti endirir, oğullarımız Sabirləşib, Hadiləşəndə isə milləti qaldırırıq, ucaldırıq. Kiməsə ağıl öyrətmək fikrindən də uzaqdır şair, çünki "onsuz da ağıldan bəla çəkmişik", özgələri qabağa verib, "özümüzü dala vermişik". Hərdən millət ayılıb deyirlər, amma "biz yenə də ayılmamışıq". Dərin dərya olan siyasət dayazların yeri deyil, o ali məclisdə, uca kürsüdə "ən yetkin oğullar, ən kəskin ağıllar" danışmalıdır:

Millətin adından danışan kəsin,
Dili uzun gərək, üzü ağ gərək.
Bizi özgələrə tanıtmaq azdı,
Bizi özümüzə tanıtmaq gərək.

("Dərd")

"Millət vəkilinə" şeirində üzünü millət vəkillərinə tutur, bu millətin bu xalqın həyatını duy, ancaq haqqa arxalan,

haqqa söykən, – deyir. Şair deyir ki, Vətənimizin bu qədər dərdi, problemi, qaçqını, köçkünü, şəhidi olduğu bir vaxtda millət vəkili çiynindəki yükün məsuliyyətini dərk etməli, ona göstərilən etimadı doğrultmalıdır. Millət vəkili

Qüvvətim, zorum torpaq,
Ocağım, qorum torpaq.
Səndə bir iz qoymasam,
Alışsın gorum torpaq!

– deməlidir ki:

Deməsinlər "Millətin dərdini çəkənmi var,
Hər kəs özü üçündür, millət hanı, xalq hanı?"
("Millət vəkilinə")

Torpağı yad əlində, özü çadırda əsir, çöhrəsi payız yarpağıtək saralan, qəlbi qəmlər əlində küsüb-barışan, ümid yeri kimi ona üz tutan şikayətçinin dərdinə əlac edə bilməyəndə, onun çəkdiyi aha, ağrıya gücü çatmayanda yazır:

Sən millətin övladı, mən millətin vəkili,
Ürəyim cadar-cadar, yuxum ərşə çəkili.
Əlim göyə uzalı, gözüm göyə dikili,
Səni necə qurtarım ağrıların əlindən?
("Ağrı")

Cəmiyyətin qanunsuzluq girdabında boğulmasının bir səbəbi də qəbul olunmuş qanunların çox zaman işləməməsidir. Şair bu vəziyyətdən qurtuluşun yolunu göstərir:

Müqəddəs qanunların
kitabını yazmağa,
Gərək bu millət üçün,
Ər kişilər yetişə,
mərd oğullar doğula.
(“Qanun”)

İnsan həmişə gələcəyə böyük ümidlə, inamla yaşayır. Z.Yaqub da haqlı olaraq deyir ki, “yumruq boyda ürəkdə dünya boyda səs yaşar”. Bu səs insanı ulduzların cərgəsinə qaldırar, ömür tükənsə də, arzu, həvəs tükənməz. Ancaq nə yazıq ki, “hər bülbülün yanında bir dəmir qəfəs” olur, dinənləri susdurmağa çalışırlar:

Heyf ki, uçanları süründürən zaman var,
Azadlıq deyənlərin yolunda məhbəs yaşar!
(“Heyif ki”)

Zəlimxan Yaqubun yaradıcılığında xalq-dövlət, dövlət-xalq birliyi, dövlətçiliyin qorunması mövzusu da mühüm yer tutur. Uğurların kökündə bu birliyi görən şair deyir ki, rəhbər öz xalqının yolunda canından belə keçməyə hazır olmalı, eyni zamanda xalq da öz rəhbərini qorumağı bacarmalıdır:

Rəhbər öz canını versin millətə,
Millət rəhbərini qorusun gərək.
(“Borc-vəzifə”)

Bəzən cəmiyyətdə haqsızlıq o həddə çatır, bəzi məmurlar o qədər harınlayır ki, “Allahın özü də bacarmır daha, özü yaratdığı “allahlar” ilə”. Vaxtilə “Adəm bir buğda ye-

mişdi, indi zəmi yeyənlər var". Milləti rüşvət, xalqı siyasət, Haqqı xəyanət yeyəndə, şair ürəyi bunlara dözə bilmir: "Oğulsan, bu dərdləri, dağ boyda namərdləri, kürəyindən at, yaşa!" ("Yaşa"). Və bu məqamda pələng ürəkli, qaya kürəkli, duzlu-çörəkli kişilərin yeri görünür ("Yeriniz yaman görünür").

"Dağılmış dünyadan hamı narazı" ("Necə barışdırım küsənləri mən") deyən şair bu haqsızlıqların bir səbəbini də onda görür ki, bəzən gözümüzün qabağında haqqlının haqqı tapdananda susmuşuq, gözümüzün qabağında öyülən nakəsə də əl çalmışıq, döyülən mərdə də:

Salonlar görmüşük biz, buz nəfəsli salonlar,
Bir nakəsi mədh edib, öyüblər, əl çalmışıq.
Ağlımız kəsə-kəsə, gözümüz görə-görə,
Qəhrəman bir oğulu döyüblər, əl çalmışıq.

Ancaq həmişə nikbin olan şair bədbin də deyil, qaranlıqlara aydınlıq gəlməsi arzusunu, ümidini belə ifadə edir:

Möcüzə baş verə, qəfil möcüzə,
Görünən adların arxasındakı
Görünməz adları görən tapıla.
Dəli dalğalara, sərt tufanlara,
Çıxıb, sinəsini gərən tapıla.
"Yağı yağ üstünə çıxa" millətin,
Ayranı biryolluq ayranlıq ola.
Ya aydınlıq gələ qaranlıqlara,
Ya da birdəfəlik qaranlıq ola.

("Hər şeiyn sahibi, ağası bəlli")

Zaman-zaman cəmiyyətdki bu naqisliklərin aradan qaldırılacağına inanır. Ona görə də deyir ki, “yersiz gəlib yer tutanlar”, “cəmiyyətə toy tutanlar” heç də öyünməsin. Əvvəl-axır haqq iş qalib gəlir, çünki:

Haqdan gəlib Haqqa gedən yorulmaz,
Haqq arxadı, haqq atadı, haqq ana.

"MƏN ELƏ TÜRKÜN RUHUYAM"

Qovuşacaq bölünənlər, bölgələr,
Nurlanacaq qaranlıqlar, kölgələr,
Diriləcək Oğuz xanlar, Bilgələr,
Türkə səcdə, Türkə təzim olacaq,
Bugün-sabah dünya bizim olacaq.

Z.Yaqub

"Ruhlar məndə qərar tutub, mən elə Türkün ruhuyam" deyən Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığında türkçülük, Türk dünyası mövzusu mühüm yer tutur. Əslində onun yaradıcılığını Türk dünyasından kənar təsəvvür etmək mümkün də deyil. Bunu professor Tofiq Hacıyevin dedikləri də bir daha təsdiq edir: "Zəlimxan, türklük sənin qanına elə hopub ki, sən "türk" deməyəndə də onun dünyasından xəbər verirsən". Tənqidçi Əsəd Cahangir deyir: "Zəlimxan Yaqub şeirə Yunus Əmrədən tutmuş Aşıq Ələsgərə qədər min illik türk-islam ədəbiyyatı üzərində gəlib. Buna görə onun şeirləri son dərəcə milli olduğu qədər həm də bəşəridir. Türklük onun şeirlərinə millilik, islami düşüncə isə bəşərilik gətirir". Ədəbiyyatşünas alim, Zəlimxan Yaqub yaradıcılığından bəhs edən "Əzəl-axır dünya Türkün dünyası" kitabının müəllifi Azər Turan isə belə deyir: "Zəlimxan Yaqubun şeirlərində türkün genetik yaddaşı dipdiridir".

Böyük Türk dünyasını "bir canın içində min bir cahan" kimi dəyərləndirən, "bir yanda Yəsəvi, bir yanda Teymur – Ulu Səmərqəndəm, qədim Yəsiyəm" deyən Zəlimxan Yaqub yazır:

Türküstan canımdı,
Turan varlığım,
Turanla Quranın
qafiyəsiyəm!
("Qafiyə")

Müstəqilliyimizin ilk illərində, torpaqlarımızda qanlı döyüşlərin getdiyi bir vaxtda şair Türkiyəyə gedənlərdən nə istəyir: Türkiyə adlı bir kitab, yaralarımızı tikməyə "işığım, nurum" dediyi İstanbuldan, Bursadan, Ərzurumdan, Sivasdan iynə, sap, bizi düşündürən dumanlı suallara aydın cavab, Türkün ürəyi boyda ürək gətir, – deyir:

Bu ürək səndə yoxsa, o meydana girmə sən,
Ömrünü hədər verib, vaxtını itirmə sən.
Türkün ürəyi boyda Türkiyə gətirməsən,
Nə özünə zəhmət ver, nə bizə əzab gətir!
("Tapşırıq")

İlk dəfə sərhəddi keçəndə keçirdiyi sevincqarışıq həyəcanı "Sarp qapısı" şeirində ifadə edir, "Sarp qapısı, məni burda saxlama", – deyir:

Sarp qapısı, apardığım ərmağan,
Bir ürəkdi, bir qələmdi, bir varaq.

Türkiyəyə sonrakı səfərlərində isə "Qələmə qurban olum, qisməti qarsa yazdı", – deyir, Mövlanası "nurlu cahan" olan Konyanı, Qağızmanın almasını da tərif edir ("Qağızmanın alması"), Ərdəhanı, Ərzurumun yollarını da ("Gecə keçdim Ərzurumun içindən"), Gözəllər gözəli, dünyanın gözlərinin

nuru adlandırdığı İstanbulu vəsf etməkdən doymur, "İstanbula baxırsansa Çamlıcadan bax" ("Çamlıca"), İstanbulu gəzməyə, gözəlliyini görməyə iki göz bəs etməz, iki min göz gərəkdir, İstanbulu duymaq üçün insanın qəlbi gərək dünyanın ən möhtəşəm sarayları kimi zəngin olsun, – deyir.

Bir dəfə görən kimi
gördüm demək yaraşmaz!
İstanbulu gəzməyə,
Bir ömür bəs eləməz,
ikinci ömür gərək,
("Gözəllər gözəli")

İstər Dadaloğlundan yazsın, istərsə də Qaracoğlandan, Yunus Əmrədən – hamısında eyni məhəbətin şahidi oluruq. Mövlananı Allahdan aşağıda ucaların ucası, ustadlar ustadı, xocalar xocası, Şəmsin könül həmdəmi, "Şərqin ulu qocası" adlandırır. ("Mövlana türbəsində")

"Sözü bütün dünyaya, səsi Tanrıya" çatan, adı hər bir nəsilə əzizdən-əziz, atəşi sönməz olan, Türkün "İstiqlal marşı"nı yazan, yaratdığı hər yazı "Haqqın bağrından qopan" şair Məhmət Akif Ərsoyu böyük məhəbbətlə yad edir ("Məhmət Akif Ərsoyun ev-muzeyində"). "Həsrəti gözünün içinə qədər yeriyən", əriyə-əriyə bərkiyib, bərkiyə-bərkiyə əriyən, torpağına, kökünə bağlı, qəlbi vətən sarıdan yaralı Nazim Hikmətdən söz açır ("Oxuyuram Nazim Hikməti").

Məşhur türk aşığı Səbri Şimşəkoğluna üz tutur:

Şimşəkoğlu, gəl bir yazaq yazımızı,
Şimşəkoğlu, gəl bir çəkək nazımızı.
Zəlimxanla qoşa çalaq sazımızı,
Dünya görsün qalxan kimdi, enən kimdi?
("Kimdi")

Özünü, qeyrətinə arxalanıb, təmiz, sağlam niyyətlə əbədiyyətə doğru yol gedən Türkün nəfəsi, türkün nəvəsi sayan Zəlimxan Yaqub "Qurbanam, Türkə qurban", – deyir. Başqa bir şeirində isə dünyanı Haqqın yolunda – Türkün yolunda namaza çağırır:

Dilimdə xeyir-dua şeirimi yaza-yaza,
Çağırıram dünyanı haqq yolunda namaza,
Çağırıram dünyanı Türk yolunda namaza!!!
("Qocatəpə camesində")

Bakı səmasında türk şahinlərini görməsindən qürur duyan şair bu şahinlərlə birgə torpağıma Ay ruhu, ulduz ruhu, "Azərbaycan" haykıran Atatürkün ruhu gəldi deyir:

Şahinlərə, ulduzlara
qucaq açdı,
Bakı şəhəri -
Türkün ruhu,
Turkün ruhu,
Türkün ruhu gəldi!
("Türkün ruhu")

Ürəyindəki ağrılarla bağlı Almaniyaya müalicəyə gedərkən yolüstü bir neçə günlüyə İstanbulda Atatürk köşkündə qalan şair, Atataürk köşkündə keçən günlərim "əlli il sürdüyüm bir ömrə dəydi", – deyir.

Min kitab yazsan da, demə bəsidi,
Yaddaşın harayı, ruhun səsidi.

Allahın şairə hədiyyəsidi,
Atatürk köşkündə keçən günlərim.
(“Atatürk köşkündə keçən günlərim”)

Doğru yoldan azanların, türkün düzünü tərsə, haqqı nahaqqa yozanların, türkə quyu qazanların səfimizi pozmağa çalışdığı bir vaxtda Türkiyədə ermənilərdən üzristəmə kampaniyasına başlayanlara kəskin etirazını bildirir:

Yaxşı bilir doğu, batı,
Hardan gəlir Türkün zatı.
Əldən verməz ehtiyatı,
Türk yağıdan üzr istəməz.
(“Türk yağıdan üzr istəməz”)

Şeirləri ilə Türk dünyasının xəritəsini cızır, tarixi keçmişimizi gözlərimiz önündə canlandırır. Bu məqamda özü də sanki tarixçi-alimə dönür gözlərimizdə.

Dəmir qapı Dərbənddən danışanda yana-yana deyir ki, bir yerdə ki, sevinc dərdə qənim deyil, iz mənim, naxış mənim olsa da, “Vətən ətri verən gülü, Vətən dadan suyu” yoxdu, içi içimə, çölü çölümə oxşamırsa, “mənim dilimdə danışır, mənim dilimə oxşamır”sa, “məclisində ozanı, məscidində əzanı”, qalaq-qalaq dərdini olduğutək yazanı yoxdusa, Vətən qürbətə dönübsə, “Mənim olan mənim deyil”:

Dərbənd dərdin yekəsiymiş,
Yadın yağlı tikəsiymiş.
Ağrıları parça-parça
Ciyərimi sökəsiymiş,
Bu mənim Vətənim deyil.

"Mənim dərdim siyasətin küpəgirən qarısında"dır, dərdimiz təkcə Dərbəndlə bitmir deyir:

Borçalı da bu gündədi,
Təbriz də, Kərkük də belə.
***
Kök mənim, budaq özgənin,
Baş mənim, papaq özgənin.
Çiçəyi çəmənim idi,
Libası kəfənim idi,
Torpağı vətənim idi.
Dünənə bax, ay eloğlu,
Sənin idi, mənim idi.
Bu mənim Vətənim idi,
Bu mənim Vətənim deyil!
("Dərdim – dəmirqapı Dərbəndim")

"Mən öləndə üzümü Borçalıya çevirin" deyən şair Borçalı harda yerləşir deyənlərə cavab verir ki, Borçalı arzumuzun nübarında, könlümüzün qübarında, əlimizin qabarında, alnımızın tərindədir. Borçalı çiçəklərin zərində, yer üzündəki səkkiz cənnətdən birindədir və o hər "ağlı aza, kefi saza, dayaza" körünməz, çünki yeri şairin könlünün ən dərinindədir ("Borçalı harda yerləşir"). Və deyir ki:

Kərkükü, Dərbəndi xatırlamazdım,
Əgər Borçalıda doğulmasaydım.
("Dərbənddən gəlirəm")

Bir vaxtlar laylası çalınan, şeiri oxunan, cinası ilmələnən, təcnisi toxunan, balı dodaqlardan süzülən, çeşməsi qurumayan, suyu bulanmayan, dünyaya Dədə Ələsgəri bəxş edən Göyçəni bir yay günündə gəzib taleyindən halı olan, "Köküm Borçalıda, özüm Göyçədə" deyən Zəlimxan Yaqubun "göyüm-göyüm göynəyən", sızıldayan yarasına çevrildi Göyçə XX əsrin sonlarında:

Göyçə dərdi döndü coşqun sellərə,
Bilən bilir, kim axıtdı, kim axdı.
Hey fikirləş, sonu yoxdu bu dərdin,
Zaman-zaman çözələnən yumaqdı!

"Divar və çay" şeirinəd bir vaxtlar alman xalqını iki yerə bölən Berlin divarları önündəki düşüncələrini ifadə edir və bu divarları millətimizi ikiyə bölən çayla müqayisə edir:

Bir dövləti ikiyə
bölən divar yıxıldı;
Bir milləti ikiyə
bölən çayı neyləyək?

Bu gün dünyada baş verən proseslərə də biganə qalmır şair. On il bundan əvvəl yazdığı və bu gün dünyada baş verən siyasi burulğanlar zamanında da aktuallığını saxlayan "Bir kövrək havadı sazımda Kərkük" poemasında son illərdə İraqda cərəyan edən proseslərə diqqəti çəkir, burdakı türklərin taleyindən narahatlığını dilə gətirərək "Qarabağın dalınca gedən Kərküküm" deyə haray çəkir. Şair yaxşı bilir ki, demokratiya pərdəsi altında qərbin dəstəyi ilə şərqdə cərəyan edən hadisələrin əsas hədəfi Türkiyədir, türklərdir:

Qürbət qəm gətirən qəmxanə sözdü,
Vətən işıq sözdü, pərvanə sözdü.
İran da, İraq da əfsanə sözdü,
Türkün başındadı xatalar, lələ.

Doğmaların bir-birinə uzaqdan uzaq olduğunu, Vətənin qürbətə çevrildiyini, öz evinin içində talesiz qonağa çevrilənləri, Türkün torpağına qənim kəsilib, qanına susayanları görəndə Türkün iqlimdən-iqlimə at oynatdığını, şanlı tarixini xatırladır, "Hardasan Türk oğlu, harda yatmısan", – deyə haray çəkir, təkcə şanlı keçmişimizlə öyünməyin bu gün az olduğunu deyir:

Keçmişə güvənmək bir təsəllidi,
Yapışma tarixin daş yaxasından.
Türk oğlu, düşmənin bizə bəllidi,
Qurtar Kərkükümü dərdin yasından.

Qarabağın da Ərbil, Mosul taleli olduğunu xatırladan şair "Borçalıtək könül varı talan" olan, "namazını Türkə sarı qılan", "taleyində bir ingilis barmağı" olan Kərkükə, kərküklülərə deyir ki, "Borçalıyam, nə çəkirəm mən bilirəm", Kərkükün, Bayatın, "tərsinə işləyəyn saat"ın nə demək olduğunu mən bilirəm, çünki mən də vətəni qürbətə dönənlərdənəm. Bu gün Türkün üzləşdiyi problemlərin səbəbini və onu yaradanların ünvanını da cəsarətlə göstərir:

Hər gün unudulur, qeybə çəkilir,
Kişi oyunları, mərd oyunları.
İndi başqa cürə oynanır, lələ,
Şahmat oyunları, nərd oyunları.

Usta hazırlanıb, asta qurulub,
Quzu oyunları, qurd oyunları.
Nə türkün, nə kürdün günahı yoxdu,
"Ağ ev"dən başlanır, "Ağ ev"dən gəlir
Bu Türk oyunları, kürd oyunları.
Türkün başındadı, Türkün başında,
Ərəb oyunları, fars oyunları.

Şair deyir ki, doğu ilə batını qucaqlayıb göyün yeddi qatını silkələyən, bu gün Haqq yolunda yürüyən Türkü nə ayaz, nə boran, nə də bürkü qorxuda bilməz. "Dur yəhərlə ərənlərin atını", – deyə Türkü Haqq işi uğrunda mübarizəyə səsləyir, "hardan gəlib hara getdiyini bilən" yolda inamla addımlamağa çağırır. "Dur yəhərlə ərənlərin atını", qurtuluşun yolları döyüşdən keçir deyir, öz qanından qorxanı Türk saymır və Gilqamışdan, Alpamışdan, Manasdan geri qalmayan yeni qəhrəmanlıq dastanı yaratmağa ruhlandırır:

Atilladan Atatürkə gələn yol,
Qalxan olsun, başın üstə, qalxan, türk!
Çanaqqala Malazgirdin davamı,
Türk deyil ki, öz qanından qorxan türk!
Təmiz süddən mayalansın, doğulsun,
Mete kimi, Oğuz kimi bir xan, türk!
Yaddaşında sıralansın, anılsın,
Ərtoğrul bəy, Osman Qazi, Orxan türk!
Yenə Tanrı dağlarını qucaqla,
Dağlar olsun səngərin türk, arxan, türk!
Döyüşən türk, oyanan türk, qalxan türk!
("Döyüşən Türk, oyanan Türk, qalxan Türk")

"İlk andımız, son andımız Turandı" kimi bir inama söykənib bu müqəddəs yolda "şəhid verin, qurban verin, can verin, cansızlara şah damardan can verin" deyərək mübarizəyə səsləsə də, eyni zamanda tələsməməyi, təntiməməyi də məsləhət görür. İnanır ki, tarix bir az haqq sözündə ləngisə də, "vaxt Təbrizin, dünya ərkin dünyası, yol Tanrının, haqqı dərkin dünyası"dır, Çin səddini aşanlar yenə qayıdacaq və "əvvəl-axır dünya Türkün dünyası" olacaq. Sadəcə, bu yolda üç gün, beş gün gec-tez ola bilər. İnanır və oxucusunu da inandırır ki, Oğuz xanlar, Bilgələr diriləcək, qaranlıqlar nurlanacaq, bölünənlər qovuşacaq, yeni mizan, yeni düzən – Türkə təzim, Türkə səcdə olacaq:

Qovuşacaq bölünənlər, bölgələr,
Nurlanacaq qaranlıqlar, kölgələr,
Diriləcək Oğuz xanlar, Bilgələr.
Türkə səcdə, Türkə təzim olacaq,
Bugün-sabah dünya bizim olacaq.

("İlk andımız, son andımız Turandı")

“QARABAĞ ƏN ÇƏTİN SUALDI, QARDAŞ”

Ümidini, inamını
Dəmir elə, polad elə.
Qarabağsız həyat yoxdur,
Qarabağı azad elə!

Z.Yaqub

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan həm də yeni problemlə baş-başa qaldı. Torpaqlarımıza təcavüz olundu, bolşevik Rusiyasının bic övladı kimi vaxtilə tarixi torpaqlarımızda qurulumuş Ermənistanda yaşayan soydaşlarımız öz dədə-baba yurdlarından qovuldular. Özlərinin tarixi himayədarlarına arxalanan ermənilər daha böyük iştaha düşərək Azərbaycan torpaqlarında daha bir qondarma erməni dövləti qurmaq həvəsinə düşdülər. Z.Yaqubun təbirincə desək, “arxalı köpəklər qurd basdı”, tülkülər ayılarla birləşib, xalqımıza, millətimizə böhtanlar yağdırmağa başladı. Torpaq itgisiylə üzləşdik, yüz minlərlə insanımız Vətəndə vətənsizə çevrildi – isti yurd-yuvalarından perik salındılar. Bütün bunlar o ərəfədə ömrünün ən gözəl çağlarını, yaradıcılığının məhsuldar dövrünü yaşayan, arı kimi çiçəklərdən şirə çəkən, qartal kimi zirvələrdə qıy vurub şimşəklərə meydan oxuyan, doğma Vətənimizin gözəlliklərini tərənnüm edərək soydaşlarını, həmvətənlərini müstəqillik uğrunda mübarizəyə səsləyən və “mən özümü xoşbəxt taleli qələm sahibi hesab edirəm, ona görə ki, dövlətimi müstəqil, xalqımı azad gördüm”, – deyən bir şair birdən-birə müharibə ilə üz-üzə qaldı, onun ağrı-acılarını öz

gözləri ilə gördü, taleyində yaşadı və bütün bunlar onun yaradıcılığına təsirsiz qalmadı:

Torpağı yad əldə qalan şairin,
Silaha, mərmiyə dönməsə şeiri,
Hər sözü olsa da bal kimi şirin,
Yurda nə xeyri var, xalqa nə xeyri?
("Şəhidlik gərəkdir Azərbaycana")

13 cildlik əsərləri külliyyatının birinci cildində bu barədə şair özü belə yazır: "Təbiətin qar-boranını çox görmüş olsam da, hələ cəmiyyətin, müharibə adlı iblisin sərt üzünü görməmişdim. Gül ətri verən şeirlərimdən birdən-birə qan iyi gəlməyə başladı. Qarabağ savaşı başladı. Torpaqlarımız işğal olundu, əsirlər, girovlar, qaçqınlar ölkəsinə çevrildik, Şuşa kimi dünya gözəlinin ismətinə toxundular. Təzyiqlər, təhqirlər gördük. Vaqifin, Sarı Aşığın, Natəvanın, Ələsgərin, Şəmşirin müqəddəs ruhları kafər tapdağında inlədi, arxalı köpəklər qurd basdı, tülkülər ayılarla birləşdi, xalqıma, millətimə böhtanlar yağmağa başladı. Ürəklər parçalandı, gözlər qan çanağına döndü. Şeirlərimiz qan ağladı, şahə qalxdı, qabardı, çəkildi, ayağa qalxdı, yıxıldı, durdu, haray çəkdi. Savaş, qan, müharibə, intiqam, qana-qan duyğuları içərimizi diddi-dağıtdı, ürəyimiz parçalandı. Bu qanlı-qadalı mənzərələr mənim əsərlərimə köçdü".

Bəli, bu günədək təbiətin gözəlliklərindən zövq alan, güldən-çiçəkdən, çaydan-çeşmədən yazan, qoşmaları, təcnisləri, gəraylıları ilə sazın simlərinə hoparaq insanları mənəvi saflığa, zənginliyə çağıran Zəlimxan Yaqubun şeirlərindən özünün də dediyi kimi, qan qoxusu gəlməyə başladı. Sözün

qüdrətinə, gücünə söykənib xalqımızı torpaqlarımız uğrunda mübarizəyə səslədi:

Haqqın var baş olub başda durmağa,
Qaldır məmləkəti ayağa, şerim.
Misralar meydanda mərmiyə dönsün,
Kəlmələr gülləyə, darağa, şeirim.

Şair haqlı olaraq "Dağlar qana boyanıb, qayalar diksinəndə min qələm bir güllənin yerini verə bilmir", – desə də, Vətən torpaqlarının taleyi sual altında olanda, tanklar, toplar yeri-göyü yandıranda, "Dəlidağ özü boyda qəmli heykələ" dönüb, Ələsgərin qəbri dağıdılanda, Pənah xanın məzarda sümüyü sızıldayanda şairin gücü güvəndiyi qələminə çatır, qələmiylə baş-başa qalır, dərdini də qələminə danışır, gileyini də:

Sənə yazığım gəlir, mənim yazıq qələmim,
Söz yerinə torpağa silah əkə bilmədin.

Vətən torpağında şəhid qəbirləri qazılanda "yaralanmış torpağın yaralı şairi"nin də qələminin payına qara bəxt, qara yazı düşdü, qızıl qanı görəndə mürəkkəbi quruyan qələm yazdıqlarını göz yaşıyla yazdı:

Bu nə cür qələmdi ki, Laçın əldən gedəndə,
İldırıma çevrilib alışmadı, sönmədi.
Qırılanda Xocalı, veriləndə Kəlbəcər,
Yağıların başında şimşəklərə dönmədi!

("Mənim yazıq qələmim")

Üzünü şairlərə tutub "Şair, bu gün şeirini evdə yox, səngərdə yaz" deyə müraciət edərək bu tarixi zamanın yaddaşına həkk eləmək üçün onları səngərlərə çağırır:

Ağlamaqdan kar aşmaz, sil gözlərin nəmini,
Döndər, sevincə döndər anaların qəmini.
İtilə qılıncını, ovxarla qələmini.
Hər kəsin öz payı var, namərdə yaz, mərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!
("Şair, bu gün şeirini evdə yox, səngərdə yaz")

"Vətəndaş yoxdursa, Vətən də yoxdur" deyən şair "Əsgər qardaşıma məktub" şeirində torpaqlarımızın işğalından narahatlığını ifadə etməklə yanaşı, bu işğalda bir millət olaraq hardasa özümüzün də günahımızın olduğunu deyir və qənaəti bu olur ki: "kişinin qeyrəti coşar – qələbə, kişinin vüqarı sönər – ölümdü".

Yadların yeminə dönməyimizə dözmür, "böyüyə-böyüyə tarixə gəldik, kiçilə-kiçilə gedirik elə", – deyir və bu itkilərdə suçu olanların zamanın süzgəçində üzə çıxacağına inanır:

Zaman göstərəcək öz aynasında,
Neylədi, kim hansı tərəfə döndü.
Kim xalqı tapşırdı şərəfsizlərə,
Kim xalqın yolunda şərəfə döndü.

Torpağın üstündə yeri olmayanın torpağın altında rahat yata bilməyəcəyini deyən şair əsgər qardaşına tövsiyə edir ki, milləti qatı dumandan və gumandan, ən ağır zamandan çıxartmaq üçün ən güclü ordunun zərbəsinə dönməli, səngəri

özün qazıb, özün yol açmalısan. Öz gücünə güvənməyənlər özgə əllərində oyuncağa çevrilirlər. Axı:

Qələbə pay deyil, hədiyyə kimi,
Gətirib hardansa verələr sənə.
Özün qazanmasan, lənət oxuyar,
Bu dağlar, bu düzlər, dərələr sənə!
("Əsgər qardaşıma məktub")

Zəlimxan Yaqubun Qarabağ müharibəsindən, onun vurduğu yaralardan bəhs edən şeirlərini oxuyan keçmiş döyüşçü özünü yenidən səngərdə hiss edir, qəlbi intiqam hissi ilə alışıb-yanır, ümumiyyətlə, oxucu şairlə birlikdə cəbhə bölgələrini qarış-qarış gəzir. "Goranboydan gəlirəm" şeirində şair vicdanımızın tarixlərdə ləkəli qalmaması" üçün "Goranboya hay verin" deyə haray qoparır, torpağın taleyinə xalqın gözüylə baxmağa çağırır:

Bir aslan yatağıdı burda hər dağ, hər dərə,
Qələbə güllərini xalqım gərək tər dərə.
Qala kimi söykənin Goranboya, Tərtərə,
Palıd kimi bərkiyin, çinar kimi boy verin,
Goranboydan gəlirəm, Goranboya hay verin!

"Kəlbəcərdən gələn qarı" şeirində əriş-arğacından, xanasından, xalçasından, lilparlı bulaqlarından ayrı düşən, "barını yellər aparan, baxtını sellər aparan", fitnələrin, fellərin qurbanına çevrilib canı üzgün olan qarının faciəsini təsvir edir:

Üzündə rüzgarın nəmi,
Gözündə dünyanın qəmi,

Kürəyində əsrin yükü,
Ürəyində dərdin kökü,
Çiynində evi, şələsi,
Beynində topların səsi,
Tökülən gözünün yaşı,
Sökülən bağrının başı,
Canında qışın sazağı,
Saçında dağların qarı,
Bir yuvanın uçan quşu –
Kəlbəcərdən gələn qarı.

Qarının faciəsi ölçüyəgəlməzdir, dərdi böyükdür. Çünki "dan atmamış yerdən durub" inəyini sağan, buzovunu əmizdirən, biş-düşündə olan qarının indi təhnədən çörəyi gedib, dəhnəsi sökülüb, arxdan suyu soğulub, daha nəhrəsi çalxanmır, sərnici dolub-boşalmır. Bir anın içində dərəsi düzə, dağı arana çevrilən, "eşqi sönən, çarxı dönən", od-ocağı viran olan, "dərdin dostu, qəmin yarı" olan bu qarıya kömək etməkdə hələ ki, çarəsizliyi şairin qəlbini göynədir:

Ondan ötrü bülbüllərin,
Yuvasını hardan alım.
Ondan ötrü Kəlbəcərin,
Havasını hardan alım.

O qarının baxışları onu öz yurduna qaytara biləcək qeyrət, ağıl – bir xilaskar oğul gəzir. Və o qarının sərt, amma gələcəyə ümid dolu baxışlarını "üzümüzə dəyən şillə", "gözümüzə dəyən güllə" hesab edən şair Vətən övladlarını silkələnib oyanmağa, heyrətə, qeyrətə səsləyir ki, Kəlbəcərdən

gələn qarının qarşısında günahlarımızı yuya bilək, onun qınağından, tənəsindən qurtulaq:

Daha bəsdi durmağımız,
Daha bəsdi yatmağımız.
Daha bəsdi bu millətin
Günahına batmağımız.
Gəlin, bir az silkələnək!
Gəlin, bir az heyrətlənək!
Gəlin, bir az qeyrətlənək!
Əlimizi yalın görüb,
Gönümüzü qalın görüb,
Tüpürməsin bizə barı,
Kəlbəcərə qayıdanda,
Öpsün bizim alnımızdan,
Kəlbəcərdən gələn qarı!!!

(“Kəlbəcərdən gələn qarı”)

XX əsrdə bəşəriyyətin üzləşdiyi ən böyük faciələrdən biri kimi tarixə düşən Xocalı soyqırımına biganə qala bilməyən şair ürəkağrısı ilə deyir ki, “ağzından alov saçan silahlarla” yanaşı, səni həm də “iştahalar, nəfslər” və göydə Allahı danıb, yerdə “allahlıq” iddiasında olanların bağışlanmaz, yuyulmaz günahları yedi. “Kəmfürsət oğulların vəzifə davası” havadarlarının köməyinə arxalanan düşmənin daha geniş əl-qol açmasına imkan verdi, Xocalının harayına hay verməyə imkan olmadı:

Bizdən ürək istədin, ürək vermədik sənə,
Bizdən kömək istədin, kömək vermədik sənə.
Bizdən qanad istədin, lələk vermədik sənə,

Aylarla su vermədik, çörək vermədik sənə,
Buraxdıq özbaşına əlimizdən cənnəti,
Sənsiz nəyimə gərək Məkkə görüm, Hac alım,
Xocalım, ay Xocalım!

(“Xocalım, ay Xocalım”)

Hayına hay verilməyən, “payına kədər düşən”, “balı qan, pətəyi qan” olan, daş üstə daşı qalmayan, yarasına duz basılan Xocalının taleyinə ağı deyir:

Dünya darmı, görəsən?
Qulaq karmı, görəsən?
Allah varmı, görəsən?
Layla, Xocalım, layla.

(“Layla, Xocalım, layla”)

Vaxtilə Ağdamı Qarabağın toy otağına bənzədən şair (“Ağdam Qarabağın toy otağıydı”) ermənilərin işğalından sonra Ağdamı Qarabağın yas otağına bənzədir. Çünki, indi burda “nə qızıl üzəngi, nə gümüş yəhər var”, nə də “qaşqa kəhər”ləri minib çapan oğullar. Yediyi zəhrimara dönüb, içdiyi zəhərə. Dağlıq Qarabağ və ətrafındakı digər rayonlarımızın hələ də işğal altında olmasında özünü də qınayır:

Bu ağır həsrətdən utanıb ölmür,
Hələ də, diridi, diri, Zəlimxan.

“Başabaş qan ağlayan” Qarabağın incisi olan, Vaqifin “gorunun od tutub yandığı”, Natəvanın “ah çəkib ağı dediyi” və “qanadı qırılmış quşa” dönən, İsa bulağından “qan

fışqıran”, ocaq yerləri qaralan, Üzeyiri, Bülbülü susan Şuşa şairin yuxusuna girir:

Bu gecə yuxuma girmişdi Şuşa,
Pənah xan qəzəbdən tir-tir əsirdi.
Şuşanı satanlar verib baş-başa,
Şəhərin üstündə qiymət kəsirdi.
(“Bu gecə yuxuma girmişdi Şuşa”)

Şair “Azərbaycan türkünün qanı tökülür bu gün” deyib haray qoparır, “Özün çat harayıma, qalx ATATÜRKÜM, haray!” – deyir, Türk dünyasına, bütün türkdilli xalqlara səsələnir, onları Azərbaycanın haqq işi uğrunda mübarizəyə, birliyə səsləyir:

Hardasan türkmən, qazax, səsini qaldır, Krım,
Düşmən sinəmiz üstə gündə açır bir şırım.
Hər gün qopur qasırğa, hər gün çaxır ildırım,
Başını qaldıranın bağrı sökülür bu gün,
Azərbaycan türkünün qanı tökülür bu gün.
(“Azərbaycan türkünün qanı tökülür bu gün”)

“Qarabağsız həyat yoxdur” deyən Z.Yaqub “Daha nəyi gözləyirsən, döyüşə gir, Vətən oğlu!” – deyərək haray çəkir, oğlu ölmüş anaların, əri ölmüş gəlinlərin, əsirlərin, yetimlərin daxmasında işıq yandırmağa, ocağını abad eləməyə çağırır, gözləməkdən kar aşmaz deyir:

Nə zamandır gözləmişik,
Gözləməkdən kar aşarmı?
Vətən əldən gedən günü

Durmaq bizə yaraşarmı?
Düşmən başı əzmək üçün,
Qapaza dön, şilləyə dön.
Düşmən qəlbi deşmək üçün,
Mərmiyə dön, gülləyə dön.
Ümidini, inamını
Dəmir elə, polad elə.
Qarabağsız həyat yoxdur,
Qarabağı azad elə!

(“Qarbağı azad elə”)

Başqa bir şeirində də yenə üzünü Vətən oğullarına tutur:

Qarışıq bir zamandı -
kim oğru, kimi doğru.
Torpaq bütövləşməsə,
getməz ürəkdən ağrı.
Elin gözü səndədir,
durma, ey Vətən oğlu,
Dərdinə dərman eylə,
halına yan millətin.

(“Gözün giləsi kimi”)

Torpaqlarımızın qarış-qarış əldən getməsinə, Vaqifin, Şəmşirin, Ələsgərin məzarlarının düşmən tapdağında qalmasına, sinələrə çəkilən dağlara, öz “yağnda qovrulan” Şuşanın, Laçının, Xocalının naləsinə dözə bilməyən şair “DUR AYAĞA, MƏMLƏKƏTİM!” – deyə haray çəkir, milləti səfərbərliyə, “haqsızlar meydan suladıqca, əlimizdən gedən haqqı” qaytarmağa çağırır:

Düşmən bilir bu torpağın altı nədir, üstü nə,
Onunçün də od yağdırır gecə-gündüz üstünə.
Qurban olum dumanına, qurban olum tüstünə,
Qılınca dön həqiqətim, qalxana dön qeyrətim,
Dur ayağa, məmləkətim, qalx ayağa, millətim!
("Dur ayağa, məmləkətim")

"Ordum varsa, yurdum var, ordum yoxsa, yurdum yox" deyən, "Dur ayağa, məmləkətim" deyib Koroğlu tək nərə çəkən Zəlimxan Yaqub bu gün xaqlmızın qarşısında duran ən vacib işə – torpaqlarımızın tezliklə düşmən tapdağından azad edilməsi naminə səfərbər olmağa səsləyir. Yaxşı bilir ki, bu yol Vətən naminə müqəddəs savaşdan keçir və QƏLƏBƏyə aparan qəhrəmanlıqlarla dolu bu yolda şərəfli ölüm – şəhidlik də var. Ona görə bu çağırışda həm də ölümə səfərbərlik var. Şair deyir ki, "savaş istəyənin içində hünər" baş qaldırır və insan ölümə hazır olanda Əzrayıl da yaxına gələ bilmir, geri çəkilir. Ölümə hazır olmaq lazımdır ki, "yağı tamahı gəlib torpağını bölə bilməsin". Ölümə hazır olub şimşək kimi elə çaxmaq lazımdır ki, içində daşan qəzəb sellərindən göylər elə yansın, elə parlasın ki, "heyrətdən düşmənin gözü qamaşsın". Vətənin bütövlüyü, sərhədlərinin toxunulmazlığı naminə ölümə səfərbər olmayan kişi vicdan əzabı çəkməyə məhkumdur, məmləkətdə yaşamağa haqqı yoxdur:

Sorğuya-suala hazır olmasan,
Vaxt sənin üstündən qara xətt çəkər.
Ölümə səfərbər olmayan kişi,
Ölüm qarşısında xəcalət çəkər.

Vicdanın əzabı şırımlar açar,
Ürəkdə, beyində, üzdə, sifətdə.
Ölümə səfərbər olmayan kişi,
Gərək yaşamasın bu məmləkətdə.
(“Ölümə səfərbər olmayan kişi”)

Torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən, “zaman-zaman bu xalqı haqqa doğru aparan” şəhidlərimizin ruhuna üz tutur:

Şəhid ruhu! Sən bizi əsgər elə, ər elə,
Ovxarla duyğumuzu, təzə saxla, tər elə.
Çağır müqəddəsiylə, xalqı səfərbər elə,
Dalğalan başım üstə haqqın bayrağı kimi!

Bəllidir ki, üzləşdiyimiz bəlaların, torpaqlarımızın işğalının bir səbəbi də ötən əsrin 90-cı illərinin əvvəllərində mütəşəkkil, nizami ordumuzun olmaması idi. Məhz bundan istifadə edən erməni işğalçıları öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal edə bildi. Xaqlmıza qarşı güllə atan üzdə olsa da, onlara gülləni verənlər açıq ya gizli dəstəklərini əsirgəmirdilər. Bu mövzuda yazdığı şeirlərinin birində Z.Yaqub düşmənə dəstək olanları da göstərir – “güllə atan erməni, güllə satan rus oldu” – və bu bəlalardan qurtulmağın yolunu güclü ordu qurmaqda görür. Şair deyir ki, özümüz torpağımıza sahib olmağı bacarmalı, bir canda, bir ürəkdə, bir ruhda birləşib millətin taleyini dürüst fikirləşməliyik, özgələrdən bizə zərrəcə fayda yoxdur. Tanrıdan əl üzüb, Haqqdan küsmək yox, Vətənin hər daşının üstündə əsərək qaniçən yağılarla hesabı kəsmək üçün tələsməliyik. Bunun üçünsə hər şeydən əvvəl güclü ordumuz olmalıdır:

Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi.
Mənə ordu gərəkdir sarsılmaz cahan kimi,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!
("Ordum varsa, yurdum var")

Şeirlərinin birində "Qarabağ ən çətin sualdı, qardaş" desə də, torpaqlarımızın işğaldan azad olunacağına inanır və düşmənin sülh danışıqlarına məhəl qoymadığı bir vaxtda qənaəti budur ki, artıq "durub-dayanmağın sırası deyil, yadlar halımızı sorası deyil" və "Millətin xilas yolu bu gün savaşdan keçir". Şairin bu inamı da qətidir:

Torpaq nədir, dərk eyləsən,
Qələbə çalmağa nə var.

"Ana Vətən, hazırlaş böyük qəhrəmanlığa!!!" – deyən şair nikbindir, əmindir ki, tarix kimin kim olduğunu yaxşı bildiyindən, zaman heç kəsin haqqını itirməz. Düşmən hər gün şəri "öz əyninə paltar kimi" geysə də, yalanlar min qat olub çoxalsa da, alçaqların fəndi keçməz, əvvəl-axır haqq qalib gələcək, haqqın gücü şəri əyəcək, nur zülməti boğacaq.

Ona görə də gələcəyə ümidlə, inamla baxır, çünki baxışlara baxanda "alışan gözlərdə", "işıqlı sözlərdə" qələbə görür, bu gün "kəsilən çörək də, içilən su da" qələbədən danışır, şair kimə boylanır, kimə baxırsa, hamı qələbə xəbəri verir:

Baxma ki, yollarda duman var, toz var,
Qəlbimdə atəş var, dilimdə köz var.
Bu gün dodağımda tək bircə söz var:
Qələbə!
Qələbə!
Ancaq Qələbə!

(“Qələbə”)

“MƏN DÜNYANI DURULTMAĞA CAN ATDIM”

Mən dünyanı durultmağa can atdım,
Dünya məni bulandıra bilmədi.

Z.Yaqub

Mənəvi saflıq, təmizlik, daxili gözəllik ədəbiyyatın əbədi mövzusudr. Bu baxımdan Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığı da istisna deyil. Xalq yazıçısı İsa Muğanna yazır: “Zəlimxan Yaqub ən kamil insanın ürəyini, vicdanını, təfəkkürünü təmsil edən SƏS-ÜNdür. Göylərdən gəlib, yerdə ən kamili də kamilləşdirməyə qabil olan ustaddır. Zəlimxan Yaqub Azərbaycana töhfə göndərilmiş Uca insandır.

Zəlimxan Yaqub Nəsiminin, Füzulinin, Alının, Ələsgərin varisidir, həm də adi, sadə varis yox, elə bir varisdir ki, onun yaratdığı vərəsə sələflərinin vərəsəsi qədər təkrarolunmazdır. Əbədiyyətdən gələn səs, yer üzünün əbədi səsidir”.

Mən dünyanı durultmağa can atdım,
Dünya məni bulandıra bilmədi.

– deyən şair əmindir ki, “dünyanın çirkabını şair sözü təmizlər”. O, insanları ülvi hisslərlə, təmiz adla yaşamağa, kindən, küdurətdən uzaq olmağa, mənəvi paklığa çağırır. Qəlbini təmiz bir ada versən, hər zaman hörmətlə düşərsən yada, bu qoca dünyada öz əməllərinlə açdığın iz həmişə səndən nişan verər, deyir. Bu səbəbdən də Tanrıdan yalnız təmizlik və təmiz ad istəməyi tövsiyə edir:

Təmizlik içində Allahlıq yaşar,
Tanrıdan istəsən, təmiz ad istə.

* * *

Palçığa baxanda bulanır içi,
Çeməyə baxanda durulur insan.

Daim kindən, küdurətdən, qeybətdən, dedi-qodudan uzaq olan şair, şeirlərinin birində deyir ki, kim mənə kinlə, küdurətlə daş atıbsa, mən öz sevgimlə o daşı aş eləmişəm, nifrəti ayağımın altına qoyub, "sevgimi hər şeydən baş eləmişəm". Və deyir ki, o adam ki, cılızdı, xırdadı, lap başı göylərə dəysə də, onun yeri həmişə axırda olacaq, belələri öndə gedə bilməz. Başıuca, qəlbiaçıq, üzügülər yaşayanda isə "qış fəsli insana yazdı, dünyada".

"Şairi beş güllə susdura bilməz, bir sözdən aldığı zədə küsdürər", – deyən şair qartalı sərçəyə döndərib zirvədən dərəyə endirənləri, kişilərin yandırdığı ocağı söndürənləri, bazarın min cürə nırxını, yalanların, qeybətlərin, dedi-qoduların adamları boğduğunu, haqqı dananları, xırdalananları, "papağı günə yandırıb, elə boş-boşuna qurdalananları", insanın qanını qaraldıb səbrini daraldanları və çöllərdə gördüyü tülküləri indi şəhərin içində görəndə bir anlıq təəssüf hissi yaşayır:

Dağda daş olardım, zirvədə qaya,
Qalxardım Günəşə, uçardım Aya.
Bilsəydim bu qədər yerdə günah var,
Göylərdən baxardım mən bu dünyaya,
Heç enib gəlməzdim o ucalıqdan!

Amma təəssüfü uzun çəkmir, bu təəssüf onu ümidsizliyə doğru aparmır, əksinə cəmiyyətin naqisliklərinə qarşı mübarizə əzmini daha da artırır. Çünki bilir ki, "alçaqlar həmişə baş yarası" olsa da, ucalar həmişə baş ucaldacaqlar. Ona görə də alçaqlıqlara, alçaqlara qarşı amansızdır, yurdu ucalıqlara qaldırmağa çalışır:

Bəlkə düz demədim... Mən – sel axarı,
Gəlmişəm, gedirəm üzü bahara.
Gəlmişəm qəhr edim alçaqlıqları,
Qaldırım yurdumu ucalıqlara!!!
("Bilsəydim")

"Haqqa tapınmayan kəs qara daşdı, taxtadı", – deyərək Tanrıdan diləyir ki, "sənə üz çevirən gün üzümüzə nur çilə". Dünyanın başdan-başa insaf, din olmasını, dünyada yaxşı nə varsa, birə min artmasını isəyir və İlahinin verdiyi nemətə şükür edir:

Verdiyin hər nemətə min dəfə şükür olsun,
İlahi! Xırdalama, həmişə böyüt bizi!
("Xırdalama, İlahi, həmişə böyüt bizi")

"Alim"liyi gələnləri öymək, "arif"liyi gedənləri söymək, yazdıqları yıxılanı döymək üçün olan bir akademikə tövsiyə kimi yazdığı "Etiraf elə" şeirində bu dırnaqarası alimə daxilən təmizlənməyi, "hissi duru, beyni təmiz, qəlbi saf" olmağı məsləhət görür, haqq yolunu azdığın, düzü tərsə, xeyri şərə yozduğun, dərin-dərin quyular qazdığın yetər, "qəzəb seli cəsədini çölə atmamış" heç olmazsa bircə dəfə vicdan adlı silaha sarılıb günahlarını etiraf eylə deyir:

Qorx zamanın qəzəb adlı məhkəməsindən,
Nə qədər ki, nəfəsin var, gec deyil hələ,
Heç olmasa bircə dəfə etiraf elə!

Gülü tikansız, tikanı ziyansız, yalanı ayaqsız, həyatı boyaqsız, ürəyi kədərsiz, sevinci qədərsiz, zamanı silahsız, insanı günahsız, dünaynı azarsız, torpağı məzarsız görmək istəyən ("Görə bilmədim") Zəlimxan Yaqub "Sən Allah, dilinə qeybət gətirmə" şeirində insanları qeybətdən, paxıllıqdan uzaq olmağa, kin-küdurətdən, nifrətdən qaçmağa sevgidən, sevincdən, toydan danışmağa, haram tanımayan əl, yalan danışmayan dil saxlamağa çağırır:

Hər könül mülkündən bir sərvət gətir,
Ruzu, qismət gətir, hərəkət gətir.
Yerdən genişlik al, göydən ucalıq,
Dinəndə, dilinə təravət gətir,
Amandı, dilinə qeybət gətirmə.

Yerin göyü, dağın dağı, daşın daşı sevdiyi, çəmənlərin torpağa xalı çəkdiyi, hər gün sevənlərin doğulduğu dünyada insanları bir-birlərini sevməyə, günahsız gəldiyimiz qoca dünyadan günahkar kimi köçməməyə çağırır:

Ömür göz qırpımı, fürsət azdısa,
Könül son nəfəsdə sınan sazdısa,
Uçub əlimizdən gedən yazdısa,
Biz niyə sevməyək bir-birimizi.
("Biz niyə sevməyək bir-birimizi")

Zəlimxan Yaquba görə, qanqalların içində çiçək ömrü, iblislərin içində mələk ömrü yaşamaq, məkrin odu içində də hiylədən uzaq olmaq, dedi-qodu içində dili təmiz saxlamaq, tamah hərislərinin toruna düşməmək, huşsuzların içində iti yaddaş, "başsızların içində" salamat baş saxlamaq, var-dövlət içində üzsə də, mənən yoxsul olanların, xəbislərin zamanında yaşamaq ən böyük qəhrəmanlıqdır:

Nə qədər əlləşirsə, çəkilmir bu dumanlıq,
Eh, birdimi, beşdimi insan tutan yamanlıq.
Yamanlığın içində yaxşılığı bacarmaq,
Ən böyük qəhrəmanlıq!
("Ən böyük qəhrəmanlıq")

Özündənrazılar, başqalarını bəyənməyənlər, ağsaqqala, ağbirçəyə hörmət qoymayanlar, təkəbbürü özündən qabaqda gedənlər şairin qınağına tuş gəlir. Deyir ki, belələri "adamların arasında sıyrılmış taxta kimi" yeriyərək nə el-oba qədri bilir, nə də ağrı-acı, qardaş-bacı. Əli daim öz cibində olanlar başqasına əl tutmazlar. Belələri tökülən gözyaşlarına da biganədir, atılan daşlara da, çünki:

Zahirdə düz yerisə də,
İçəridən əyri qaldı
Düz gəlib, düz gedən adam.
("Düz gəlib düz gedən adam")

"Hər ucalıq bir alçağa dərd olar, üzdə gülər, ürəyində pərt olar" ("Əyilməz") deyən şair daim insanları sərt qayalar kimi əyilməz, uca görmək, ucalıqda görmək istəyir, özünün qəlbinə dəyən, toxunan olanda da harayına ucalığı çağırır:

Bir nadan qəlbimə yaman toxunub,
Elə pərişanam, elə dalğınam,
Özüm də bilmirəm kiməm, nəyəm mən?
Çatın harayıma, uca zirvələr,
Qırx arşın quyunun dibindəyəm mən!

İnsanları daim ucada görmək arzusudur ki, şair insan ömrünün qocalığını da bir ucalıq sayır. Ancaq qocalıq Allahın verdiyi ömür payına bağlıdırsa, ucalığı insan gərək zərrə-zərrə, damla-damla özü qazansın. Şairin arzuladığı qocalığa – ucalığa çatmaq üçün isə gərək Vətəndən, torpaqdan, eldən-obadan güc alasan, hər əsən küləklə yarışmayasan, alçaq əməllərlə barışmayasan. Eşqinlə hər gecə bir gündüz ola, başında Günəşdən tac olsa da, gözlərini şöhrət qamaşdırmaya, özün haqq olasan, sözün düz ola. Borandan, tufandan, qardan, yağışdan bac alıb elə ucalasan ki, ya Qoşqar olasan, ya da Şahdağı:

Zəlimxan, dağlara təpə gülməyə,
Qaya parçalanıb, daş tökülməyə.
Başa qar yağsa da, bel bükülməyə,
Belə qocalasan qocalanda da!
(“Belə qocalasan”)

Çox böyük şəxsiyyətlərlə ünsiyyətdə olan Zəlimxan Yaqub insanları gədələrdən uzaq olub, dədələrin qədrini bilməyə, dədələrin öyüd-nəsihətinə qulaq asmağa çağırır. Dədələrdən dünya istəsən verər, amma gədələrdən borc eyləmə, – deyir. Çünki:

Kim gədədi, gədəsindən danışar,
Kim dədədi, dədəsindən danışar.
Nə dünəni, nə sabahı görməyən
Öz vaxtından, vədəsindən danışar.

Bu gün müasirlik, yenilik pərdəsi altında min hoqqadan çıxıb milli-mənəvi dəyərlərimizdən gen düşənləri görəndə sözü daşdan keçən, bircə söz üstündə başdan keçən kişiləri xatırlayır. O kişiləri ki, elə-obaya arxa, dayaq idilər, elin namusunu ayağa düşməyə qoymazdılar, haqqı nahaqdan ayırmağı bacarır, haqqın sədasıyla dinib-danışırdılar, bu dünyadan gedəndə də haqqın sədasıyla getdilər:

Nəfsi aldatmadı nə gümüş, nə zər,
Gözdən yayınmadı nə xeyir, nə şər.
Kişilər varıydı, yaxşı kişilər,
Yaxşı köhlənləri minib getdilər.
(“Getdilər”)

Özündə damlanın dərinliyini, ülvi məhəbbətin şirinliyini yaşadan bulaqdan saflıq, dərinlik, qaynarlıq istəyir:

Nemətdi duruluq, saflıq, təmizlik,
Bəsimdi, sənintək bir bulaq olum!
(“Ay bulaq”)

İnsanları haqdan gələn səslərə qulaq verib, “saflıqdan özünə maya” tutmağa, Allah deyən kəslərə qucaq açmağa, dinsizlərin nifrətindən, qəzəbindən, kinindən, iblisindən, şeytanından, cinindən uzaq, çeşmə kimi duru olmağa, varlı-

ğını, hissini, duyğusunu tozdan-dumandan qorumağa, şaxta vurmuş barmaqları, buza dönmüş otaqları qızdırmağa çağırır:

Könül dostum bir Günəşdi, bir Aydı,
Qəlbimdəki haqdan gələn haraydı.
Zəlimxanın ürəyi bir saraydı,
Qonaq olun, ey Allahı sevənlər!
(“Ey Allahı sevənlər”)

Şair deyir ki, yaxşılığın, yaxşıların dünyada əvəzi yoxdu, çünki “yaxşının gözləri toxdu” və dünyada yaxşılar çoxdusa, deməli bu dünyanın axırı deyil hələ. Və deyir ki, elin yaddaşına köçə bilməyənlər, gərək eldən yox, özündən küssün. Dünyada hər kəs öz əməllərinin bəhrəsini görür:

Nəyi səpirsənsə, o verəcək dən,
Qanqalın yerində qanqaldır bitən.
Bu qoca dünyada heç görmədim mən,
Təhqirlər yağdıran tərifler dərə.
(“Nəyi səpirsənsə, o verəcək dən”)

“Bu dünyanın hər ağrısı Zəlimxandan keçib gedir”, – deyən Zəlimxan Yaqub insanları suçdan uzaq olmağa, savab iş görməyə, ürəyinə işıq doldurmağa çağırır:

Şeytan ürəyinə dolan qəzəblə,
Bu ana torpağın, bu ana yerin,
Altını üstünə çevirmək olar.
İnsan ürəyində yanan işıqla,
Dünyanın nə qədər düşməni varsa,
Dünyanın dostuna çevirmək olar.
(“Qəzəb – işıq”)

"SARILDIĞIM SAZDI MƏNİM"

Milətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.

Z.Yaqub

Zəlimxan Yaqubun yaradıcılığında çox mühüm yer tutan bir qol da aşıq yaradıcılığına, bütövlükdə ozan-aşıq sənətinə və bu sənətin daşıyıcılarına bağlılıqdır. Bu barədə şairin özü belə deyir: "Təkcə mənim dillərdə gəzən lirik şeirlərim deyil, irihəcmli əsərlərimin hamısı saz üstündə bəstələnib, havacat üstə deyilib, sonradan vərəqlərə köçürülüb".

Hələ 1978-ci ildə Xalq şairi Osman Sarıvəlli yazırdı: "Zəlimxanın şeirləri, əsasən, xalqımızın həyat, məişət ənənələrindən, onun yaradıcılığından, şeir dilindən qidalanır. Müəllifin xalq yaradıcılığına böyük məhəbbəti, dil, ifadə, ruh yaxınlığı, forma yaxınlığı folklorun, aşıq şeirinin əsla kor-koranə təqlid və təkrarı deyildir. İstedadlı gənc şairin əsərləri mövzuları, fikir və mülahizələri, arzu və diləkləri etibarilə tamamilə orijinaldır". Xalq şairi Hüseyn Arif isə belə deyib: "Zəlimxanın mayası sazla yoğrulub. Sazın bağrından qopan odu-alovu, simlərdən süzülən züm-züməni onun şeirlərində eşitmək olar. Sazla Zəlimxan baş-başa verib pıçıldaşanda, mənə elə gəlir ki, iki şeir-sənət vurğunu bir-biri ilə dərdləşir, bir-birinin hoyuna çatır, dadına yetir".

Akademik Kamal Talıbzadə isə belə deyib: "Zəlimxan sazla şeirin ruhunu, mayasını birləşdirən şairdir. Bu iki sənət dünyasının vəhdəti Zəlimxan şəxsiyyətində Azərbaycanı təmsil edir".

AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilov yazır: "Zəlimxan Yaqub Dədə Şəmşirdən Dədə Qorquda doğru gedir. Gedir və geri qayıdanda artıq öz saldığı yolla – tarixlə müasirliyin vəhdəti ilə işıqlanan yeni bir yolla qayıdır".

Zəlimxan Yaqub özü isə yazır: "Mənim şeirlərimin hamısında musiqinin sehirli qanadları var. Nəğmələrim nə qədər uzağa uçur uçsun, heç vaxt yorulmaq bilmir. Müxtəlif ölkələrdə, müxtəlif qitələrdə şeirlərimi əzbər oxuyan yüzlərlə poeziya vurğunu görmüşəm. Sərhədləri aşan şeirlərim öz qırılmaz qanadları ilə gedib dünyanın o başından öz həvəskarlarını, öz oxucusunu tapır. Bu uzaq uçuşların bir hünəri şeirin gücüdürsə, bir hünəri də o şeirin canındakı saz musiqisinin gücüdür".

Bəli, Zəlimxan Yaqub şeirinin gücü, qüdrəti bir tərəfdən onun fitri istedadı ilə bağlıdırsa, digər tərəfdən saza bağlılığındadır. Təsadüfi deyil ki, Z.Yaqub "Saza Allah demədim, ancaq onu Allahı sevən kimi sevdim", mən sazdan doğulmuşam, "sarıldığım sazdı mənim", – deyir:

Əl açıb göylərə çox yalvarmışam,
Qoy bu gün saz olsun Allahım mənim.
İstəyim Tanrının xətrinə dəysə,
Gərək bağışlana günahım mənim.

13 cildlik "Əsərləri" külliyyatının birinci cildinə yazdığı geniş müqəddimədə şair özünün aşıq sənətinə bağlılığı və bunun yaradıcılığına təsiri haqda belə yazır: "Ömrümün körpəlik və uşaqlıq çağlarından böyük sənətkarların danışdığı dastanları yaddaşıma köçürməyim, mənim o dastanların qəhrəmanlarına bənzəmək həvəsim sonralar mənə o imkanı verdi ki, "Saz", "Yunus Əmrə", "Ələsgər", "Aşıq Hüseyn

Saraçlı", "Əbədiyyət", "Peyğəmbər" kimi lirik-epik əsərlər, dastanlar yaratdım. Əgər vaxtilə çox böyük təsir gücünə, dil gözəlliyinə malik olan dastanları qəlbimə, ruhuma köçürməsəydim, məndə zərrə qədər şübhə yoxdur ki, yuxarıda adını çəkdiyim əsərlərin heç biri dünyaya gəlməzdi".

Və Zəlimxan Yaqub deyir ki, "mənim şeirlərimin dili çaldığım sazın dilidir". Bu səbəbdəndir ki, onun poeziya dili "heç vaxt pəltək olmur, dolaşmır, dolaşdırmır, əllaməçilik eləmir, nə varsa, necə varsa, xalq necə yaradıbsa, o şəkildə çatdırır". Bu şeirlərin dili təmiz, duru, təbii, gözəl, aydın və səlis, rəvan və axıcıdır, elə buna görə də yaddaqalandır, seviləndir. Çünki:

Büdrəməz köhləni, yorulmaz atı,
Nağıldı, dastandı ömrü, həyatı.
Zəlimxan nə yazsa qoşma, bayatı,
Zəlimxan nə desə saz dilindədi.

Ədəbiyyat adlı böyük bir yolda ilk addımlarını atdığı gündən saza bağlanıb, "mən havacat Məcnunuyam", – deyib, saz onun "əbədi Leylisi" olub. Aşağıdakı misraları yazanda şair 23 yaşlı bir gənc idi:

Az yandırsan, dərdim azmı?
Heç bilmirəm qışmı, yazmı?
Saz aşığı tanımazmı,
Zəlimxanam, ay "Sarıtel".

Sonrakı illərdə yazdığı bir şeirdə isə, məni başqa yerdə axtarmağa gərək yoxdur, ünvanımı sazdan soruşun deyir:

Əl atmaq nə lazım kağız qələmə,
Heç kəsə demərəm yaz ünvanımı.
Kimə gərək olsa sözüm, söhbətim,
Ona göstərəcək saz ünvanımı.

Sarıldığım sazdı mənim, – deyib, sazın dili kimi dillənib, teli kimi danışıb, zili kimi yüksəlib, onu ana kimi əzizləyib, sona kimi sığallayıb. Həqiqəti, doğrusu da saz olub, məşəqqəti, ağrısı da. Bəzən Qərib olub – saz onun qürbətinə çevrilib, Məcnuna dönüb – saz həsrəti olub, Kərəm kimi yanıb – sazı hicrəti sayıb. Sazı Tanrının şah vergisi bilir, Qorqud quran bir yuvada Yunusdan qalan havanı dərk etməyənləri binəva hesab edir, "Zəlimxan sazdan doğulub", – deyir:

Çiçəklər yazdan doğulub,
Gözəllər nazdan doğulub,
Zəlimxan sazdan doğulub,
Sarıldığım sazdı mənim.
("Sarıldığım sazdı mənim")

"Qorqudam, Abbasam, Ələsgərəm mən, könlüm çalmasınmı saz havasını", – deyən Zəlimxan Yaqub sazın-sözün beşiyi olan Borçalıda dünyaya gəlib, XX əsr aşıq sənətinin nəhənglərindən olan Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev və digər ustad aşıqların əhatəsində böyüyüb, aralarındakı yaş fərqinə baxmayraq onların hər biri ilə dostluq münasibətində olub. Şeirləri mətbuata yol açmamış bu böyük ustadların dilində eldən elə yayılıb. Z.Yaqub yazır ki: "Ozan-aşıq dünyasıyla bağlı mətləblərin çoxunu oxuduğum kitablardan daha çox Borçalı aşıq məktəbinin çox ünlü şəxsiyyətlərindən – Əmrah Gülməmmədovdan, Ka-

mandar Əfəndiyevdən və Hüseyn Saraçlıdan öyrəndim. Onlar böyük ustadlar kimi eyni vaxtda məni Tanrının üç müqəddəsliyi ilə qovuşdurdular. Göylər aləmindən enib gələn, torpaqda ilahi ucalıq yaradıb yenidən uca göylərə qalxan səslə, sözlə və sazla tanış etdilər. Onların çaldığı havalar, oxuduğu sözlər, danışdığı dastanlar mənə elə bir xəzinə, sərvət bağışladı ki, onu dünyanın heç bir maddi xəzinəsi ilə almaq olmaz! Ömrümün ən coşqun vaxtında üç böyük ozanın taleyimə yazılması, beşiyimin başında durması mənim üçün Allahın ən böyük lütfü, hədiyyəsidir.

Onlar bütövlükdə şərqin müqəddəs üçlüyü kimi mənim varlığıma köçdü, məndə yaşamaq, məni yaşatmaq üçün".

Bakı ədəbi mühitində əhatə dairəsi daha da genişlənən, Osman Sarıvəlli, Hüseyn Arif, Süleyman Rəhimov, Xəlil Rza, Tofiq Bayram və digər böyük şair və yazıçılarla sıx ünsiyyətdə olan Zəlimxan Yaqub eyni zamanda Dədə Şəmşir, Mikayıl Azaflı, Əkbər Cəfərov, İmran Həsənov, Ədalət Nəsibov, Xanlar Məhərrəmov, Aydın Çobanoğlu və digərləri kimi ustad sənətkarlarla da tez-tez təmasda olub. Ustadlar da həmişə onu özlərinə doğma sanıb, yeri gələndə ürəklərini ona boşaldıblar. Aşıq Şəmşirə, Mikayıl Azaflıya, Hüseyn Saraçlıya, Əmrah Gülməmmədova, Aşıq Kamandara, Xanlar Məhərrəmova və digər ustadlara onlarla şeir ithaf edib.

"Könlümdə yaşadıb könül varını, sazımı eşqinlə çalmışam, ustad", – dediyi ustadlar ustadı Aşıq Ələsgərin yurdu ulu Göyçəni qarış-qarış gəzib ona həsr etdiyi "Göyçədən gələn səslər" poeması vaxtilə həm də səhnələşdirilib. "Saz", "Yunus Əmrə", "Ozan evi – saz evi" poemalarını, "Hüseyn Saraçlı dastanı"nı yazıb, Hüseyn Bozalqanlıya poema həsr edib. Aşıq sənətinə və ustad aşıqlarımıza aid onlarla məqalənin müəllifidir, ustad aşıqlardan bir çoxunun kitabı

məhz onun xeyir-duası, məsləhəti və redaktorluğu ilə işıq üzü görüb.

Zəlimxan Yaqubun aşıq sənətinə dərindən bələdliyi ilə yanaşı, ustad aşıqlarla dostluq münasibəti, yaradıcılıq əlaqələri onun yaradıcılığında da öz əksini tapıb. XX əsrdə yaşayıb-yaratmış ustad sənətkarlara şeir həsr etməklə bərabər, onlar haqqında bir sıra publisistik məqalələr, xatirə yazıları yazıb.

Onun Dədə Şəmşirlə olan doğmalığı hər ikisinin yaradıcılığında da ifadə olunur, bu gün şirin bir xatirə kimi yaddaşlarda yaşamaqdadır.

"Allah Kəlbəcəri Şəmşirə, Şəmşiri də Kəlbəcərə xəncərə gümüş kimi yaraşdırmışdı", – deyən şair "Şəmşirli, Şəmsirsiz günlərim" adlı məqaləsində XX əsr Azərbaycan aşıq sənətinin inkişafında özünəməxsus yeri və rolu olan Dədə Şəmşir haqqında yazır: "Kəlbəcər və Şəmşir sözləri mənim üçün suyla torpaq kimi, közlə ocaq kimi, sözlə dodaq kimi bir-birinə yaxın və doğma sözlərdir. Çünki Allah-Təala Kəlbəcəri xəlq edəndən bu günə kimi Kəlbəcər heç bir aşığın, şairin, ziyalının dilində Aşıq Şəmşirin dilində olan qədər poetik yüksəkliyə, mənəvi ucalığa qalxıb, poeziyanın mənəvi sərvətinə çevrilməyib".

Bir bağın var, bayatılı, qoşmalı,
Xəzan görməz, talan olmaz, ay ustad.
Götürəndə Ələsgərin sazını,
Çaldığın tək çalan olmaz, ay ustad.

– deyə müraciət edib bu böyük ustada. Yeni şeir yazanlara üzünü tutaraq deyib ki, çox da öz döşünə döymə, "yeri, öz borcunu ödə Şəmşirə".

Aşıq Ələsgərdən sonra sözün-söhbətin naxışının, xalının getməsindən narahatlığın ifadəsi kimi, böyük ustada "Dədələr azalır, ay Dədə Şəmşir", – deyə xitab edəndə, ustad da ona belə cavab verib:

Fikir ver Şəmşirin çəkdiyi aha,
Söz ağır getməsin qadir Allaha.
Vurğunu çağırmaq çətindir daha,
Qövr edir sinəmdə yara, Zəlimxan.

XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Mikayıl Azaflını "sənət dağlarının qoca qartalı", "Füzulinin "Şikayətnamə"sindən sonra ən böyük şikayətnamələr müəllifi", "həqiqət carcısı", "həsrət-hicran nəğməkarı", "dərd dağı, qəm dəryası", "xalqın dərd daşıyan qocası" olan Haqq aşığı adlandıran Z.Yaqub "Azaflı çinarı" adlı məqaləsində yazır:

"Mikayıl Azaflı sənəti, onun şəxsiyyəti və şəxsi keyfiyyətləri öyrənilməyə və öyrədilməyə layiq olan bir məktəbdir. O məktəbin şagirdi, tələbəsi nə qədər çox olsa, bir o qədər xalqın, millətin, sənətin, ruhun, yaddaşın və gələcəyin xeyrinədir".

Aşıq Əkbər Cəfərovun sənətinə məhəbbətini, səsinə vurğunluğunu, şəxsiyyətinə hörmətini belə ifadə edir:

Əkbər əmi, ucalsa da göylərə,
Səsin, yerə məhəbbətin səsidir.
Oxuyursan, bulaq düşür yadıma,
Bu zümzümə təbiətin səsidir.

Çiçək kimi qoxladıqca ətrini,
Zəlimxan da əziz tutur xətrini.
Ellər bilir qiymətini, qədrini,
Bu qəhqəhə o qiymətin səsidir.

Zəlimxan Yaqub böyük məmnunluqla dövrümüzün böyük ustadlarından olan əvəzedilməz sənətkar Ədalət Nəsibov sənətinə vurğunluğunu "Ədaləti dinlədim" adlı şeirində tərənnüm edir.

Aşıq Xanlar Məhərrəmova da şeirlər ithaf edən Z.Yaqub onun haqqında "Göynərtili xatirə" və "Onun yaşadığı ömür" adlı məqalələr də yazıb və haqlı olaraq deyir ki: "Aşıq Əmrah və Aşıq Ədalət kimi saz tanrılarından sonra o yüksəkliyə ucalmaq, özünəməxsus yol seçmək, seçilmək, əzizlənmək, xalq sevgisi, el məhəbbəti qazanmaq hər oğulun yox, ər oğulun işidir. Bu misilsiz işi Xanlar bacardı, özü də yaxşı bacardı".

O, deyir ki, "Xanların üçcə havasına qulaq asmaq kifayət idi ki, dumduru durulub dağ çeşməsinə dönəsən". Xanlar idiialı adam deyildi, dünya malında gözü yox idi, özünün və sözünün yerini bilirdi. Sazını da, sözünü də urvatdan salmaz, baha satardı.

"Havacatdan zəri, saz adlı səngəri, dağ kimi ləngəri olan" aşıq Xanlar Məhərrəmovun ölüm xəbəri şairi sarsıdır, qəlbini göynədir:

Həyat yalan, ölüm doğru,
Zəlimxanın yandı bağrı.
Canımdakı nisgil, ağrı,
Saçımdakı dən Xanlarım.
Şimşək vuran, sel aparan,
Əlimdən gedən Xanlarım.

Özünü "aşıqlı, şairli, ağbirçəkli, sərkərdəli, ozanlı, dədəli Borçalı dünyasının" bir parçası sayan Xalq şairi sazın müqəddəs beşiklərindən olan Borçalı aşıqları haqqında belə deyir: "Borçalı aşıqları ifadəsi mənim üçün həyat sözü, tale sözü, Tanrı sözü, ozan sözü qədər əziz, şirin və müqəddəsdir".

Və yazır: "Bəxtim onda gətirib ki, üç böyük sənətkarın – Aşıq Əmrahın, Aşıq Kamandarın və Aşıq Hüseyn Saraçlının tərlan kimi qıy vuran vaxtı mənim dəliqanlı gənclik illərimə təsadüf edib. Onların üçünün də balını arı çiçəkdən şirə çəkən kimi çəkmişəm".

Sənətdə ilk addımlarını Borçalıda atıb sonradan bütün Türk dünyasının ünlü sənətkarlarına çevrilən bu və digər ustadlar haqqında silsilə şeirlər, dastan və məqalələr yazıb.

"Borçalı aşıqlarının fəaliyyəti, ifaçılıq mədəniyyəti, sazla sözün vəhdətinin yaratdığı emosional duyğu bizim dilimizin saflığını yaratdı", – deyən Zəlimxan Yaqub eyni zamanda yazır: "Borçalı aşıqlarının üstün və uğurlu bir cəhətini də deyim ki, onlar Borçalı aşıq məktəbini təmsil etsələr də, Azərbaycan aşıq məktəblərinin hamısına böyük hörmətlə yanaşıblar. İstər Göyçə-Kəlbəcər aşıq məktəbi olsun, istər Şirvan məktəbi, istər Təbriz məktəbi olsun, istər Qazax-Gəncəbasar məktəbi – hamısına hörmətlə yanaşıblar".

XX əsr Azərbaycan aşıq sənətinin çox böyük simalarından biri Xındı Məmməddi "öz səsiylə, avazıyla Tanrı dərgahından gələn Allahın avazı, möcüzəsi" adlandırır, Əmrah Gülməmmədovdan danışanda deyir ki, Əmrah əsrlərdən gələn səs, "tel gücünü sel gücünə döndərən" sənətkardır, yerin yeddi qatından şirə çəkib mayalanan kökümüzdür. Əmra-

hın hər barmağının bir cür xalı varıydı, hər xalında bir Borçalı varıydı: "Özünün saz dünyası ilə havalara yenilik gətirən, Azərbaycan tarixində ilk dəfə olaraq sazı püxtələşdirən, kamilləşdirən, on bir telli saz şəklinə salan, onu Tanrı dərgahına qaldıran şəksiz və şəriksiz, müdaxiləsiz və müdafiəsiz, tərəddüdsüz Aşıq Əmrah Gülməmmədov olub".

Əmrah kimi ölməzlərin önündə "gəlib diz çökənləri" də görən şair onu yurdun dədələşən övladı adlandırır, "Əmrah ömrü ömürlərə paylanan bir danılmaz həqiqətin ömrüdür", onun ayrılığı dağdan ağır yükümüzdür, "onun səsi qulağımda qalmasa, mənim səsim yer üzünə yayılmaz", – deyir, mən aşığam deyib, sənətdən xəbərsiz naşılara məsləhət görür ki:

Əlli il taxtaya, simə döyüncə,
Bircə gün sazını çal Əmrah kimi.

Şair deyir ki, Dədə Qorqud zirvəsiylə tən duran aşıq Əmrah zirvəsi elə bir zirvədir ki, çox boylara öz boyundan boy verəcək. Onun sənətini Haqqın vergisi adlandırır:

Min ömür uzadıb, ömür üzməyib,
Yersiz oynamayıb, yersiz süzməyib.
Usta bağlamayıb, zərgər düzməyib,
Sənə Haqdan gəlib saz, Əmrah dayı.
("Əmrah dayı")

Çox ustadlar görən Zəlimxan Yaqub deyir ki, Aşıq Əmrah pərdə-pərdə, xana-xana ruha hopdu, qana keçdi, yana-yana ocaq oldu, təbi daşqın Araz oldu, telli sazın meydanında şir gəldi, şir getdi, pir gəldi, pir getdi, bir gəldi, bir getdi:

Başımıza gəldi nələr,
Ay Zəlimxan, qaldıq mələr.
Açıldı çox möcüzələr,
Əmrah sirr gəldi, sirr getdi.
("Aşıq Əmrah")

Hüseyn Saraçlıdan bəhs edəndə Zəlimxan Yaqub deyir ki, "O, mənim Şəmsim oldu, mən onun Mövlanası". Həyatının mənası "ozan ömrü, saz ömrü" olan, sazdan yaranıb, sözdən doğulan, sazının laylasında neçə aşıq, könüllərdə sənət adlı sönməz işıq böyüdən Hüseyn Saraçlı yurd-mahal aşığıydı, meydanda Koroğluydu, Rüstəm-Zalıydı.

Hüseyn Saraçlıya dastan da həsr edən Z.Yaqub məqalələrinin birində bu böyük ustad haqda belə yazır: "Aşıq Hüseyn Saraçlını Allah əsl ozan kimi yaratmışdı. Ona baxanda elə bilirdin Yunus Əmrə də budur, Dadaloğlu da budur, Aşıq Veysəl də budur, Xəstə Qasım da budur. Yerişi, duruşu, gəzişi, danışığı, əlini bığına çəkməsi, nəmli dəsmalla aradabir alnının tərini silməsi – hamısı o qədər ölçülü-biçili, nizamlı, səliqəli, insanı heyrətə gətirən bir gözəllik mücəssəməsi idi".

Hüseyn Saraçlının ölümündən təsirlənən şair yazır:

Yüz dəfə çək, yersiz ahdan nə çıxar,
Qəlbi yasda saxlamaqdan nə çıxar.
Ay Zəlimxan, ağlamaqdan nə çıxar,
Az sızılda, az inildə, az ağla!
Saraçlının taleyindən əsər yaz,
Saraçlının dastanını yaz, ağla!

Şeirlərindən da göründüyü kimi, 1987-ci ilin baharında Borçalıda XX əsr Azərbaycan aşıq sənətinin iki ünlü simasının – Əmrah Gülməmmədov və Hüseyn Saraçlının dünyasını dəyişməsi onu təsirləndirir, "sözü ürəkdə, sazı köynəkdə" qalan "bir mahalın mahal boyda dərdi var", – deyir. Haqlı olaraq deyir ki, analar bir də Xan Əmrahı doğmaz, Saraçlını zaman bir də yetirməz, bu ustadların həyatdan köçməsi bütövlükdə Azərbaycanın itkisi olsa da, onların varlığından sazın ömrü qazandı:

Nə qazandı sazın ömrü qazandı,
Nə itirdi, Azərbaycan itirdi.

Bu iki böyük ustadın dünyasını dəyişməsindən hədsiz təsirlənən, qəlbi göynəyən, Əmrah Gülməmmədovun ölüm günü yazdığı şeirdə "Aman ellər, xan Əmrahı itirdik, sənət mülkü Kamandarsız qalmasın", – deyən Zəlimxan Yaqub Aşıq Kamandar Əfəndiyevlə də sıx dostluq münasibətində olub, onun sənətini hər zaman yüksək dəyərləndirib:

Ruhunla Qorqudtək qocalardasan,
Ahınla tüstülü bacalardasan.
Bəndə dərgahından ucalardasan,
Tanrı dərgahını haxla, Kamandar.

Aşıq Kamandar sənətini ovsun, tilsim, sehir, cazibə, cazibədarlıq dünyası adlandıran Z.Yaqub yazır: "Aşıq Kamandar təzənəni tellərə yox, ürəklərə çəkirdi. Aşıq Kamandarın səsi boğazdan yox, ürəkdən gəlirdi. Aşıq Kamandar dərsini kitablardan yox, qırxlar pirindən, ələst aləmindən, ərənlər məclisindən almışdı. Boyu-buxunu da, yerişi-duruşu

da, durumu-qırımı da, səs diapazonunun genişliyi də, nəfəs mənzilinin uzaqlığı da, avazı-laylası da, on bir telli, uzun-qollu, gen sinəli tavar sazı da bəndənin yox, Allahın əsəridi.

...Kamandarın ömrü sazın, saz üstündə köklənən sözün ömrüdür. Qurbanidən Dədə Şəmşirə və bu günə qədər gələn ozan-aşıq dünyasında olan böyük sənətkarların hamısının birgə yaşadıqları ömürdür".

Məqalələrinin birində şair yazır: "Saz mənim üçün Türk ruhunun şəksiz və şəriksiz, tək və müqəddəs alətidir. Saz mənim üçün ana laylası, beşikdən məzara qədər ömür yolunda yol yoldaşım, könül sirdaşım, həyatım, varlığımdır".

Sazın "ruhundan qopan", sazın "ruhuna hopan", sazı "özündə tapan", özünün təbirincə desək, dili söz tutub, ağlı kəsəndən Ələsgər çağırırb, Ələsgər deyən, "el məclisi görməsə, şair könlü saz olmaz", "sənsiz mənim bir məclisim, bir şənliyim olarmı heç", – deyən şairin qəlbi kövrələndə, tənha qalanda həmişə ümid yeri, pənahı saz olub, dərd-ələm üstünə yeriyəndə "Cəngi", "Misri" onun silahına çevrilib, özü "havacat Məcnunu", saz isə əbədi Leylisi olub, varlığını sazda görüb, sazın gücünə, sehrinə inanıb, ona güvənib:

Sən varsan, həyatda mən varam demək,
Səsimi hər yana yetir, ay sazım.

Saz adlı, sənət adlı bir yola könül verən Zəlimxan Yaqub deyir ki, bu yol məni duru və diri saxladı, "baxışımda haqq odunu, qəlbimdə nuru saxladı". Bəli, bu yol onun gözünü yaşdan, yazını qışdan qoruyub, külündə qoru saxlayıb:

Haqdan, nahaqdan ölmüşdüm,

Qılıncdan, oxdan ölmüşdüm.
Vallah, mən çoxdan ölmüşdüm,
Saz məni diri saxladı.
(“Saxladı”)

Bəşəri qanunlardan fərqli olaraq sazın müqəddəs qanunları dəyişməzdir. Saz duyanları uca göylərə qaldırır, duyğusuzlara divan eyləyir, insana öz ilkini, kökünü, tarixini tanıdır.

Ədəbiyyatşünas alim Azər Turan yazır: “Eiraf etməliyik ki, Azərbaycanda muğamın dərki müstəvisində ədəbiyyatın timsalında Bəxtiyar Vahabzadənin “Muğam” poeması hansı işi görübsə, Zəlimxan Yaqubun “Saz” poeması da saz havalarının dərki müstəvisində eyni işi görüb”.

“El havası” – “Qaraçı”yla ellərimizi gəzib dolanan, “Sarıtel” çalınanda Qul Abbası, Xəstə Qasımı xatırlayan, “Mansırı” nakam aşiqlərin sorağı, könülləri göynədən qəmli bir dastanın varağıdır deyən, “Divani”ni dənizə bənzədən şair “Təcnis” söz meydanında sınaqdı, – cinas yarışıdı, söz imtahanıdı deyir. “Yanıq Kərəmi”dən söz açanda deyir ki, Kərəmi yandıran təkcə keşiş deyil, həm də dağılan, bölünən torpağımızdı, Vətənimizdi. “Ənəlhəq” deyən Nəsiminin dərisi soyulanda, Babəkin qolları kəsiləndə “ağrıdan göynədi tellərin səsi”:

Məni dilləndirmək Dədə Qorqudun,
Yandırmaq Kərəmin bəxtinə düşdü!

“Dübeyti” havasından söz açanda şair deyir ki, bu hava “bir az dərddi, bir az dəva”, bu, dağılan yurddu, uçan yuvadı, nisgil, ağrı, həsrət, qərib, qürbət havasıdı. Havaların

sultanı "Ruhani" çalınanda isə saz ürəkləri kitab kimi varaqlayır. "Dilqəmi" elin dərdidi, elin qəmidi. Ocaqdan, alovdan, qılıncdan yaranan, ildırımdan od alan "Misri" mənim özümə sığmazlığım, döyüşüm, mübarizəmdir, bu dünyaya alovlu gəlib, ər kimi yaşamağım, kişi kimi ölməyimdir deyir:

"Misri" mənim nəyimdir?
Kamalda bitkinliyim,
Sınaqlarda dözümüm,
Döyüşdə yetkinliyim!
Mən onu çala-çala,
Qeyrətimi qorudum,
Mərdliyimi yaşatdım!
İnadımı qorudum,
Sərtliyimi yaşatdım!

Sənətdə varisliyə böyük əhəmiyyət verən şair deyir ki, dünəni, keçmişi bilməyən aşıq sabaha üzüağ gedə bilməz. Dədə Şəmşir, Mikayıl Azaflı, Əkbər Cəfərov, İmran Həsənov, Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev, Ədalət Nəsibov, Xanlar Məhərrəmov, Aydın Çobanoğlu və digərləri kimi böyük ustadlarla daim sıx ünsiyyətdə olub onların ifalarını dinləməkdən doymayan Zəlimxan Yaqub aşıqlara qarşı olduqca tələbkardır:

Zəlimxan sevəndi kamil ustadı,
Kamil ki, deyilsən, batırma adı.
Yoxdu sözlərinin ləzzəti, dadı,
Gözünə qatmağa duz qəhətdimi?
("Qəhətdimi")

"Hər pərdənin ahəngində bir ölümsüz halallıq" olan, telləri susmaq nədir, lallıq nədir bilməyən, "yerli-yersiz zərbələrə tuş gəlsə də", heç zaman sınmayan saza biganə olanlara, onu bəyənməyənlərə "sən mənim sazımla oynama, bala" – deyərək özünəməxsus qətiyyət və inamla cavab verir:

Çör-çöp deyil, küləklərə yem ola,
Yerin-göyün görkəmidi, görküdü,
Təbiətin sevgisidi, ərkidi.
Yaxşılığa dəvətidi dünyanın,
Yamanlığın birdəfəlik tərkidi.
Dodağında Türk adlanan millətin
Şirin səsdi, xoş avazdı, türküdü.
Bəndəsindən Allahına yol gedər,
Yaranmışın yaradanı dərkidi,
Mənim sazım sındırılan saz deyil.

("Mənim sazım sındırılan saz deyil")

“BÖYÜKLƏRİN QƏDRİNİ ANCAQ BÖYÜKLƏR BİLƏR”

Baxmağa güzgüsü, aynası yoxdu,
Yüz il yaşasa da mənası yoxdu.
Diri ölülərin dünyası yoxdu,
Bu dünya əbədi dirilərindi.

Z.Yaqub

“Hər bir qələm adamının xatirə yazmaq dövrü və xatirəyə çevrilmək məqamları var”, – deyən Zəlimxan Yaqubun yaradıcılığında Azərbaycanın ictimai-siyasi fikir tarixində özünəməxsus yeri olan görkəmli şəxsiyyətlər, tanınmış ədəbiyyat, mədəniyyət və incəsənət adamları haqqında yazdığı məqalələr və onlara həsr etdiyi şeirlər, poemalar mühüm yer tutur. Bu gün əksəriyyəti xatirəyə dönmüş bu şəxsiyyətlərə həsr olunmuş şeir, poema və xatirə yazıları iki cəhətdən diqqəti cəlb edir: əvvəla, oxucu Azərbaycanın ictimai-siyasi fikir tarixində, dövlətçiliyimizin inkişafında müstəsna xidmətləri olan, elmimizin, ədəbiyyatımızın, mətbuatımızın, mədəniyyətimizin və incəsənətimizin inkişafına sanballı töhfələr vermiş görkəmli şəxsiyyətləri bir daha yaxından tanıyır, digər tərəfdən, şairin özünün də kimlərlə ünsiyyətdə olduğunu öyrənmək imkanı əldə edir.

“Böyüklər bilər” adlı şeirində şair yazır:

Çayların sürətini
çayda axan sal bilər,
Bağı bağbandan soruş,
dağ nədi – qartal bilər.

Çiyinlər nə çəkirsə,
çəkilən yüklər bilər,
Böyüklərin qədrini
ancaq böyüklər bilər.

Bəli, böyüklərin qədrini böyüklər bilər! "Olmadım kimsənin haqqını danan", – deyən və içərisindən qalxıb boylanan haqqa söykənərək hər kəsin layiq olduğu qiyməti verən Z.Yaqub məqalələrinin birində yazır ki, "zaman-zaman tarix şəxsiyyətlərə söykənib, tarixi şəxsiyyətlər yaradıb". Şair o şəxsiyyətlərdən söhbət açır ki, gələcək əsrlərdən XX əsr və XXI əsrin ilk onilliklərinə boylanan nəsillər onların səsini eşidəcək, Azərbaycan tarixindəki yerini görəcəklər. Çünki görkəmli ədəbiyyat, mədəniyyət, incəsənət adamlarına, ictimai-siyasi xadimlərinə, elm adamlarına, din xadimlərinə, el ağsaqqallarına həsr olunmuş bu məqalə və şeirlər sadəcə olaraq bir şəxsə ünvanlanmaqla qalmır, həm də dövrün mənzərəsini yaradır, şair bəzən onu düşündürən məsələlərlə bağlı bu şəxsiyyətlərə xitab edir. Şairin xitab etdiyi şəxsiyyətlər isə Azərbaycanın tarixinə, bəşərin yaddaşına yazılan, "dünyaya pak gəlib, pak gedən", öz qəlbini təmiz bir ada verib, hər zaman hörmətlə xatırlanan şəxsiyyətlərdir:

Bəşər yaddaşına yazdı, yaşatdı,
Dünyaya tək gəlib, tək gedənləri.
Hər ocaq yetirməz, hər ana doğmaz,
Dünyaya pak gəlib, pak gedənləri.

Şair deyir ki, zor gücünə ucalmaq istəyənlərin sarayı altüst olur, o insanlar könüllərin sultanına dönür ki, əməllərində dürüst olurlar. Xəbisləri, nakişiləri, əclafları qamçı-

layan şair əsl şəxsiyyətlərdən – ürəyində şəfa qaynaqları, nur ocaqları olan yaxşı kişilərdən həm poetik yaradıcılığında, həm də publisistikasında böyük məhəbbətlə söz açır:

Öləndə qəbri də ocağa döndü,
Ürəyi el üçün yanan kəslərin!
(“Ocaq”)

“Zaman hər şeyə toxunur, bircə əbədiyyətlə bacara bilmir”, – deyən Zəlimxan Yaqub bu qənaətdədir: “Mən bu fikirdəyəm ki, istənilən şəxsiyyətin böyüklüyü, yaddaşlarda əbədi qalması onun Allahın yaratdığı müqəddəs və uca sözə münasibətiylə ölçülür”.

Və o, adı Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan şəxsiyyətlər sırasında öndə dayanan Ümummilli lider Heydər Əliyevə “Səni Ulu tanrı özü qoruyur” adlı təbrik məktubunda da bu dahi şəxsiyyətin söz, ədəbiyyat və incəsənət adamlarına münasibətinə diqqəti yönəldir, – “Siz hakimiyyətə gələn gündən söz hakimiyyətə gəldi, ədəbiyyat hakimiyyətə gəldi”, – deyir.

Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələndən sonra ədəbiyyat və incəsənət xadimlərinin səlahiyyət meydanının genişləndiyini, Dədə Qorqudun və Nəsiminin, Füzulinin və Aşıq Ələsgərin, Səməd Vurğunun və Osman Sarıvəllinin, Rəsul Rzanın və Şəhriyarın dünya azərbaycanlılarının milli bayramı səviyyəsində qeyd olunan yubileylərinin ictimai fikir tariximizdə əbədi qalacağını, tarixin yaddaşından heç vaxt silinməyəcəyini vurğulayan şair haqlı olaraq yazır: “Dilimizin və mənəvi dəyərlərimizin repressiyalardan və güllələnmələrdən, sürgünlərdən və zindanlardan sonrakı dincəlmə, nəfəsalma, yenidən özünəqayıtma

və nəhayət, böyük inkişaf yolu birbaşa konkret mənada Sizin şərəfli adınızla bağlıdır".

Heydər Əliyevin ölümündən sonra ona "Əbədiyyət dastanı" adlı ikihissəli böyük bir poema həsr edən Xalq şairi "O, mənim xalqımın şah vüqarıdı", – deyir. Yurdun torpağını, daşını başına tac bilən, Vətən bayrağı, millət canı olan Heydər Əliyevi şeirinin əbədi qəhrəmanı adlandırır:

Tək oldu, sınmaz oldu,
vahid oldu bu kişi,
Nə qədər tufanlara
şahid oldu bu kişi.
Öz milləti yolunda
şəhid oldu bu kişi, –
Arzuları müqəddəs,
ruhu təzə, tər yatır,
Görən torpaq bilirmi,
qoynunda Heydər yatır.

Ulu öndərin siyasi təfəkküründən mayalanan, onun dövlətçilik akademiyasında yetkinləşən və siyasi xəttini bu gün çox uğurla davam etdirən, ölkəmizi aydın sabahlara doğru daha böyük inamla və ilhamla aparan möhtərəm Prezidentimiz İlham Əliyevə xitabən deyir: "Biz bütün varlığımızla inanırıq ki, atadan oğula, oğuldan gələcəyə – sabaha gedən yolda Sizin çox böyük uğurlarınız olacaqdır. Bu uğurlar millətlə dövləti, xalqla hakimiyyəti möhkəm tellərlə bir-birinə bağlayıb bütün sahələrdə inkişaf etmiş daha möhtəşəm bir Azərbaycan yaradacaqdır. Bu möhtəşəmliyin içində ədəbiyyatımıza, incəsənətimizə, poeziyamıza, musiqimizə böyük qay-

ğınız və diqqətiniz bizi həmişə ilhamlı yaradıcılıq yollarında irəli aparacaqdır”.

Ankarada məzarı başında düşüncələrə dalan şair XX əsrin əvvəlində Azərbaycanın Xalq Cumhuriyyətinin qurucusu olmuş Məhəmməd Əmin Rəsulzadəyə “Salam! Rəsul övladı, Məhəmməd Əmin kişi!” – deyə xitab edir:

Tanrı səni yaratdı, bir də çətin yarada,
Sən qurtuluş istədin, qanlar axdı arada.
Beşiyin Bakıdadır, məzarın Ankarada,
Sənin Vətəndən özgə kimin var, kimin, kişi!
*(“*Kişi*”)*

Ağlının genişliyi, qəlbinin səsi varlığın ən böyük xəritəsinə çevrilən, “firkin qollarıyla” dünyanı qucan, “beş əsəri dünyanın beş qitəsi”nə çevrilən, dahilər səltənətində bütün şairlərdən öncə əyləşən Nizami Gəncəvidən söz açanda haqlı olaraq deyir:

Nizami şeirindən söhbət açmağa,
Allah ucalıqda şair gərəkdir!

“Ayrı-ayrı adamlar səhv edə bilər. Ancaq xalq heç zaman səhvə yol verməz”, – deyən Zəlimxan Yaqub zamanın süzgəcindən çıxıb tarixin yaddaşına hopan görkəmli ədəbiyyat, incəsənət, elm və təhsil adamları haqqında ürəkdolusu söhbət açır. Şairin bu mövzudakı məqalə və şeirləri həm də ona görə böyük maraqla oxunur ki, o, qəhrəmanlarının əksəriyyəti ilə ünsiyyətdə olub.

"Yaddaşımda yaşayan Osman Sarıvəlli" adlı məqaləsində Xalq şairi Osman Sarıvəlli ilə tanışılığının tarixçəsindən və sonrakı münasibətlərindən söhbət açır:

"Hər görüşdə Osman Sarıvəlliyə şeirlər oxuyurdum. Ustad hər dəfə məni həvəsləndirir, uğurlarımı, qüsurlarımı göstərir, yazılarıma geniş təhlil verə-verə mənə qayğı göstərir, dayaq olurdu".

O.Sarıvəllinin gənclərə böyük qayğı və diqqətini xüsusilə vurğulayan Z.Yaqub yazır: "Osman Sarıvəlli bir şair kimi gənclərə qarşı həssas və tələbkar, xeyirxah və səmimi, dilimizi bütün zənginliyi ilə bilən və öyrədən, təbiəti misilsiz dərəcədə duyan və şeirə gətirən, bütün güllərin, çiçəklərin, quşların adını tanıyan, torpağa, torpağın poeziyasına dərindən bələd olan, qəlbini, ruhunu, duyğularını saz üstündə kökləməyi bacaran, xalqın içindən çıxan, elin-obanın dilini bütün incəliklərinə qədər anlayan və anladan ustad bir sənətkar idi. Osman Sarıvəlli mənim yaddaşımda gözəl bir insan, nurlu bir ağsaqqal, işıqlı bir şəxsiyyət, ləyaqət və təvazökarlıq timsalı, dumduru dağ çeşməsinə bənzəyən bir varlıq kimi qalıb".

Xalq şairi Səməd Vurğundan söz düşəndə isə deyir: "Allah Səməd Vurğun kimi Tanrı vergisini Azərbaycan xalqına ona görə göndərdi ki, beynimiz içərisində boş qalan şanıları, ilahi sözün sehrilə, poetik sözün işığıyla, poetik təfəkkürlə doldursun, xalqı, milləti xoşbəxt eləsin, xalqın istedadının nəyə qadir olduğunu dünyaya nümayiş etdirsin".

"Müşfiqə bir güllə dəydi" şeirini nakam şairimiz Mikayıl Müşfiqə həsr edib. "Müşfiq öz vətəninin nailiyyətlərinə ürəkdən sevinən, bu müvəffəqiyyətləri coşqun bir hisslə qələmə alan, poeziyanın əsas mövzusuna çevirən əsl vətəndaş şairdir. Onun müasirliyi, unudulmaz olması da bu

vətəndaşlıq hissindən irəli gəlir", – deyən Z.Yaqub Mikayıl Müşfiqin məhbəsdə çəkilmiş şəklinin önündə düşüncələrə dalaraq "Qəmli şəkil" şeirində isə belə deyir:

Yurdun sinəsinə kimlər çəkdi dağ,
Kimlər əl qaldırıb tətiyi çəkdi?
Xalqın şairini gülləyə tutmaq,
Bu xalqın özünü güllələməkdi!

«Süleyman Rəhimov haqqında xatirələrim» adlı məqaləsində Xalq yazıçısı Süleyman Rəhimovdan bəhs edir. Hələ Bakı Dövlət Universitetinin tələbəsi ikən bu böyük yazıçı ilə tanışlığından, ondan gördüyü qayğıdan danışır, onun tövsiyəsi və zəmanəti ilə Yazçılar İttifaqına üzv qəbul olunmasını minnətdarlıqla xatırlayır.

"Köhnə kişi" şeirini Xalq yazıçısı, büllur saraylara tamah salmayıb, könül sarayları quran İlyas Əfəndiyevin ruhuna bağışlayıb. Şair deyir ki, saçı zirvələrin qarına dönən, bir sarvan kimi karvan-karvan dərdlərimizi daşıyan İlyas Əfəndiyev həyatın enişli-yoxuşlu yollarında neçə dağ, neçə dərə keçib zamanın sınağından təmiz, ləkəsiz çıxdığı kimi, sənət sınağından da üzüağ çıxıb. Onun əsərləri taleyimizə çevrilərək həmişə bizə bizdən danışıb, Qarabağın, Borçalının, Şirvanın, Təbrizin dərdləri onun qələmiylə dinib danışıb:

Onun qələmində tariximiz də,
Tarixi ən kəskin ittiham da var.
Möhtəşəm hökmdar ucalığı da,
Məhv olmuş gündəlik, sönən şam da var.
("Köhnə kişi")

İlyas Əfəndiyevin şəxsiyyəti ilə yaradıcılığının vəhdət təşkil etdiyini vurğulayan Z.Yaqub "Atamın sevimli yazıçısı" məqaləsində yazır: "O, bir ziyalı kimi, keçmişin və gələcəyin, dünənin və sabahın, kəndin və şəhərin, sevənlərin və sevilənlərin, gənclərin və baharın yazıçısıdır!"

Şıxəli Qurbanov deyiləndə həmişə bahar fəslini, Novruz bayramını, doğan Günəşi, açılan səhəri, dalğalı dənizi, fırtınalı həyatı xatırlayan şair onun keçdiyi ömür yolunu müəllim ömrü, alim ömrü, tədqiqatçı ömrü, şair ömrü, ictimai xadim ömrü kimi xarakterizə edir və bu qənaətə gəlir ki: "Bir ömürdə bir neçə ömür yaşamaq ancaq Allahın əziz bəndələrinə qismət olur. Belə oğulları hər ocaq yetirmir, hər ana doğmur".

Bəxtiyar Vahabzadənin 80 illik yubileyi münasibəti ilə təbrikində onu "Azərbaycan xalqının, millətinin, ümumiyyətlə, Yer kürəsində olan bütün türkün fəxri" adlandıran Z.Yaqub yazır: "Bəxtiyar Vahabzadənin şeirləri Azərbaycan xalqına Azərbaycan millətinə bir məsləhətdir, dərsdir. Azərbaycanın, bütün türk millətinin tarixçəsi deməkdir".

Xan Şuşinskini "muğamat adlı bir çayın üstündə qurulmuş ən möhkəm və etibarlı bir körpü" adlandıran Z.Yaqub Xanın xalq qarşısındakı xidmətlərini Üzeyir Hacıbəylinin bəstəkarlıqda, Səməd Vurğunun poeziyada, Heydər Hüseynovun fəlsəfədə, Mustafa bəy Topçubaşovun təbabətdə, Səttar Bəhlulzadənin rəssamlıqda, Bülbül və Rəşid Behbudovun xalq mahnılarının ifasındakı xidmətləri ilə bir səviyyədə görür.

"Köhnə kişilərdən bir nişan kişi" dediyi Xalq yazıçısı İsa Muğannaya bir neçə şeir və məqalə, ölümündən sonra isə "Ün" adlı möhtəşəm bir poema həsr edən Z.Yaqub deyir ki, mən İsa müəllimin şəxsində iki böyük yazıçı tanıyıram: "XX əsrin İsa Hüseynovunu sevirəm, XXI əsrin Muğannasını

dərk edirəm, həqiqətdən mayalanan ruhani və xəyali dünyasına inanıram".

İsa Hüseynovun yaradıcılıq yolunu adidən qeyri-adiyə, sadədən mürəkkəbə, dayazdan dərinə, yerdən göyə, ulduzdan kəhkəşana, ruhdan cana, nəfəsdən bədənə, bəzəkdən özəyə, qabıqdan toxuma – İsadan Muğannaya doğru gedən bir yaradıcılıq yolu adlandırır.

Həmişə ustadım deyə müraciət etdiyi, "Hüseyn Arif mənim üçün unudulmaz müəllim, qayğıkeş ustad, tükənməz yaddaş xəzinəsi, bənzərsiz və özünəməxsus bir insan idi", – deyə xarakterizə etdiyi, təbiətdən yaza-yaza təbiətin bir parçasına çevrilən, sazdan danışa-danışa sazın gümüşü tellərinə köçən Hüseyn Arifə bir neçə şeir və məqalə həsr edib. "Hər yerdə Kərəmlə Lələ kimi" olduğu H.Arifdən danışanda hər şeydən öncə belə deyir: "Hüseyn şair kimi heç vaxt qurumadı, rəsmiləşmədi, əlli ildən çox qoynunda yaşadığı şəhər dedi-qoduları onun duru və sağlam təbiətini dəyişə bilmədi" ("Ustadıma məhəbbətlə").

Xalq şairi Məmməd Arazı zəhmətkeş arıtək "sözdən bal çəkən", "dilsiz daşın da dilini bilən", qanında ilham, mayasında söz olan, "baxışı buludlardan nəm çəkən", "şöhrəti zamanı dizə" gətirən, "başı söz üstündə qeylü-qal çəkən" adlandırır. Şairə görə, bu gün qayanın mamırında, daşın yaddaşında, palıdın yarpağında, gülün budağında, körpənin dodağında, gəlinin ismətində, qızın həyasında Məmməd Araz var:

Dönüb sərvətimə, dönüb zərimə,
Misrası dərmandı dərdi-sərimə.
Sol gözüm yuvadı əzizlərimə,
Gözümün sağında Məmməd Araz var.

("Məmməd Araz var")

Uzun müddət ünsiyyətdə olub, qayğısını, xeyirxahlığını gördüyü, uğurlu və uğursuz günlərinin şahidi olduğu, çiçək kimi kövrək, qaya kimi sərt olan Xalq şairi Xəlil Rza Ulutürk haqqında danışanda deyir ki, o, ömrü boyu qəhrəmanlıq poeziyasına xidmət elədi, təmənnasız yaşadı, heç kimə minnət qoymadı, çünki "əyilməzlik Ulutürkün əslindədi, soyundadı".

"Xalq yazıçısı Anara açıq məktub"unda dünyada zirvələrin, ucalıqların, yüksəkliklərin, ucalanların və ucaldanların əbədi yaşadığını vurğulayan şair – "Siz də o zirvələrdən biri kimi, "Əsrin əsiri" kimi, ədəbiyyatımızın fədaisi, xalqın oğlu kimi həmişə yaşayacaqsınız, Anar müəllim!" – deyir.

Həmişə "ustadım, unudulmaz könül dostum" dediyi, kürsülərə, yerə-göyə sığmayan, "silahı ağıllı söz, yaxşı şeir", şeiri layla, sözü ovsun olan, "bir şair kimi kövrək könüllərə poeziya işığı səpələyən" Tofiq Bayramı şeiri dağların zirvəsinə qaldırmağa qadir, "oxucunu döyüşçüyə döndərməkdə mahir" bir Vətən əskəri, vətəndaş şair adlandırır, nə qədər ki, mən varam, qəlbimdə bir Tofiq Bayram dünyası var deyir. Zəlimxan Yaqub deyir ki, Tofiq Bayram:

Quruluqdan, rəsmilikdən uzaq idi,
O, bir dünya, bir kainat adamıydı.
Şair kimi bir alışan ocaq idi,
Tofiq Bayram canlı həyat adamıydı.
("Tofiq Bayram dünyası")

"Millətimin qəmçəkəni, dərddaşıyanı, milli və ruhani yazarı" adlandırdığı Xalq yazıçısı Mövlud Süleymanlı sözünü Oğuz nərəsi, Qopuz nəğməsi, toppuz zərbəsi,

ədəbiyyatın və əbədiyyətin halallığa açılan, doğruluğa gedən dost qapısı adlandırır: "Qara dağı yıxılan gündən qara başını qara saza söykəyən, qara zurnanın havasına oynamaq istəyəndə qara günləri yadına salıb hönkür-hönkür ağlayan Allahın verdiyi dərddi, qımqımadı, zümzümədi, gümüldənmədi, oxşamadı, ağıdı – Mövlud Süleymanlı Sözü" ("Mövlud Süleymanlı haqqında söz").

Şair Musa Yaquba həsr etdiyi şeirində onu dağ kəlinə, şeiriyyətin "başı zirvə, döşü yamac, özü dağ" olan heykəlinə bənzədir. Deyir ki, kükrəyəndə dağ selinə dönən Musa Yaqub kövrələndə böynubükük bənövşəyə bənzəyir, çünki onun duyğularının qanadı təbiətdir. Musa Yaqub hahallığın, ləyaqətin, təbiətin dilində danışır:

Acı deyil şan-şöhrətin, ad-sanın,
Dalğasıdı söz adlanan dəryanın.
Bir gözütox balasıdı Şirvanın,
Öz yurduna, öz elinə bənzəyir!
("Bənzətmə")

"Saçlarından dırnağına Türk oğlu Türk" olan Cavad Heyəti o tay bu tay Azərbaycan arasında bir körpüyə bənzədir. Elə bir körpüyə ki, "nə uçandı, nə sökülən, nə dağılan", bu körpü heyrət körpüsüdür, qeyrət körpüsüdür, ağrı-əzab, görüş-həsrət körpüsü, zəfər günü bir səltənət körpüsüdür:

Yaralara məlhəm qoyan cərrahımız,
Döyüş günü səngərimiz, silahımız.
Onu bizə çox görməsin Allahımız,
Tarix üçün qədir-qiymət körpüsüdür,
Uca duyğu, saf məhəbbət körpüsüdür.

Ey oxucum, nə dağa düş, nə arana,
Bax, bu körpü Cavad Heyət körpüsüdür.
(“Cavad Heyət körpüsü”)

Məclislərdə uzun-uzadı, mənasız, mətləbsiz çıxışları, yersiz söhbətləri görəndə Mikayıl Mirzəni xatırlayır:

Sözü sahibinə, yiyəsinə ver,
Qoyma hər danışan hərzə danışsın.
Zili qaydasında, bəmi yerində,
Danışır, Mikayıl Mirzə danışsın.

“Cavidin qız balası” poemasında ata yurdunun ocağı, qoru olan, atasını təhqirlərdən, tənələrdən qoruyaraq ismət qalasına, qeyrət qalasına çevrilən Turan Caviddən, “İnsan” poemasında isə ürəyi daşıdığı ağrılara dözməyən, “xalqın sırasından, elin vicdanından” gedən, alim kimi alim, insan kimi insan, millət yükü, qeyrət yükü, Təbriz boyda həsrət yükü çəkən, “təpədən dırnağa kimi insaf, vicdan” olan, “dağı daş-daş, qaya-qaya, düzü rəng-rəng, boya-boya” tanıyan Xudu Məmmədovdan bəhs edir.

Xalq yazıçısı Elçinə, yazıçı-publisist, MEA-nın həqiqi üzvü, Millət vəkili Rafael Hüseynova, Yazıçı Əlisa Nicata, Afaq Məsuda, şair-publisist Məmməd Əfşana, Natəvan Dəmirçioğluna, “ucqar şairi” İbrahimxəlilə, Səyyad Ağbabalıya, Əməkdar memar Ömər Qoçuluya, Təbrizli şair Sönməz Kərim Məşrutəçiyə, Xaqani Qayıblıya, Cavid Zeynallıya, Fərid Hüseynə açıq məktubları da böyük ictimai yükə malikdir.

Böyük ziyalımız, “Respublika” qəzetinin baş redaktoru, professor Teymur Əhmədovdan söz açanda “Teymur müəl-

lim canlı bir tarix, çoxcildli bir ensiklopediya, oxunub qurtarması mümkün olmayan bir salnamədir" ("Dağla bulaq kimi"), professor Abuzər Xələfovdan danışanda – "Abuzər müəllim bir alim kimi bir neçə dərslik kitabının müəllifi olsa da, onun öz şəxsiyyəti mənim üçün dərslik kitabıdır" ("Abuzər Xələfov – 70"), – deyir, professor Camal Mustafayevdən "mənəvi saflıq, mənəvi paklıq, təmizlik, mütaliəyə həddindən çox bağlılıq, təfəkkür genişliyi, fikir meydanının genişliyini" götürdüyünü vurğulayır ("Nə gözəl yaradıb"), professor Qulu Xəlilovu "ədəbiyyatın səngərində döyüşən əskər" ("Yeriyən torpaq"), Xalq artisti Habil Əliyevi xəstəni ölümün əlindən alan "izin, möhlət, aman" adlandırır ("Habil"). "Qəbri Vətənindən aralı, qəlbi Vətən sarıdan yaralı" Nazim Hikmətdən ("Oxuyuram Nazim Hikməti"), böyük şərqşünas alim, akademik Vasim Məmmədəliyevdən ("Kərbəla səfəri"), "Dili şirin Bəhmənim, dərdi dərin Bəhmənim" dediyi Bəhmən Vətənoğlundan ("Bəhmən Vətənoğluna"), Təbrizin sehrli saz ustası Çingiz Mehdioğlundan ("Sənin ki, dərdin var, bir Təbriz qədər"), "tənqidində də, tərifində də, sevgisində də, nifrətində də ardıcıl və prinsipial, əqidəli və döyüşkən, səmimi və təbii" olan professor Nizaməddin Şəmsizadədən ("Könül adamı"), müasir Azərbaycan poeziyasında "şeirinin rəngi, dərdinin ahəngi" ilə seçilən və sevilən Səadət Butadan ("Kövrək bayatılı Səadət Buta") söhbət açır.

Görkəmli ictimai xadim, məşhur dövlət adamı Həsən Seyidova mənim həmişə böyük sevgim, rəğbətim olub, – deyir, onu təmizlik, halallıq və ucalıq mücəssəməsi kimi dəyərləndirir ("Təmizlik, halallıq, ucalıq"), "Əsl ağsaqqal, əsl kişi, görkəmli dövlət adamı, böyük insan" adlandırdığı

Kamran Hüseynovdan böyük məhəbbətlə söhbət açır ("Şəxsiyyət").

Tanınmış alim, pedaqoq, ictimai xadim və millət vəkili Şamil Qurbanov haqqında yazır ki, o, bir alim kimi heç vaxt hamının bildiyi asan mövzular dalınca qaçmamış, əksinə, mövzulara qol-qanad vermək, qaranlıqdan işığa çıxarmaq üçün əlindən gələni əsirgəməmişdir ("Açılmamış səhifələrdən açılmış mətləblərə doğru" və "Nur parçası").

"Dahiləri belə gördüm" silsiləsindən yazdığı şeirlər Ə.Xaqani, N.Gəncəvi, Qazi Burhanəddin, İ.Nəsimi, Xətai, M.Füzuli, M.P.Vaqif, Aşıq Ələsgər, X.Natəvan, S.Ə.Şirvani, M.Ə.Sabir, M.Hadi, H.Cavid, S.Vurğun, M.Müşfiq və Şəhriyara ithaf olunub.

Zəlimxan Yaqubun ədəbi qəhrəmanları içərisində daha kimlərin adlarına rast gəlirik: Hüseyn Cavid ("Cavid Əfəndi"), Xalq yazıçısı İsmayıl Şıxlı ("Dünyanın ölümü"), Xalq şairləri Mirvarid Dilbazi ("Mirvarid xanım"), Nigar Rəfibəyli ("Nigar xanım Rəfibəyli haqqında"), Cabir Novruz ("Günlərin ağsaqqalı"), Qabil ("Üzrxahlıq") və Sabir Rüstəmxanlı ("Sabir Rüstəmxanlıya"), şairlərdən İlyas Tapdıq ("Ustad şairə dost təbriki"), Hidayət ("Şair ömrünün coğrafiyası"), Vilayət Rüstəmzadə ("Bizim Vilayətimiz"), Ağa Laçınlı ("Laçınlı Laçınsız duyğularım" və "Laçınlı, Laçınsız Ağa Laçınlı"), Abbas Abdulla ("Abbas Abdulla haqda ürək sözü"), Məmməd Aslan ("Ay Məmməd Aslan"), Əli Tudə ("Girişə gəlməyən söz") və Rəşid Acalov ("Unudulmaz insan"), görkəmli alim Əhəd Hüseynov ("Kövrək bir xatirə"), akademik Cəlal Əliyev ("Elimizin və elmimizin ağsaqqalı"), Rəşid Mahmudov ("Xatirələr yaraşığı"), İraqlı şair Ədüllətif Bəndəroğlu ("Ustad"), Xalq artistləri Alim Qasımov ("Alim Qasımova"), Ağaxan Abdullayev

("Öldürür") və Ramiz Quliyev ("Ramizin övladı"), Cənubi Azərbaycan milli azadlıq hərəkatının lideri Mahmudəli Çöhrəqanlı ("Mahmudəli Çöhrəqanlıya"), Əlfi Qasımov ("Həmişə rəhmətlə anılan kişi"), Cəlal Allahverdiyev ("İşıqlı xatirə"), Eyvaz Əlləzoğlu ("Ümid qapısı bağlanmasın"), Elçin Hüseynbəyli ("Qürur duymağa haqqın var"), Azər Turan ("Azər Turanın "Cavidnamə"si"), Əbülfət Mədədoğlu ("Kədəri incitməyən şair"), Etibar Babayev ("Etibar işığı"), Elbəyi Cəlaloğlu ("Mehralı bəy dastanı haqqında düşüncələr"), Məmməd Dəmirçioğlu ("Yarın bağçasında üç gül açılmış..."), Mətləb Misir ("Ümid işığında dincələn şair"), Təbriz İman ("Onun təbii ilhamı var"), Əlizadə Nuri ("Şair Əlizadə Nuriyə doğru") və daha kimlər, kimlər...

"ŞAİR BU DÜNYANI BOŞUNA GƏZMƏZ"

Bir yerdə duranda bulanıb qalır,
Səfərə çıxmasa durulmur insan.
Z.Yaqub

İnsan ömrünün böyük bir hissəsi yollarda, səfərlərdə keçir. Əslində, bütün həyatımız bir səfərə bənzəyir: insan doğulduğu gündən onu axirətə aparan bir yolun yolçusuna çevrilir. Və bu böyük yolun hər dayanacağı, hər tini, hər döngəsi, enişi, yoxuşu insana çox şey öyrədir, dünyagörüşünü zənginləşdirir, həyat təcrübəsini artırır. Atalar nahaq deməyiblər ki, çox gəzən çox bilər. "Uzun-uzadı yollarda uzun fikirlər doğar, uzun-uzadı fikirlər uzun yolları yorar" (Y.İliçov).

"Evdə ruh sıxılıb, can darıxanda, nə yaxşı çıxmağa səfər var, Allah", – deyən Zəlimxan Yaqub yazır: "Yollar çoxdu dünyada. Su yolu, hava yolu, torpaq yolu, dağ yolu, aran yolu, Allah yolu, şeytan yolu. Yola and içib "Getdiyimiz bu yol haqqı" demişik. Şeytanın sözünə baxanlara "filankəs yolundan azıb", Allahın yoluna baxanlara "filankəs Haqqın yolundadır", – deyiblər. Yolların başına dolanmışıq, yollar bizim başımıza dolanıb. Haqqa gedən yol Allahdan, dinə gedən yol peyğəmbərdən, sözə gedən yol şairdən keçib".

Bəli, həyatda hər kəs yaxın-uzaq səfərlərə çıxır, çox şeylərdən halı olur. Amma şairlərin səfərləri başqalarından fərqlənir. Çünki şairlər sadəcə səyahətlə, dünyanı seyr etməklə kifayətlənmir, gördüklərini, duyduqlarını qələmə alır, hər səfəri bir kitaba çevirirlər. Dünyanın bir sıra ölkələrində rəsmi və qeyri-rəsmi səfərlərdə olan Zəlimxan Yaqub sanki

bütün qələm adamlarının fikrini ifadə edirmiş kimi, bu barədə necə də gözəl deyib:

Şair bu dünyanı boşuna gəzməz,
Hər səfər bir tarix, bir kitab olar.
Şairin ürəyi dolar, boşalar,
Sözün həyatında inqilab olar.
(“Sözün həyatı”)

“Yollarda durulmuşam, yollarda dirilmişəm”, – deyən Zəlimxan Yaqubun ən böyük səfəri isə söz dalınca olan səfəridir:

Səfər etdim söz dalınca,
Dolu getdim, dolu gəldim.
Bu dünyanın o başından,
Mənə çatan yolu gəldim.
(“Dolu getdim, dolu gəldim”)

Şair deyir ki, səfərə çıxanlar üçün yollar da həmişə açıq olur. İnsan övladı səfərə çıxmasa durulmur, bir yerdə duranda bulanıb qalır, səfərə çıxanda isə yolları varlığına hopdurur, bütün arzu və diləklərini reallaşdıra bilir:

Səfərə çıxanda insan övladı,
Yollar varlığına hopur qayıdır.
Nə ki arzuları, diləkləri var,
Yoğurur qayıdır, yapır qayıdır.
Təzədən doğulur bu dünya üçün,
Dünyanı qəlbində tapır qayıdır.
(“Uğura çıxanda”)

Səfərlər həm də şairin ilham mənbəyidir:

Axmaz varaqlara qaynar misralar,
Sevincim, fərəhim çevrilər yasa.
Mənim duyan könlüm, sevən ürəyim,
Gündə bir səfərə hazır olmasa.
(“Çin səfəri”)

Şair deyir ki, səfər etmək yaxşıdır, ancaq gərək “fikrin Haqqı dərk ola”, hər yerdə ərklə, sevgiylə qarşılanasan:

Səfərdən gözəl nə var,
Fikrin Haqqı dərk ola.
Hər yerdə sənə qarşı
Sevgi ola, ərk ola.
(“Səfərdən gözəl nə var”)

“Mən söz yolunun yolçusu olmuşam. Ömrüm boyu yollarda, səfərlərdə olmuşam. Yaddaşların malı olan şeirlərimin əksəriyyətini yollarda yazmışam”, – deyən Zəlimxan Yaqub yazır:

Yaradanım yaxşı bilir,
Yolum kimlərin yoludu.
Dünənin söhbəti deyil,
Lap qədimlərin yoludu.

Başqa bir misal:

Yolçusu var, dərvişi var, qulu var,
Ayağı var, qanadı var, qolu var.

Qəbrimizdən o yana da yolu var,
Eşqi ilə ötdüyümüz yolların.

Səhra dolaş, düz addımla, düz yeri,
Nişan qalsın ayaq yeri, iz yeri.
Yüz qanadlan, yüz havalan, yüz yeri,
Sonu yoxdu ötdüyümüz yolların.

Və şair deyir ki, yollar adamı sınaqdan keçirir, insan yol boyunca imtahan verir, bu yollarda bişənlər bərkiyir, xamlar təntiyir. Sonu görünməyən bu yollar mənə həmişə hərəkətdə və bərəkətdə olmağı öyrədib, mən yollardan keçdiyim kimi, yollar da mənim şeirlərimdən keçib:

Yol hardan başlanır, özümə bəlli,
Yol harda bitəcək, Yaradan bilir!
(“Yol düşüncələri”)

“Ən böyük səyyahlar şairlər olub, ən güclü şairlər səyyah olarmış” deyən şair, özünün də dediyi kimi, dünaynı boşuna gəzmir. Hər səfərində Azərbaycanı təbliğ edir, Azərbaycanın uğurlarını görüb qürur duyur:

Adın çəkilən kimi coşur damarda qanım,
Çay kimi ləngərlənib axın-axın oluram.
Nə sehr, nə möcüzə, nə ovsundu, bilmirəm,
Səndən uzaqlaşdıqca sənə yaxın oluram.

Çin səfərindən sonra yazıdğı “Pekində görüş” şeirində isə bu qüruru belə ifadə edir:

Pekin sarayında bir təmtəraqlı,
Himni qanadlanır Azərbaycanın.

Poeziyamızın əbədi mövzularından olan qürbət mövzusu da şairin yaradıcılığında öz əksini geniş şəkildə tapıb. Uzaq-uzaq ölkələrə səfər edən Z.Yaqub hər yerdə doğma Azərbaycanımızı təbliğ edib, onun uğurlarından qürur duyduğu kimi, qürbətdəkilərin – "qisməti qürbətə yazılanların", "məzarı yad eldə qazılanların" acı taleyinə də biganə qalmır. "Öləndə də yollarda ölmək istəyirəm" , – desə də, son qənaəti budur ki, hər uçuq koması bir şəhərə çevrilsə də, daşları çevrilib ləl-gövhər olsa da, səni öz mülkünə padşah etsə də, gördüyün hər gözəllik səni heyrətə salsa da, qürbətdən Vətən yaxşıdır:

Yaxın olan deyil yadı qürbətin,
Üşüdər insanı adı qürbətin.
Baldan şirin olsa dadı qürbətin,
Yenə də qürbətdən vətən yaxşıdır.
("Üşüdər insanı adı qürbətin")

Və yaxud:

Məzarı yad yerdə qazılanların,
Əvvəli olsa da, sonrası yoxdu.

Səfəri beşgünlük olmayıb, "tarixi zamandan zamana" çəkən, dünyanın çox yerlərini dolaşıb gəzən və hər yerdə də uğurlu tale ilə qarşılaşan şairin diqqətindən "hərəsi bir nisdgil, bir ağrı çəkən" qəriblərin acı taleyi də yayınmır. Azərbaycanı yuxularında görüb xəyalı min yerə dağılanları, gözyaşı içində boğularaq ürəyi üzülənləri, Vətənə məktub

yazmaq istəyəndə vərəq tapsa da, qələm tapa biləməyənləri, öpmək üçün Vətəndən bircə yarpaq, qəbrinin üstünə tökmək üçün bir ovuc torpaq arzulayanları görəndə, "eldən aralanıb gedən yazıqdı", – deyir və bir də deyir ki:

Gözləri həmişə qürbətə baxan,
Qəribi çox olan Vətən yazıqdı.
("Qəriblər")

Vətəndən bircə həftəliyə uzaqlaşan şair – "İlahi, qəriblər nə çəkir görən", "Təsəllini nədə tapır qürbət eldə dara düşən", – deyə öz-özünə sual edir. Vətəndə qürbəti heç düşünməsə də, qürbətə düşdüyü an "Vətən" deyir, Tanrıdan istədiyi də ancaq Vətən olur:

Dedilər, Allahdan nə istəyirsən,
Bir Vətən söylədim, bir ana dedim.
("Köksüz ağac")

Dünyanın bir çox ölkələrini gəzən, rəsmi səfərlərdə olan şair qürbətdəkiləri köksüz ağaca bənzədir, deyir ki, qürbətdəki xəstəni öldürən əcəl yox, qürbətdir, Vətənlə qürbət arasındakı ayrılıqdır, həsrətdir. Və məşhur bayatıda deyildiyindən fərqli olaraq, Zəlimxan Yaqub deyir ki, təkcə ölməyə yox, elə gəzməyə də vətən torpağı yaxşıdır:

Öz kökü üstündə qalxan, ucalan,
Öz kökü üstündə bitən yaxşıdı.
Elə gəzməyə də Vətən torpağı,
Elə ölməyə də Vətən yaxşıdı.
("Vətən yaxşıdı")

“TƏBİƏT ALLAHIN ŞAH ƏSƏRİDİ”

Ən böyük təbiəti Allah insana verdi,
Uca-uca zirvələr ucalan başımızdı.
Alın qırışlarında tale yazıları var,
Qat-qat olan qayalar çatılan qaşımızdı.

Z.Yaqub

Təbiət vurğunu olan, torpağın, səmanın, buludun, yağışın, otun, yarpağın, zirvənin yaddaşına hopan, şeirini qaynar təbiylə dağların döşünə, qayaların zirvəsinə yazmaq istəyən Zəlimxan Yaqub deyir ki, məni “ətəklərin genişi, zirvələrin ucası, çinarların nəhəngi, palıdların qocası, qartalların uçuşu, qayaların haçası, yerin, göyün ləngəri” şair elədi: “Gözümü açdım zəngin təbiəti – nərəli çayları, duru bulaqları, uca dağları, qarlı zirvələri, dərin dərələri, sərt uçurumları, basılmaz qalaları, möhtəşəm qayaları, geniş göyləri, bir qarışında minbir gülü-çiçəyi sayrışan çəmənlikləri gördüm. Hamısı ilham çeşməsi, şeir qaynağı, poeziya bulağı, müqəddəslik beşiyi, duruluq, təmizlik, halallıq mənbəyi!”

“Təbiətdən böyük ziyarət olmaz”, – deyən Zəlimxan Yaqub gücünü, qüvvətini təbiətdən alan şairdir. Zəlimxan Yaquba görə torpağın hər qatı şeirdir, nəğmədir, hər dağın qoynunda qoşma, bayatı, hər daşın altında bir qəzəl yatır (“Yatır”). Onun ömrü təbiətin ömrüdür, təbiətin damlasında durulub, ümmanına baş vurub, yağışında islanıb, dumanında azmayıb, zirvələrin çiskinindən, çənindən qorxmayıb. Ona görə də bu gün inamla deyə bilir:

Sular kimi hey töküldüm çarxa mən,
Boş gəlmədim otuza mən, qırxa mən.
Əlli yaşda oldum elə arxa mən,
Ümidində, gümanında yaşadım.
(“Mən zamanı zamanında yaşadım”)

Dağı duymaq üçün gərək onun ətəyində çiçək dərib, zirvəsinə vurulasan, sularından içib çeşmə kimi durulasan, qayaların sinəsində şimşəklərin möhürünü görəsən:

Şair, ağrıları at ürəyindən,
Dağların ruhuna, sağlığına bax.
Ətəkdə çəmənin yaşıllığına,
Zirvədə buludun ağlığına bax.

Təbiətin yaşıl yaylasına könlünü verən, bəzəkli xalı olan Vətən yurdunu taleyinin naxışı sayan şairə dağ da, aran da sirdaş olur, təbiətin dilini öyrənməyə çağırır:

Ən böyük hikməti təbiətdə gəz,
Olsa da yolları dolaşıq, çətin.
Yüz il yaşasan da, sirrini verməz,
Dilini bilməsən sən təbiətin!

Şairə görə çiçəyin də, küləyin də, daşın da, torpağın da danışmağı var, dili var. Təki onları danışdıra bilən olsun. Onların hər birinin eyni zamanda insan kimi həsrəti, nisgili, sevinci var:

Dilini bilən olsa,
Dilsiz nə var dünyada.

"Yazın ləzzətini bilməzdi könlüm, qışın şaxtasında dona bilməsəm", – deyən şair üçün ilin bütün fəsilləri gözəldir, hər fəslin öz gözəlliyi var, yetər ki, onu duya biləsən:

Payız kövrəldəndi, bahar coşduran,
Məni sərt eyləyən qış da gözəldir.
"Ürəyin daşdırmı" – demə, ay insan,
Duymağı bacarsan, daş da gözəldir.

"Kim yerin eşqini duymaq istəsə, qaynar bulaqların gözünə baxsın", – deyir və bulaq suyunun hər damlasında bir ümman dərinliyi, onun nurlu gözündə ülvi bir məhəbbət şirinliyi görür, bulaqdan saflıq və dərinlik, qaynarlıq və sərinlik istəyir:

Müqəddəs arzumdu sevmək, sevilmək,
Demirəm ya dəniz, ya da dağ olum.
Nemətdi duruluq, saflıq, təmizlik,
Bəsimdi, sənintək bir bulaq olum!
("Ay bulaq")

Zəlimxan Yaqub 13 cildlik külliyyatının birinci cildində təbiətlə bağlığı belə yazır: "Mənim gözündən su içdiyim bulaqlar mənə aşıqlıq, şairlik bəxş edib. Mən o suları adicə su kimi içməmişəm, dirilik suyu kimi ciyərimə çəkmişəm. Həmin bulaqlar məni hallı-havalı çaylara, çaylar da ucsuz-bucaqsız dənizlərə – söz, ruh, təfəkkür dənizlərinə qovuşdurub.

Zəlimxan, yaşama torpaqdan ayrı,
Közün nə ömrü var ocaqdan ayrı.
Sözün bu arandan, yaylaqdan ayrı,
Nə dildə səslənər, nə şöhrət tapar.

– deyib sözümün şöhrətini, dilimin şəhdini-şirəsini, gözümün nurunu dağa-daşa düşmədən doğulduğum torpağın gözəlliklərində tapdım. Ona tapındım, ondan qidalandım. Yayda yaylağına, payızda binəsinə, qışda qışlağına vuruldum. Arandan yaylağa, yaylaqdan arana gedib-gəldikcə cığırları, yolları, izləri qaya-qaya, daş-daş, çiçək-çiçək gözlərimə köçürdüm, qəlbimə bir elat mədəniyyəti köçdü, şimşəklərin gurultusu, köhlən atların nərəsi, ilanüz qamçıların şaqqıltısı, alaçıqlar, dəyələr, çeşməbaşı məclislər mənim uşaqlıq və gənclik illərimin heç vaxt yaddaşımdan silinməyən, unudulmağı mümkün olmayan hadisələrinə, şeirlərinə, nəğmələrinə çevrildi”.

Dağlarda şimşəklərin oynuna vurulub, çəmənlərin qoynuna sığınır, misralarını çiçəklərin boynuna muncuq kimi düzmək istəyir, aran anam, yaylaq bacım, dağ atamdır deyir:

Aran anam, yaylaq bacım, dağ atam,
Gərək hər gün şirə çəkəm, tağ atam.
Şerim olub düzə ləzzət, dağa tam –
Bu yerlərə yazılmamış getmərəm.

(“Getmərəm”)

Çəməni bulaqla, ilhamı şeirlə, ürəyi sözlə, nəğməni dodaqla, qocanı uşaqla, qələmi varaqla qoşalaşdıran təbiət insanı da torpaqla qoşalaşdırıb:

Zəlimxan, yurdundu bu doğma diyar,
Burda beşiyin də, məzarın da var.
Təbiət özüdür böyük sənətkar,
İnsanı torpaqla qoşalaşdırıb.
(“Qoşalaşdırıb”)

Yoxuşları yolu, yolları qisməti, zirvəni ucalığı, dağı yüksəkliyi sayıb, eniş də, yoxuş da, yağış da, şimşək də məndədi deyən, gözünü gülə-çiçəyə, üzünü çənə-çisəyə öyrədən (“Gözümü öyrətdim gülə-çiçəyə”) Zəlimxan Yaqub deyir ki, keçilməz dərələri keçməsəydim, aşılmaz zirvələri aşmasaydım, yeldən qanad, seldən güc almasaydım, torpaqdan, toxumdan, dəndən gəlməsəydim, ruhum küləklərə qoşulmasaydı, mən hardan bilərdim şairlik nədir:

Qəlbimi riqqətə gətirməsəydi,
Ana təbiətin yaratdıqları,
Mən hardan bilərdim şairlik nədir?
(“Mən hardan bilərdim şairlik nədir?)

Və bu qənaətə gəlir ki:

İnsan oğlu, Tanrını təbiətlə dərk edir,
Təbiəti duyanlar Allaha yaxın olur.
(“Allaha yaxınlıq”)

“Bax, oğlum, yaxşı bax, təbiət budur” şeirində sözün qüdrətindən məharətlə istifadə edən şair sanki bir rəssam dəqiqliyi ilə gözlərimiz önündə təbiətin mənzərəsini yaradır:

Damcıda ümman var, ümmanda damcı,
Buludda şimşək var, şimşəkdə qamçı.
Yağışda həyat var, seldə hərəkət,
Sünbüldə zəmi var, dəndə bərəkət.
Yarpaq əlimizdi, torpaq canımız,
Şəlalə hissimiz, həyəcanımız.
Külək sığalımız, meh tumarımız,
Çeşmə ürəyimiz, çay damarımız.
Çatılan qayalar çatıq qaşımız,
Ucalan zirvələr qarlı başımız.
Həyatın, varlığın canı, cövhəri
Havadır, torpaqdır, atəşdir, sudur,
Bax, oğlum, yaxşı bax, təbiət budur!
Yaradan deyilən o hikmət budur!

Bu gün qloaballaşan dünyada bəşərin ən böyük problemlərindən biri də təbiətin qorunması, insanın təbiət qarşısındakı cavabdehliyidir. "Əlvan təbiəti seyrə dalanda, lalələr gözümdə çırağa dönür", – deyən, meşələri ana təbiətin tacı sayan şair insanları Allahın şah əsəri olan təbiəti qorumağa çağırır:

Qaynar çeşmələri duru saxlamaq,
İşığı qorumaq, nuru saxlamaq,
Yer üstə ocağı, piri saxlamaq,
Torpağın ruhunu diri saxlamaq,
İnsanın ən böyük cavabdehliyi,
Bəşərin ən böyük dərdi-səridi.
Allahı qoruyar şahı qoruyan,
Təbiət Allahın şah əsəridi.

("Təbiət Allahın şah əsəridi")

Hər dəfə torpağının hər qarışı bir dastan olan təbiətin qoynuna çıxanda kövrələn şair şeiriyyəti güllər üstə düşən şehdə tapır, ahəngini gur çayların zilindən, saf suların bəmindən alır:

Hikmət dolu kitabımdı barlı payız, qarlı qış,
Nə gördümsə, Vətən adlı bu aləmdə tapmışam.
(“Tapmışam”)

Duyğularını toxum kimi cücərtmək, “yerə vurğun, göyə vurğun şair ürəyi”ndən süzülüb gələn şeirləri çəməndəki gül-çiçək kimi becərə bilmək üçün təbiətin gözəlliyinə doyunca baxmaq, “yaşıl sözə, yaşıl şeirə yaşıl işıq” vermək istəyir ki, şairliyi də söz taxtında şah görsün:

Bax, gözlərim, doyunca bax bu yaşıllığa,
Çiçəklərin dodağında şeh görəcəksən.
Nə qədər ki, təbiətlə nəfəs alırsan,
Şairliyi söz taxtında şah görəcəksən!
(“Bax, gözlərim”)

İnsan təbiətlə qoşalaşanda, təbiətin sehrinə düşəndə kindən, qəzəbdən uzaq olur, ürəklərdə iman, insaf qərar tutur, nə ağrı-azar, nə də dedi-qodu, küçə-bazar söhbətləri yada düşmür, iblis dönüb mələyə, qanqal çiçəyə, qaya dönüb ipəyə çevrilir, hər mənzərə bir Zəlimxan yaradır:

Arıya bax, bal süzür, şan yaradır,
Cana məlhəm, gözə dərman yaradır.

Hər mənzərə bir Zəlimxan yaradır,
Təbiətin ovsununa düşəndə.
(“Təbiətin ovsununa düşəndə”)

Ömrünün çox hissəsini şəhərdə yaşasa da, təbiətdən ayrı düşməyən, ilhamını təbiətin sehrindən alan, göyləri taleyinə şöhrət bilsə də, səadətini torpaq üstə görən və çox haqlı olaraq “ayağım dəyməmiş qoca dağların nə yamacı qaldı, nə yalı qaldı”, – deyən, gülün-çiçəyin, çənin-çisəyin, cığırın, izin, çəhlimin, tufanın, şimşəyin, dağın, dərənin, düzün, çəmənin dilini bilən, Tanrıdan gələn pıçıltılardan ilham alan Zəlimxan Yaqub təbiətdən doymur:

Nə qədər duydumsa ana torpağı,
Qarşımda min sirli sualı qaldı.
(“Qaldı”)

“Etiraf” şeirində təbiətin genişliyindən gəlib şəhərin darlığına düşməsindən gileylənir, yerə-göyə sığmayan şair, “şəhər məni birtəhər eylədi”, – deyir, “şəhərin içində şəhər” olmaqdan bezərək “kəndə dönüb kənd olmaq” istəyir. “Təbiət deyirdin” şeirində yazır ki, şəhərdə adamın başı o qədər qarışır ki, “kövrək duyğulara şah ola bilmir”. Bu mövzuda başqa bir şeirində isə “asfalt döşəməlrdə gözümün nuru getdi”, – deyir və yenə də sığmır şəhərlərə:

Mən bir kənd adamıyam, sığmıram şəhərlərə,
Allahım, qaytar məni, geniş düzlərə qaytar.
Gecələr ulduz dərim göylərin yaxasından,
Dan yerinə qovuşdur, saf gündüzlərə qaytar.
(“Qaytar aldıqlarını”)

Aranda canı sıxılanda, dərd üstünə "qucaq-qucaq" yeriyəndə, "məndən ötrü dağ yeri saxla" deyib, üzünü yaylaqlara tutur:

Qocalıb gedirəm aran yerində,
Yaylaq, məndən ötrü dağ yeri saxla.
Çəkim sığalımı körpə güllərə,
Bağbanlıq eşqinə bağ yeri saxla.
("Saxla")

Dodağından öpməyə dağ çeşməsi, ürəyinə səpməyə dağ yağışı, qanadlanıb süzməyə dağ zirvəsi, sinəsində gəzməyə dağ yolları, ətrindən məst olmağa dağ çiçəyi, könüldən dost olmağa dağ qartalı istəyir, dağları səsləməkdən dilində "dağ bitir", "dağsız dağlar oğluna çətin olur yaşamaq ("Dağlar oğlu"). Təbiətlə sevincini, qəmini bölüb elə dağlarda qalmaq keçir ürəyindən:

Dağlar mənə gəl-gəl desə ürəkdən,
Gəlib elə bu yerlərdə qalardım.
Təbiətlə sevincimi, dərdimi,
Bölüb elə bu yerlərdə qalardım.

Nəfəsimdə yaşadardım ətrini,
Əzizlərdim çiçəklərin xətrini.
Ömrün-günün qiymətini, qədrini
Bilib elə bu yerlərdə qalardım.

Nə gözəldi bu dağların lalası,
Mən getsəm də, könlüm burda qalası.

Sevsə məni bir zalımın balası,
Ölüb elə bu yerlərdə qalardım.
(“Qalardım”)

Onun təbiətlə bağlı arzuları da təbiətin özü qədər safdır, təmizdir, səmimidir, müqəddəsdir. Təbiətdən, ana torpaqdan arzusu nədir: yaylaq olmaq, yamaca dönmək, qanadından yaralanmış quşların ağrısına əlac olmaq, çiçək olub çəmənlərə döşənmək, tikan ömrü yox, palıd ömrü yaşamaq (“Məni”).

Ruhən təzələnməyin, durulmağın çarəsini də təbiətlə baş-başa qalmaqda görən şairin “Nə var durulmağa, təzələnməyə” şeirini oxuyanda da gözlərimiz önündə sanki rəssam fırçasından çıxmış təbiət təsviri canlanır:

Durasan yerindən dan sökülməmiş,
Oylağın çiçəkli ətəklər ola.
Boyun görünməyə güllər içində,
Ruhunu tərpədən küləklər ola.
Meh başa toxuna, şeh də ayağa,
Yerdən də, göydən də xoş üz görəsən.
Çəmən dalğalana bir dəniz kimi,
Gah dərə görəsən, gah düz görəsən.
Açıla, saçıla xoş düşüncələr,
Yumaqtək başlaya çözələnməyə.
Göldə güzgülənib, yeldə daranıb,
Nə var durulmağa, təzələnməyə!

Şair dağları sevdiyi kimi, dağlar da şair oğluna öz etibarını göstərir, onu hər gəlişində əzizləyir:

Baxır göyün rənginə, baxır qarın ağına,
İnsan burda qovuşur ömrün zirvə çağına.
Ürəyini süfrətək açıb öz qonağına,
Şair gəlib dağlara, dağlar qonaqlıq verir.
(“Dağlar qonaqlıq verir”)

Zəlimxan Yaqub yaradıcılığında təbiət mövzusu çox geniş əhatə olunub və bir məqalə çərçivəsində bu mövzunu tam əhatə etmək mümkünsüzdür. Bu, bəlkə də, ayrıca bir dissertasiya mövzusudur. Ona görə də şairin müxtəlif şeirlərindən götürdüyümüz və bu gün gün el arasında aforizm, zərb-məsəl kimi işlənən bir neçə nümunə ilə fikrimizi tamamlamaq istəyirik:

Qəlbində yaz varsa, yazı gözləmə,
Qışın ortasında gül açmaq olar.
* * *

Nə qədər torpağı yaxşı becərsən,
O qədər süfrəni bol açmaq olar.
* * *

Daşı mum eyləyən inamın olsa,
Daşın da qəlbinə yol açmaq olar.
(“Olar”)
* * *

Ayağın tutduqca gəz təbiəti,
Demə ki, gəzərəm, sabaha qalsın.
(“Ayağın tutduqca gəz bu torpağı”)

* * *

Güvənəndə bu torpağa,
Qırılmır adam, qırılmır.

(“Güvənəndə bu torpağa”)

* * *

Ürəyimdə torpaq ətri olmasaydı,
Quruyardım qumsal kimi, səhra kimi.

(“Torpaq ətri”)

* * *

Göylər taleyimə şöhrət olsa da,
Mənim səadətim torpaq üstədi.

(“Üstədi”)

* * *

Torpağın borcunu qaytarmaq olar,
Günəşin borcunu necə qaytarım?!

"ALLAHIN SÖZÜNÜ SEVƏNLƏR YAZIR"

Sevgim peyğəmbərim, eşqim Allahım,
Sevgiyə nökərəm, sevgidi şahım.
Z.Yaqub

"Sevilən şairin, sevən şairin, evini həmişə gözəllər yıxıb", – deyən Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığında sevgi şeirləri də mühüm yer tutur. Gözəlləri, gözəlliyi vəsf etməkdən doymayan şair "sevgidi varlığım, sevgidi peşəm", – deyir, çünki "sevənlər həmişə məğrur, möhtəşəm, sevənlər həmişə möhtərəm olur". Sevən ürək, sevilən ürək dağdan da böyük olur, duyğusuz, düşüncəsiz ürəklər isə sadəcə olaraq sinəyə bir yükdür. Bu dünyada hərə bir iz qoymaq istəyir, amma ən böyük, ən gözəl iş sevənlərə nəsib olur. Çünki:

İz qoymaq istəyir gəlib-gedənlər,
Biri xeyir yazır, biri şər yazır.
Şeytanın sözünü nifrət edənlər,
Allahın sözünü sevənlər yazır.
("Allahın sözünü sevənlər yazır")

Zəlimxan Yaqubun sevgi şeirlərini oxuyan diqqətli oxucu altında imzası olmasa belə, bircə misrasından da şeirin kimə məxsus olduğunu müəyyənləşdirə bilər. Onun sevgi şeirləri iki cəhətdən diqqəti daha çox cəlb edir: əvvəla, demək olar ki, onun bütün sevgi şeirlərində gözəl qızla yanaşı təbiətin də gözəlliyi təsvir və tərənnüm olunur, bu iki gözəllik harmoniya təşkil edir. Eyni zamanda bu şeirlərdə sevgilinin təkcə zahiri gözəlliyi deyil, həm də daxili

gözəlliyi təsviri olunur, mənəvi dünyası açılır. İkincisi, bu şeirlərdə biz sevginin çılğınlığı ilə yanaşı, onun müqəddəsliyinin, ülviliyinin qorunmasına çağırış və öyüd-nəsihət də görürük. Bu şeirlərdə abır-həya var, ismət var, pərdə var. Ürəklə ağılın vəhdəti var.

"Sevən kəslər Allaha da xoş gəlir", məhəbbəti dərinlər heç vaxt dayaz olmaz, – deyən Z.Yaqub qızı çiçəyə, özünü o çiçəkdə şehə bənzədir, "qız çəməndir, o çəməndə meh mənəm", gözəlliyə "beş-on günlük mehmanam", – deyir. "Vurğunu da, yorğunu" da biz olsaq da, "vaxtlı-vaxtsız Zəlimxanlar keçsə də", gözəl dünyanın gözəlləri var olsun deyir.

"Sevgini danmaq nədir?" – deyə sual edir və öz sevgisini gizlətmir, "eldən gizli sözüm yox", – deyərək hamıya bəyan edir, dil də bilsin, dodaq da, haqq da bilsin, nahaq da deyir ("Nə diş bilsin, nə dodaq").

"Sevgiyə nökərəm, sevgidi şahım", – deyən Zəlimxan Yaqub üçün dünyaya nə qədər şahlar gəlib-getsə də, sevginin şahı, sultanı bir başqadır. Vəsf etmək, şəninə nəğmə qoşmaq üçün bir gözəlin saçları min şairə bəs edər ("Bir gözəlin saçları"). Onun üçün gözəllər olmadan ləlin, gövhərin də bir qiyməti yoxdur. Razıdır ki, gözəllər kirpiyini ox edib onun sinəsini nişangaha çevirsin, təki qəlblərində kədər, ah olmasın ("Gözəllər").

Şair üçün sevgi inamdı, ümiddi, həyatdı, dindi, imandı. Gözəlliyi şahlıq taxtı, özünü isə bu şahlığın köləsi sayır. Eşqin, sevginin, ümidin, inamın ölməsini Allah heç kəsə göstərməsin deyir.

Onun sevgi şeirlərində sevənlərə bir ağsaqqal öyüd-nəsihəti, xalqımızın adət-ənənəsini unutmamağa, dünya malına uymamağa bir çağırış var:

Deyəsən, gözəlim, uyma sərvətə,
Dünyada kamaldan, ağıldan yarı!

Cehiz əvəzinə, qızıl yerinə, qızlarda qızıl xasiyyətin olmasını daha vacib sayır.

Gözəlin kəməndinə düşənlərə, "alovlu baxışlara aldanma", "axtar anasını, özünə baxma", onun ağlını dərk elə (burada istər-istəməz "anasına bax, qızını al, qırağına bax, bezini al" kimi məşhur el deyimi yada düşür) deyə məsləhət versə də, "eşqi bala kimi bağrına bərk bas", ona kədərin, qəmin toxunmasına imkan vermə də deyir:

Həyatda hamıya yaxşı qulaq as,
Sevgidə heç kəsin sözünə baxma.
("Baxma")

İnsanları dünyaya qəzəbin, kinin, nifrətin yox, sevginin gözü ilə baxmağa çağırır, əgər sevginin gözü ilə baxarsansa, gözlərində ulduzlar böyüyüb Aya, çeşmələr çaya dönər, insanı ən uca zirvədə görərsən, damlada dəryanın dərinliyini duyarsan, bir zərrədə dünyanı tanıyarsan, – deyir. Dünyaya sevginin gözü ilə baxanların qəlbində dinlər içində ən müqəddəs din də sevgidir, orda zərrə qədər kin olmaz, çünki Tanrının işığı yanan ürəkdə cinə, şeytana yer olmur ("Sevginin gözüylə baxsan dünyaya"). Nifrət insanı həmişə məşəqqətə çəkər, amma sevgiylə baxsan cəhənnəmə bənzər bir yer də gözündə dönüb bir yaşıl çəmən olar.

"Səni sevmək üçün gəldim dünyaya" şeirində yenə sevgisini özünəməxsus formada bildirir. Mən bu dünyaya min il əvvəl də gələ bilərdim, zamanı başqa cür hesablayıb, vaxtı başqa cür bölə bilər, min il sonra da ölə bilərdim, amma

çöldə çiçəyə, çəməndə naxışa, şimşəkdə oda, buludda yağışa dönüb, çeşməyə çevrilərək çaya qarışdım, sən doğulan həftəyə, aya düşüb bu dünyaya səni sevmək üçün gəldim deyir. Öz gəlişiylə neçə dinsizləri dinə, sünbülləri dənə gətirir, onun qarşısını heç bir maneə kəsə bilmir:

Məcnun da, Kərəm də, Fərhad da mənəm,
Məcnuna, Fərhada qanad da mənəm.
Ölüm də, sevgi də, həyat da mənəm,
Şükür yaradanın verdiyi paya,
Səni sevmək üçün gəldim dünyaya.
(“Səni sevmək üçün gəldim dünyaya”)

Sevgi elə bir ülvi, müqəddəs hiss, sehirli bir gücdür ki, onun qarşısında hər kəs acizdir. Sevgi ömrün yaşına baxmaz. Bu mənda, şairin “Dəli olmağıma bir addım qalıb” şeirini səmimi bir sevgi etirafı kimi də qəbul etmək olar:

Gülməsin bu halda məni görənlər,
Tər çiçək nədirsə, bilir dərənlər.
Ayılın, ay mənə ağıl verənlər,
Dəli olmağıma bir addım qalıb.
(“Dəli olmağıma bir addım qalıb”)

Dünyanın heç yerində sənin kimi pəri yox, sən buludların arasından enmiş mələksən dediyi Çin qızına həsr olunmuş və bu gün dillər əzbəri olan şeirində bu gözəlliyin heyranı təkcə mən olmamışam, “dünən babalar olub, bu gün heyranın mənəm”, – deyir:

Mən indi başa düşdüm,

Niyə Nizami babam,
Çin yazıb, Çin deyirmiş.
Mən indi başa düşdüm,
Niyə Füzuli babam,
Sevgiyə din deyirmiş!
Mən indi başa düşdüm,
Nə üçün Molla Pənah,
Çinü-Maçin deyirmiş!
("Çin qızı, Çin gözəli")

Əslində bu şeir Çin qızının timsalında harada yaşamasından, hansı millətə, hansı dinə mənsub olmasından asılı olmayaraq şairin gözələ və gözəlliyə verdiyi qiymətdir. "Küsmə məndən" şeiri də bizim bu fikrimizin bir növ təsdiqidir. "Çin qızı, Çin gözəli" şeirini söylədiyi məclisdə bir gözəl qızın, belə bir gözəl şeirin niyə Azərbaycan gözəlinə yox, Çin qızına yazıldığına etiraz edərək bayıra çıxmasına cavab olaraq yazdığı bu şeirdə şair üzünü həmin gözələ tutaraq, küsmə məndən, gözəl mələk, gözəlləri Allah mənim kimi qulları üçün şah yaradır, – deyir:

Bircə gözəl yaradıbsa, bütün Çinə qurban olum,
Hansı dində olur-olsun, mən o dinə qurban olum.
Yaradanın eşq adlanan hikmətinə qurban olum,
Yeri-göyü sevmək üçün insanda tamah yaradır!
("Küsmə məndən")

"Mənim bircə dinim var, dinimin adı sevgi" şeirində də sevginin bəşəriliyi önə çəkilir. Şair deyir ki, insanların arasına şeytan nifaq salır, bizi dillər, dinlər ayırır, sevgi yox! Elə ona görə də deyir ki, mənim doğulmağım da sevgidi, öl-

məyim də, kəfənimin, sonumun da, ruhumun, nəfəsimin, canımın, həyatımın, ömrümün, dinimin, namazımın, qibləmin də adı sevgidir. Sevgi günəş kimidir, o, bölünməz:

Sevgi Günəş kimidir,
düzə, tərsə bölünməz,
Təriqətə, məzhəbə,
sinfə, dərsə bölünməz.
İngilisə, almana,
rusa, farsa bölünməz,
Türkümün, ərəbimin,
çinlimin adı sevgi,
Mənim bircə dinim var,
dinimin adı sevgi.

Sevgi sözünü əqidə, inam sayan, sevənləri peyğəmbər, imam mərtəbəsində görən şair hər qaşında Quranın bir ayəsini gördüyü gözəl üçün "Quran, İncil, Tövrat, Zəbur eşqinə" dua edir, Zəlimxansız dünya bir şey itirməz, Allah səni pənahında saxlasın, – deyir.

Belə gülü hər gülüstan bitirməz,
Hər torpaq da bu neməti yetirməz.
Zəlimxansız dünya bir şey itirməz,
Allah səni pənahında saxlasın.
("Allah səni pənahında saxlasın")

Harda yaxşı nə varsa, bil ki, onun mayası sevgidəndi, – deyən şair ədavətdən yorulub, nifrətdən bezən, kin-küdurətin bir-birinə calaq olduğu dünyanı sevgi yağışları ilə ovutmaq istəyir. Sevib cavanlıq etmək azdır, sevgini xəyanətin əlin-

dən almaq, sevib qocalmaq gərəkdir deyir. Dünyanı sevgi yağışlarına tutmaq istəyir ki, yer üzündə bütün insanları şirin, mehriban görsün, boz səhralar da, sərt qayalar da gül bitirsin:

Can səpdim, can əritdim, yenə can bitirəcək,
Sağlam toxumlar düşüb din-iman bitirəcək.
Eşqi, məhəbbətiylə Zəlimxan bitirəcək,
Sevgi yağışlarına tutacağam dünyanı.
(“Sevgi yağışlarına tutacağam dünyanı”)

Gözəlin gözlərindən, baxışından vəcdə gələn şair, “belə baxış olmaz, belə göz olmaz”, bu gözlərə sanki göylər ulduz verib, Ay verib, yerlər çeşmə, çay, Peyğəmbər öz nurundan pay verib, – deyir:

Ürək yüz parçadı, könül yüz para,
Bir gözəl gözündə çəkildim dara.
Öldürməz, əlindən canım qurtara,
Allah, gözlərə bax, nə gözəl baxır!!!
(“Allah, gözlərə bax”)

Məhəbət adamı başqadı, zəriflik istəsən çiçəyə, kövrəklik istəsən mələyə dönər, sərin mehə dönüb hisslərə, duyğulara sığal çəkər. Məhəbbət adamının ruhunda, qanında savaş yox, barış var. Sevənlərin yolu Adəmin, Nuhun yoludu, adı qəlbimizdə olan müqəddəslərin yoludu. Bu yol Qorquddan, Məcnundan, Fərhaddan, Abbasdan, Dilqəmdən keçib:

Hamını qızdırar
odu, alovu,

Yanan ocaqların
pirinə dönər.
Yatdığı torpaq da,
qurduğu ev də,
Millətin ziyarət
yerinə dönər.
Məhəbbət adamı
başqadı, qardaş,
Məhəbbət adamı
başqadı, qardaş.
("Məhəbbət adamı başqadı, qardaş")

Onun qəhrəmanı sevdiyinin qəlbinə hakim olmaq üçün hər şeyə hazırdır. Sənin qəlbinə yol tapmaq üçün qayamı çapım, şahamı çevrilim, nökərinmi olum, – deyir:

Tufanmı qaldırım, mehəmi dönüm?
Yağışmı yağdırım, şehəmi dönüm?
Qulamı çevrilim, şahamı dönüm?
Çəmənim, çiçəyim, gülüm, gülabım,
Mən sənin qəlbinə necə yol tapım?
("Mən sənin qəlbinə necə yol tapım")

Onun bir gözələ olan sevgisi ilə təbiətin, ümumiyyətlə, dünyanın bütün gözəlliklərinə olan sevgisi arasında bir vəhdət var. O, dünyanı bütövlükdə gözəl görmək istəyir. Sevgi şeirlərindən də təbiətin ətri gəlir. Saralmaq payızın nişanəsidir, sən yamyaşıl çəmən kimi "yanıma gələndə yaşıl gey, gözəl", deyir ("Yaşıl tağ üstündə yaşıl yarpaq ol"). Başqa bir şeirində isə yenə təbiətin gözəlliyindən vəcdə gələn şair ilhamı coşaraq, "nə gözəldi bu dağların lalası, mən getsəm

də, könlüm burda qalası” söyləyir və “bir zalımın balası” sevsə, ölüb elə bu yerlərdə qalardım deyir.

Gözüm ki, bu qədər gözəllik görüb,
Yaxşı ki, heyrətdən lal olmamışam!

– deyərək gözəllik qarşısında heyrətini gizlədə bilmir. Nə aha, nə amana fikir vermədən “yer üzünü çiyninə alıb gedən” gözələ heyranlığını belə ifadə edir:

Nə amana fikir verir, nə aha,
Mən qul oldum, o çevrilib bir şaha.
Bəlkə təzə qohum olub Allaha,
Bu qız niyə havalanıb görəsən?
(“Bu qız niyə havalanıb, görəsən?)

Zəlimxan Yaqub üçün “gözəllik başdan-başa ilhamdı, düşüncədi”. Həyatda sevgi hər şeydən üstündür deyə, sevənlər üzünü Allaha tutur. Sevgi adlı bir Allaha tapınmasan, belə bir ömrü yaşamasan yaxşıdır, illərlə axtardığın ən böyük dərinlik sevdiyin gözəlin gözlərindədir, sevənin qarşısını dağ, dərə, bənd, bərə kəsə bilməz, – deyir. Allaha dua edir ki, “sən məni həmişə gözəlliyə möhtac eylə”.

“Qayıdaq əvvəlki xatirələrə” şeirində “ilk sevgi çiçəyi harda açılıb” kimi suala cavab axtaran şair, indiyədək bəlkə də min kərə məcnunlar doğulan “bu yolda nə sən birincisən, nə mən birinci” qənaətinə gəlir bu gün xatirəyə dönmək çətindir deyir:

Bugünkü sevgilər xatirələşmir,
Bu gün xatirəyə dönmək çətindi.

Soyuq ürəklərdə ölür duyğular,
İsti ürəklərə enmək çətindi.
(“Qayıdaq əvvəlki xatirələrə”)

“Min tilsim qalası dağıtmalısan, bir sevgi sarayı yapana kimi”, – deyən Zəlimxan Yaqubun sevgi mövzusunda yazdığı və dillərdə əzbər olan şeirləri çoxdur, onların çoxuna musiqi bəstələnib. Heç şübhəsiz, onların hamısından söhbət açmaq mümkünsüzdür. Amma bir şey aydındır, nə qədər ki, sevənlər var, sevilənlər var, nə qədər ki, “üstü Allahın, altı bizim” olan yaşıl ağaclar var, bu şeirlər də unudulmayacaq, sevənlərin dilində nəsillərdən nəsillərə ötürüləcək, bütün zamanlarda sevənlər bir-birinə “bu yaşıl ağacın altı bizimdir” deyə pıçıldayacaq:

Dən kimi səpələ, toxum kimi ək,
Zəlimxan, bu anın ləzzətini çək.
Hələ bizdən sonra çoxu deyəcək,
Bu yaşıl ağacın altı bizimdi.
(“Bu yaşıl ağacın altı bizimdir”)

"ÖLƏNDƏ DƏ QƏBRİM QƏDƏR AZƏRBAYCAN TORPAĞIYAM"

Xalqım, səni uca gördüm – bu ucalıq bəsdi mənə,
Sən varsansa, neyləyəcək düşmənlərin qəsdi mənə!
Z.Yaqub

Zəlimxan Yaqubun yaradıcılığının ana xəttini Vətən, vətənpərvərlik mövzusu, yurdun hər daşının, qayasının, çölünün-çəməninin tərənnümü və təbliği təşkil edir desək, yəqin ki, səhv etmiş olmarıq. Bütün varlığıyla, canı-qanıyla doğma Vətəninə bağlı olan, "öləndə də qəbrim qədər Azərbaycan torpağıyam" deyən Xalq şairi təkcə şeirləri ilə yox, hər çıxışı, hətta adi danışığı ilə də Vətənin yorulmaz təbliğatçısıdır, insanlarda vətənə məhəbbət hissini artırır, yurd sevgisini daha da alovlandırır. Təsadüfi deyildir ki, akademik Budaq Budaqov Zəlimxan Yaqubdan danışanda belə deyirdi: "Zəlimxanın nəfəsi dəyən yerdə xeyir-bərəkət göyərməlidir. Çünki bütün vətənpərvər şairlər kimi, o da qanı canına hopdurulmuş ana torpağın yetirdiyi oğullardan biridir".

"Zəlimxanın elimizə, el sənətimizə böyük sevgisi və borc hissi onu heç kəslə qarışdırıla bilməyən bir yüksəkliyə gətirmək ərəfəsindədir", – deyən akademik Xudu Məmmədov isə hesab edir ki, onun yaradıcılığında Vətən mövzusu mütləq ölçülərlə təsvir olunmur, ölçüsüzlüyə çevrilir. X.Məmmədov eyni zamanda onun natiqliyini, poeziyamızı dərindən bilməsini və yorulmadan təbliğ etməsini də yüksək qiymətləndirir: "Onun nə şeir yazdığını, nə də xalq ədəbiyyatına oxşarsız vurğun olduğunu

bilməsəydim də, təkcə poeziyamızın gözəl təbliğatçısı kimi pərəstiş edərdim”.

Özünü heç zaman heç yerdə qərib saymayan şair “Hara ayaq bassam ora öz vətənimdir, mən bu torpağınam, torpaq mənimdir” (“Doğmayam”), sənin eşqin, sənin odun olmasa, şair qəlbi yana bilməz, ey Vətən, – deyir, Vətəni ayaqda saxlamaq üçün hər çətinliyə sinə gərməyin vacibliyini önə çəkir:

Vətəni ayağa salmamaq üçün,
Bəzən dizin-dizin sürünmək gərək!

Oymaq-oymaq, oba-oba yurdumuzu gəzib dolanmasa, xalqın söhbətinə vurulmasa, sözlə dolu sinələri sərvəti sayıb hikmətinə fikir verməsə, xalqın ismətinə nur yağdıran “eşqi dastan, özü nağıl” nənələri dinləməsə, millətin şöhrətinə çevrilən babaların ocağına baş əyməsə əli qələmə, dili sözə yatardımı şairin?! Al qanıyla tarix yazıb qeyrətinə heykəl ucaldan oğulları olan xalqın qəzəbinə tuş gəlməmək, əksinə, onun xidmətində durmaq istəyir:

Ağrımayan ürək ola, baş ola,
Can sirdaşım torpaq ola, daş ola,
Arzuların sayı qədər yaş ola,
Ömür verəm xidmətinə bu xalqın.
(“Bu xalqın”)

Qara əllər birləşib başına min oyun açanda, yarasına köz qoyub, duz basıb göynədəndə, gözümüz baxa-baxa vətən torpağı gülləboran ediləndə, həqiqət susub, şər-böhtan ayaq açanda da şair ruhdan düşmür, “bu da bir cür imtahan, bu da

bir cür sınaqdı" deyir və inanır ki, xalqımız bu sınaqdan da alnıaçıq, üzüağ çıxacaq. Çünki qanımızda qaynayan "Misri" var, "Cəngi" var, ruhumuzu oynadan nəhənglərimiz var. Şair inanır və oxucusunu da inandırır ki, bu qovğalar da ötüşəcək, şəhidlərin qanı yerdə qalmayacaq, düşməndən qisasımız alınacaq, haqq işimiz qalib gələcək və o zaman sinəsini varaq edib xalqımızın qəhrəmanlıq dastanını yazacaq. Onun bu inamı qətidir və bu inamla da "Vətən, əymə qəddini" deyir:

Can deyirsən, ordumuz səndən ötrü can verir,
Qan deyirsən, igidlər damarından qan verir.
Qəhrəmanlıq duyğusu kişiyə meydan verir,
Millətin əqidəsi bu gün sənə dayaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!
("Vətən, əymə qəddini")

Şairin bu inamını gücləndirən, qələminin gücünü, sözünün kəsərini artıran xalqımızın qeyrətli oğulları, müstəqil dövlətimizin qüdrətli ordusudur. Onun bu sözləri bu gün bir zərb-məsəl, atalar sözü kimi səslənməkdədir: "Ordum varsa, yurdum var! Ordum yoxsa, yurdum yox!" ("Ordum varsa, yurdum var"). Şair həm də deyir ki, azadlığın meyvələri döyüşsüz dərilməz, şəhid vermədən millətin ruhu dirilməz. Ona görə də, bir canda, bir ürəkdə, bir ruhda birləşməliyik. Bu birlik, bu bütövlük həm də güclü ordu deməkdir. Qüdrətli ordun varsa, sarsılmaz Vətənin, isti yuvan da olacaq.

"Ustadım, sərkərim, ozanım, haray!" – deyə, Koroğlunu haraylayır ("Haray"), "bir əlində qılınc, bir əlində saz, dur bu tarixi öz əlinlə yaz", – deyir.

Tarixi həqiqətlər saxtalaşdırılanda dözə bilmir, "babaların ruhu bizdən küsə bilər", – deyib, haqq səsini ucaldır:

Bir doğrunun ürəyindən gələn bir səs,
Min yalanın hökmü ilə bata bilməz!
Alçaqların qəbrini qaz, kökünü kəs,
Sənə qəbir qazılanda səbr eyləmə!
(“Səbr eyləmə”)

Onun hər şeirindən Vətən ətri gəlir, el-obanın, yurd-yuvanın isti hənirtisi, sazımızın nəfəsi, dilimizin şirinliyi duyulur. Yurd havası çalmayan sazı quruca taxta parçası sayır, nə qədər ki, ellərimiz hələ öz muradına tam çatmayıb, nə qədər ki, Təbriz hələ taleyindən narazıdır, Arazı da coşqun sel saya bilmir, “dilim, dillər içində ötməsən, sənə dil deyə bilmərəm”, – deyir:

Min illərin adətini itirsən,
Dil adlanan sərvətini itirsən,
Elim, çaşıb qeyrətini itirsən,
Öl deyərəm, el demərəm mən sənə!
(“Demərəm”)

Şair Azərbaycanın cənnət guşələrinin əsrarəngiz gözəlliyini tərənnüm etməkdən doymur. Hər daşına-qayasına, cığırına-izinə, çölünə-çəməninə, yoxuşuna-enişinə, çeşməsinə, çayına bələd olan Zəlimxan Yaqub ana yurdun bulağına bənzər bulaq, Qarabağın düzünə bənzər düz, Şahdağına bənzər dağ, göy Xəzərə bənzər dəniz hanı deyir:

Hər gözəllik qanadıdır sənətin,
Görüşü xoş, ayrılığı çox çətin.
Nə həddi var əfsanəvi cənnətin,

Azərbaycan torpağına bənzəyə!
(“Bənzəyə”)

“Əsgər qardaşıma məktub” şeirində amansız bir həqiqəti xatırladır: “vətəndaş yoxdursa, Vətən də yoxdur”. Böyüyə-böyüyə tarixə gələn bir millət kiçilə-kiçilə gedə bilməz. Babalardan yadigar qalmış bu böyüklüyü, bu möhtəşəmliyi və ucalığı qoruyub saxlaya bilməsək, gələcək nəsillər bizi bağışlamaz. Torpağın üstündə yeri olmayanlar, torpağı qorumağı bacarmayanlar torpağın altında rahat yata bilməzlər.

Şair deyir ki, qələbə pay deyil ki, kimsə gətirib hədiyyə kimi versin. Onu gərək öz gücünlə, qüdrətinlə özün qazanasan:

Qələbə pay deyil, hədiyyə kimi,
Gətirib hardansa verələr sənə.
Özün qazanmasan lənət oxuyar,
Bu dağlar, bu düzlər, dərələr sənə!

Şair bu qələbənin uzaqda olmadığına inanır. Tarixin sərt sınaqlarından çıxan xalqımız bəzən qan-yaş töksə də, gözlərini silməyi bacarması şairin bu inamını möhkəmləndirir.

“Füzuli zirvəli, Vaqif arxalı”, söz sarıdan ehtiyacı olmayan, dərdli anaların bağrından qopub, sazın pərdəsindən süzülən, “bayatı beşiyi, layla yuvası” olan bal kimi şirin-şəkər dilimizlə hər zaman öyünür, qürur duyur, “Sənin qüdrətinə arxalanmasa, Xətai qılıncdan yapışardımı?!” – deyir:

Füzuli zirvəli, Vaqif arxalı,
Mənim Qorqud dilim, Ələsgər dilim.

Ömrümün naxışı, bəxtimin xalı,
Dadda, şirinlikdə bal-şəkər dilim!
(“Dilim”)

Zəlimxan Yaqub, qürbətdə Vətən sözünün daha əziz, daha şirin olduğunu, uzaqdan baxanda Vətənin daha da gözəl göründüyünü deyir. Qürbətdə nə varsa ona quru, Vətən isə saf, duru görünür, qürbəti ayaq altına sərilən böz həsirə, Vətəni min ilməli, naxışlı xalıya bənzədir və Azərbaycana yenidən vurulur. Azərbaycanı qibləsi sayır. Onu bu qiblədən özgə yana çevrilməyə qoymayan, bütün sevgilərdən baş olan torpaq, tarix və yaddaş sevgisidir:

Ruhumu bədənsiz eyləmə, Allah,
Ölümü kəfənsiz eyləmə, Allah,
Heç kimi vətənsiz eyləmə, Allah.
Analar içində müqəddəs ana,
Yenidən vuruldum Azərbaycana!
Yenidən vuruldum Azərbaycana!
(“Yenidən vuruldum Azərbaycana”)

“Ondan əziz məskənim yox, yuvam yox” deyən Zəlimxan Yaqubun sığındığı Vətən torpağıdır. Onu sevmək istəyənləri də öncə bu yurdu, bu torpağı sevməyə çağırır:

Hər qarışı müqəddəs aranı sev, dağı sev,
Məni sevmək istəsən, bu yurdu, torpağı sev.

"BU DÜNYA ƏBƏDİ DİRİLƏRİNDİ"

Bircə təsəllim var, eşqim ürəkdən,
Adım yaddaşlardan silinməyəcək!
Z.Yaqub

İnsan-dünya, həyat-ölüm mövzusu bütün dövrlərdə ədəbiyyatın əsas mövzularından olub. Elə şair tapmaq çətindir ki, bu dünyanın gərdişinə şeir həsr etməmiş olsun. Bu baxımdan Zəlimxan Yaqubun yaradıcılığı da istisna deyil. Dünyanın gərdişinə, həyat fəlsəfəsinə, insanın bu dünyadakı və axirətdəki aqibətinə həsr etdiyi şeirlərdə şairin özünəməxsus müdrik yanaşması diqqəti cəlb edir.

"Sual-cavab" şeirində insanla dünyanın mükaliməsini verir. İnsanın, "Dünya, səni bu günlərə kim saldı?", – sualına dünyanın cavabı bu olur:

Niyə mənə bu sualı verirsən?
Səpdiyindi, bəhrəsini görürsən.
Cilddən-cildə, dondan-dona girirsən,
Sən qoymusan məni yaman günlərə.
("Sual-cavab")

Dili zəhərli gəzən aravuranları, bir anda yerin altının üstə çevrildiyini görəndə, "birinin dedikləri o birinin dilində" puç olub saxta çıxanda, zaman cəmiyyəti dolaşdıranda, bu həyatı bilmək olmur deyir:

Ürək səsdə, təlaşda,
Baş fikirlər içində.

İnsan çox düşünsə də,
Qalır sirlər içində.
Hər gün çıxır cıdıra,
Hər gün büdrəyir atı.
Kimdi çıxan qabağa,
Kimdi qalan arxada,
Bilmək olmur zamanı,
Bilmək olmur həyatı!

(“Bilmək olmur həyatı”)

Kim söyülür, kim döyülür, “kim kimi tərifləyir, kim kimi hərifləyir”, – dünyanın vecinə deyil, dünya öz işindədir. O, nə taxtı yıxılana baxır, nə də taxta çıxana, onun üçün ağlayan da birdir, sevincini bölən də, düşüb yerdə qalan da birdir, yerdən qalxan da:

Yüz yaşa, bəsin deyil,
Yüz səslə, səsin deyil.
Hamı bu dünyanındır,
Dünya heç kəsin deyil,
Dünya öz işindədir!

(“Dünya öz işindədir”)

Qəbristana gedən yolda düşüncələrə dalan, adamları fağır, addımları ağır görən şair deyir ki, cığırları nəmli olan bu yolda giriş var, çıxış yoxdur. Amma bu yolda insanın təmizlənib durulması, Allaha qovuşması var:

Ah qalxır, aha qovuşur,
Ağı segaha qovuşur,
İnsan Allaha qovuşur,

Qəbristana gedən yolda.
(“Qəbristana gedən yolda”)

“El yadda saxlamaz evdən gedəni, insan əzizlənər eldən gedəndə” (“Gedəndə”), – deyən şair nə zaman, hansı məkanda – Bakıdamı, Təbrizdəmi, Mərənddəmi, Göyçədəmi, Borçalıdamı, Dərbənddəmi, Kərkükdəmi …, kənddəmi, şəhərdəmi, yoxsa qanlı səngərdəmi dünyasını dəyişəcəyini bilməsə də, bir şeyi dəqiq bilir:

Məzarımın üstündə,
Baş daşıma yazılmış,
Belə bir bənd olacaq:
Yer üzündə bəndənin,
Göy üzündə Allahın,
Qədrini bildi getdi.
İşıq ömrü yaşadı,
Sevdi, sevildi getdi.
(“Sevdi, sevildi getdi”)

“Xeyirlə şər qardaşdır”, “sevinc döyən qapını, qəm də döyür” inancı şairin yaradıcılığında da öz əksini tapır. İnsan həyatı ilə təbiətdə baş verənlər arasında bir oxşarlıq görən şair yazır ki, bir budağın üstündə həm qızılgül, həm də tikan olduğu kimi, insanın çöhrəsində də “sevinc gül açanda, qəm kədər olur” (“Olur”). Və deyir ki, həyatdan ikinci ömür istəmək əbəsdir, onsuz da heç kəsə ikinci ömür verilən deyil. Allahın verdiyi bir ömürdə yaddaqalan bir iş görə bilməyənə, xatirələrə çevriləcək əməl sahibi olmayanlara yüz ömür versən də faydası yoxdur. Həyatdan köçmək hələ xatirəyə dönmək deyil.

Nə baxta, nə qızıldan taxta, nə də vaxta arxayın olub ömrü boş keçirməməyi məsləhət görür:

Yalvar, yaxar, yüyür, yeri,
Ötən günlər gəlməz geri.
Boş ömrün, boş qalar yeri,
Papağı günə yandırma!
(“Papağı günə yandırma”)

“Mən bu cahana sığımazam” – deyən şairə haqq qazandıran Zəlimxan Yaquba görə, “ikihecalı bir sözə sığışan” dünya çox balacadı. “Göy üzündə dəmir atları” çapıb dünyanın bu başından boylananda o biri başını, hətta sonsuzluğun da sonunu görür. Və deyir ki, kainatı dərk elədikcə insan özü də kainat qədər böyüyür, dünyadan böyük olur:

Fikirlər, xəyallar qol-budaqlıdı,
Cahana sığmayan şair haqlıdı.
"Gələn bəzirgandı, gedən xocadı,"
Dünya bir uşaqdı, insan qocadı,
İlahi, bu dünya nə balacadı.
(“İlahi, bu dünya nə balacadı”)

“Beşiklə məzar arası” ömrün qısalığından, vaxtın-vədənin sürətlə keçməyindən gileylənir bəzən. Sən demə, vaxt axar su, ömürsə bir yuxuymuş, “nə yatdım, nə yuxu görəm”, – deyir. Ömür elə gəlib keçir, bir də gözünü açırsan ki, qürub çağı başının üstünü alıb:

Bu dünya xamladı, insan xam oldu,
Ürək bir küləklə sönən şam oldu.
Səhər açılmamış gün axşam oldu,
Ömür belə keçdi, gün belə keçdi.
(“Keçdi”)

Dünyanın sevinci, nəşəsi ilə yanaşı, dərdi də böyükdür. Bu dərdi çəkməyə hər adam dözə bilmir. “Dünyanın dərdini hamı çəkəmmir, dünya öz dərdini çəkənə verir”, – deyən Z.Yaqub dinsizlərin din pərdəsinə büründüyü, “pələng öləndə pişiklərin meydan suladığı” dünyanın dərdini təkbaşına çəkməyin ağırlığından giley edir:

Yüngül olsa öhdəsindən gələrdim,
Dünya, dərdin çəkiləsi dərd deyil.
Təkbaşına çəkə-çəkə ölərdim,
Dünya, dərdin çəkiləsi dərd deyil.
(“Dünya, dərdin çıəkiləsi dərd deyil”)

İnsanın arzusu sonsuzdur, tükənməzdir. Bütün arzuları reallaşdırmağa nəinki bir, heç beş ömür də bəs etməz. Zəlimxan Yaqub da deyir ki, insanın arzusu o qədər çox, o qədər sonsuzdur ki, zamana sığ–ışmır, bütün arzuları həyata keçirməyə vaxt çatmır. Ona görə də “Aman ölüm, mən dediyim vaxtda gəl”, – deyir. Bu, əslində şairin ölümdən qorxması deyil, arzularına çatmaq üçün möhlət istəyidir:

Qapısını öz əlimlə döyərəm,
Əzrailə “xoş gəlmisən” deyərəm.

Kəfənimi gülə-gülə geyərəm,
Aman ölüm, mən dediyim vaxtda gəl!
(“Aman ölüm, mən dediyim vaxtda gəl”)

Burada istər-istəməz M.C.Ruminin dedikləri yada düşür: “Məqamı gələndə ölümü qarşılamaq ən böyük elmdir”. Volter isə deyirdi: “Ölümdən kimlər qorxar və kimlər ondan boyun qaçırmaq istər? Günahkar ondan qorxur, bədbəxt onda nicat axtarır, igid ona meydan oxuyur, müdrik isə təəssüf hissi keçirmədən onu qəbul edir”.

“Zamana sözünü deməyə” gələn, “alnına sözün qisməti” (“Gəldim”) yazılan Z.Yaqub yaxşı bilir ki, bu dünyada ölməz bir kimsə yoxdur, hərənin bir alın yazısı var: “İstər sarayda yaşa, istər daxmada, damda, axırda məzar adlı dar otaq səninkidir”. Həyat qapısından girənlərin, ölüm qapısından çıxmağı da var. Ona görə də, “əcəlim qoy gəlsin ağsaqqalyana”, – deyir, Tanrıdan mələk ölümü istəyir.

Böyük türk şairi Yəhya Kamal yazırdı:

Ölmək deyildir ömrümüzün ən fəci işi,
Müşkül odur ki, ölmədən əvvəl ölür kişi.

Zəlimxan Yaqub yazır:

Dəfndən sonradı yolun çətini,
Nə varsa yüngüldü dəfndən əvvəl.

Dünyanın kiçikliyindən, darlığından şikayətlənən, bu dünyaya sığışmayam şair “məni bu dünyaya sığışdır, gedim”, – deyir. İnanır ki, onun ölümü də gözəl olacaq.

Ölümdən sonra da həyat var və insanı öldürən həyatdansa, yaşadan ölüm yaxşıdır:

Məni öldürən həyat, nifrət edirəm sənə,
Məni yaşadan ölüm, hardasan, tez gəlsənə!

***

Gözəl olan şeyləri bir-bir salıram yada,
Rahat ölümdən gözəl heç nə yoxdu dünyada!

Bir tacik xalq məsəlində deyilir ki, "insanın ömrü – onun dünyaya baxması və dünyanın onu görməsi ilə deyil, insanların onu yadda saxlaması ilə ölçülür". Z.Yaqub isə belə deyir:

Baxmağa güzgüsü, aynası yoxdu,
Yüz il yaşasa da, mənası yoxdu.
Diri ölülərin dünyası yoxdu,
Bu dünya əbədi dirilərindi.

Bu dünyanın əbədi dirilərə məxsus olduğuna inanan, elə ona görə də torpağın altına əbədi köçdən əvvəl torpağın üstünü sözüylə bəzəməyə çalışan şair əbədilik qazanıb.

NƏTİCƏ

Xalq şairi Zəlimxan Yaqub çağdaş ədəbiyyatımızın nəhəng simalarındandır. Təsadüfi deyil ki, Xəlil Rza Ulutürk Zəlimxan Yaqubu poeziya hökmdarı, Azərbaycan xalqının başucalığı adlandırır, o yeganə şairdir ki, Azərbaycanda heç bir təbliğata ehtiyacı yoxdur, – deyirdi. Akademik Xudu Məmmədov isə illər öncə belə deyib: "Zəlimxanın elimizə, el sənətimizə böyük sevgisi və borc hissi onu heç kəslə qarışdırıla bilməyəcək bir yüksəkliyə gətirmək ərəfəsindədir". Bu gün isə tam qətiyyətlə deyə bilərik ki, Z.Yaqub mərhum akademikimizn dediyi zirvəni fəth edib. Bunca məşhur olan, hər yerdə sevilən bir şair haqqında söz demək hər bir qələm adamının üzərinə böyük məsuliyyət qoyur.

Z.Yaqubun yaradıcılığı o qədər zəngin və o qədər çoxşaxəlidir ki, onu tam tədqiqata cəlb etmək üçün cild-cild kitablar yazılmalıdır. Bunun üçün isə gərək professor Qəzənfər Paşayevin təbirincə desək, şairin sahilsiz ümmana bənzəyən çoxşaxəli yaradıcılığını öyrənməklə yanaşı, həm də onun yetişdiyi mühiti yaxşı biləsən. Mənim Zəlimxan Yaqubun yaradıcılığına müraciət etməyimə və bunun da nəticəsində "Sözün Zəlimxan zirvəsi" adlı monoqrafiyanın ərsəyə gəlməsinə də məhz bu amillər səbəb oldu. Son illərdə Zəlimxan Yaqubun şəxsi arxivi ilə tanışlığım, onun şeirləri ilə yanaşı, məqalələri, müsahibə və çıxışlarından ibarət kitablarını, eləcə də son illərdə şairin yaradıcılığında mühüm hadisəyə çevrilən 13 cildlik əsərləri külliyyatını nəşrə hazırlamağım bu böyük söz ustadının yaradıcılığı ilə daha yaxından tanış olmağıma imkan verdi. Onunla mütəmadi görüşlərim, söhbətlərimiz, bir şair və şəxsiyyət kimi keçdiyi

ömür yoluna yaxından bələdliyim də təbii ki, bu işdə mənə əlavə stimul verdi.

Yuxarıda da vurğulandığı kimi, Zəlimxan Yaqubu yetişdirən mühiti, onun keçdiyi həyat və yaradıcılıq yolunu yaxından bilmədən onun poeziya dünyasına baş vurmaq çətindir. Ona görə monoqrafiyanın "Zaman səni dana bilməz" adlı ilk bölümündə xalq şairini şöhrətin zirvəsinə gətirən yola nəzər salmışıq. Və qənaətimiz bu olub ki, şairin şöhrətin bu günkü zirvəsinə gəlib çatmasının səbəbi Allahın verdiyi istedadla yanaşı, onun böyüdüyü mühit, ünsiyyətdə olduğu görkəmli saz və söz adamları və bir də gərgin zəhmət, yaradıcılıq prinsiplərinə sədaqət və ardıcıllıqdır.

Monoqrafiyada Zəlimxan Yaqubun yaradıcılığına bir neçə aspektdən yanaşılıb. "Sözdü bu dünyada hər şeydən üstün" adlı bölümdə tədqiqat obyekti kimi müraciət etdiyimiz şeirlərdə biz şairin SÖZə qarşı məsuliyyətinin, həssaslığının, ucuz söz dalınca qaçmadığının şahidi oluruq. Zəlimxan Yaqub deyir ki, söz Allahın yer üzündə nişanıdır, "sözün öz Tanrısı var", uca şeiri yaradanlar yeri göyə bağlaya bilənlərdir. Və şair çox haqlı olaraq bu qənaətə gəlir ki:

Hara getdiyini çox gözəl bilir,
Hardan gəldiyini bilən şairlər.

"Sarıldığım sazdı mənim" adlı bölümdə Zəlimxan Yaqubun aşıq sənəti ilə bağlı yaradıcılığı araşdırılıb. Bəllidir ki, Z.Yaqubu sazsız təsəvvür etmək mümkün deyil, bu, özünü onun yaradıcılığında da göstərir. "Mənim yaradıcılığımın dili çaldığım sazın dilidir", – deyən, "sazdan doğulan", "saza sarılan" Zəlimxan Yaqub, saza Allah

deməyib, amma Allahı sevdiyi qədər sevib. Zəlimxan Yaqub aşıq sənətinə dərindən bələd olduğu qədər də bu sənətin təbliğatçısı, təşviqatçısı və bu gün həm də təşkilatçısıdır. Bütün bunlar yaradıcılığında da öz əksini tapıb. Onun aşıq sənəti ilə bağlı yazdıqları bir neçə cəhətdən diqqəti cəlb edir. Belə ki, biz burada onun aşıq səntinin dünəni və bu günü ilə bağlı publisistik yazıları ilə yanaşı, ayrı-ayrı saz havalarının fəlsəfəsini açan şeirləri və klassik aşıqlarımızdan tutmuş çağdaş dövrümüzdəki ustad aşıqlara qədər hər birinin haqqında şeirləri, xatirə yazıları ilə də tanış oluruq. Onun bu mövzuda bir neçə poeması da var. XX əsr Azərbaycan aşıq sənətinin ünlü nümayəndəsi, Borçalı aşıq mühitinin yetirməsi aşıq Hüseyn Saraçlıya həsr etdiyi "Hüseyn Saraçlı dastanı" ilə isə, Xalq yazıçısı Elçinin də qeyd etdiyi kimi, ədəbiyyatımıza yeni janr gətirdi.

Şairin aşıq sənəti ilə bağlı poema, şeir və məqalələri geniş oxucu kütləsinin rəğbətini qazanmaqla yanaşı, folklorşünaslıq elmi üçün də böyük əhəmiyyət kəsb edir.

Bəllidir ki, Zəlimxan Yaqub aktiv həyatı, fəal ictimai mövqeyi ilə cəmiyyətdə həmişə diqqət mərkəzində olub, keçdiyi bu ömür yolunda bir çox görkəmli ictimai-siyasi xadimlərlə, tanınmış elm, ədəbiyyat, mədəniyyət və incəsənət adamları ünsiyyətdə olub, bu ünsiyyət hətta onların bir çoxu ilə ata-oğul və dost münasibətlərinə qədər möhkəmlənib. Bütün bunlar onun istər poetik, istərsə də publisistik yaradıcılığında da öz əksini tapıb və biz də "Böyüklərin qədrini ancaq böyüklər bilər" bölümündə diqqəti məhz bu mövzuya yönəltməyə çalışdıq. Şairin, şəninə şeir qoşduğu, haqqında ürəkdolusu söz açdığı "dünyaya pak gəlib, pak gedən" bu görkəmli şəxsiyyətlər arasında dövlət xadimləri də var, elm, ədəbiyyat, incəsənət adamları da. Və bu əsərlər

həmin məşhurlara haqq etdikləri qiymətin verilməsi ilə yanaşı, həm də Zəlimxan Yaqubun göstərdiyi bir qədirşünaslıq nümunəsidir. Bu əsərlər bizə yaxın tariximizi xatırlatmaqla yanaşı, Azərbaycanın dövlətçilik, ictimai-siyasi fikir tarixində, elmin, mədəniyyətin, ədəbiyyatın inkişafında böyük xidmətləri olmuş şəxsiyyətlərin gənclərə tanıdılması baxımından da əhəmiyyətlidir.

Zəlimxan Yaqubun hər şeirindən Türkün ruhu duyulur, Vətən torpağının qoxusu gəlir. "Mən elə Türkün ruhuyam" adlı bölümdə şairin türkçülük və Türk dünyası haqqında düşüncələrini, Türkün böyüklüyündən duyduğu qürur hissi ilə yanaşı, türk xalqlarının üzləşdiyi problemlərdən narahatlığını ifadə edən, "Ölində də qəbrim qədər Azərbaycan torpağıyam" bölümündə isə doğma Vətənə məhəbbətdən, dövlətimizə və dövlətçiliyimizə bağlılıqdan doğan şeirlərindən söz açmağa çalışmışıq.

Bu gün xalqımızın ən böyük dərdi Qarabağ dərdidir, müstəqil Azərbaycanın ən böyük problemi Qarabağın erməni işğalından azad edilməsidir. Son onilliklərdə xalqımızın başına gətirilən müsibətlər Zəlimxan Yaqub yaradıcılığında qırmızı xətt kimi keçir. Bu mövzuda onlarla şeir və bir neçə poema yazıb. Bu əsərlərdə ağrılarımıza ürəkdən yanmaqla yanaşı, facilərimizin kökünü də göstərir, bizə güllə atan ermənilərin ünvanını da nişan verir. Bununla belə, şair ümidsiz də deyil, şəhidlərimizin qanının yerdə qalmayacağına, torpaqlarımızın işğaldan azad olunacağına inanır, bu inamla da hamını bu böyük qələbə naminə səfərbər olmağa çağırır. Momoqrafiyanın "Qarabağ ən böyük sualdı, qardaş" bölümü bu mövzuya həsr olunub.

Dünyanın bir çox ölkələrində rəsmi və qeyri-rəsmi səfərlərdə olması Zəlimxan Yaqubun yaradıcılığında da izsiz

qalmayıb. Hər səfərdən əlidolu, az qala bir kitablıq yaradıcılıq məhsulu ilə dönən şair Vətəndən ayrı dözə bilmir, uzaqdan baxanda Azərbaycan daha gözəl, daha möhtəşəm görünür deyir. Qürbətdə olarkən, "Allahdan nə istəyirsən", – deyə ondan soruşanlara "bir Vətən, bir ana" deyə cavab verən Zəlimxan Yaqubun yaradıcılığını səfər şeirləri olmadan təsəvvür etmək mümkün olmadığı kimi, biz də hesab etdik ki, bu mövzuya toxunmsaq, monoqrafiya da bir növ yarmçıq görünər. Bu səbəbdən də "Şair bu dünyanı boşuna gəzməz" bölümünü şairin səfər təəssüratlarından doğan, səfərdə yazılan şeirlərinə həsr etdik.

Zəlimxan Yaqub təbiət vurğunu olan, ən böyük hikməti təbiətdə axtaran gözəllik şairidir. Təbiətin dilini bilməsən, onun hikmətindən baş açа bilməzsən, - deyir. Onun hər şeirindən təbiətin ətri duyulur. "Təbiət Allahın şah əsəridi" bölümündə tədqiq etdiyimiz şeirlərdə bir şey xüsusilə diqqəti cəlb edir: bu şeirlər sadəcə olaraq təbiət gözəlliklərinin təsviri deyil. Bu şeirlərdə şair insan-təbiət münasibətlərinə ayna tutur, insanın təbiətə qarşı amansızlığından narahatlığını ifadə edir, "təbiəti qoruyan Allahı qoruyar" deyərək, "Allahın şah əsəri" olan ana təbiətin qədrini bilməyə, onu qorumağa çağırır. Bu gün təbiətin qorunmasının bütün bəşəriyyətin ən vacib probleminə çevrildiyi bir vaxtda Z.Yaqubun təbiət mövzusundakı şeirlərinin yeniyetmələrin ekoloji tərbiyəsində müsbət rol oynayacağına inanaraq bu şeirlərin orta məktəb dərsliklərinə daxil edilməsini zəruri hesab edirik.

Bütün şairlər kimi, təbii ki, Zəlimxan Yaqubun da sevgi mövzusunda şeirləri vardır. Və biz "Allahın sözünü sevənlər yazır" adlı bölümdə diqqəti məhz onun bu mövzuda yazdığı şeirlərə yönəltməyə çalışmışıq. Onun sevgi şeirləri

də özünəməxsus dəst-xətti ilə seçilir. “Sevgiyə nökərəm, sevgidi şahım”, “mənim bircə dinim var, dinimin adı sevgi” deyən şair əmindir ki, “Sevən kəslər Allaha da xoş gəlir”. İnsanları dünyaya qəzəbin, kinin, nifrətin yox, sevginin gözü ilə baxmağa çağırır, Tanrının işığı yanan ürəkdə kinə, nifrətə, qəzəbə yer yoxdur deyir.

Yuxarıda qeyd etdiklərimizdən də göründüyü kimi, monoqrafiyada Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığından on üç mövzuya müraciət edilib. Təbii ki, Zəlimxan Yaqub kimi zəngin yaradıcılığa malik olan bir şairin bütövlükdə yaradıcılığına ayna tutmaq, ona tədqiqat prizmasından yanaşmaq üçün bir monoqrafiya olduqca azdır. Hesab edirik ki, toxunduğumuz mövzuların hər biri ayrılıqda bir monoqrafiyanın, bir dissertasiyanın mövzusudr. Şübhəsiz ki, zaman-zaman bu mövzular daha əhatəli şəkildə tədqiq olunacaqdır.

MÜNDƏRİCAT

Q.Pşayev. Zəlimxanın poeziya aləminə səyahət 3
Sözün Zəlimxan zirvəsi (giriş əvəzi) 23
“Zaman səni dana bilməz” 29
“Sözdü bu dünyada hər şeydən üstün”.....41
“Haqdan gəlib haqqa gedən yorulmaz” 53
“Mən elə Türkün ruhuyam” 63
“Qarabağ ən çətin sualdı, qardaş” 73
“Mən dünyanı durultmağa can atdım” 87
“Sarıldığım sazdı mənim” 95
“Böyüklərin qədrini ancaq böyüklər bilər”.....111
“Şair bu dünyanı boşuna gəzməz” 126
“Təbiət Allahın şah əsəridi”.....132
“Allahın sözünü sevənlər yazır” 144
“Öləndə də qəbrim qədər Azərbaycan torpağıyam” 154
“Bu dünya əbədi dirilərindi”.....160
Nəticə 167

Korrektor: Elşad Çobanlı

Yığılmağa verilmişdir: 25.11.2014
Çapa imzalanmışdır: 12.01.2015
Tiraj 500; ş.ç.v. 11